RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 187 (9354) 1 SENTYABR 2023-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## İLHAM ƏLİYEV bütün addımlarını vaxtında - tələsmədən və gecikmədən atır



**Azərbaycan Prezidenti İlham Əliyev hər bir addımını öz vədəsində atır!**

**Nə tələsir, nə də gecikir!**

44 günlük Vətən müharibəsində, həm müharibənin başlanmasında, həm gedişində, həm də hərbi əməliyyatların dayandırılmasında bütün bunların şahidi olduq!

*İndi mübarizə hüquqi, siyasi, diplomatik müstəvidə davam edir!*

*Burada da təşəbbüs Azərbaycandadır!*

**Burada da söz sahibi, şərtləri diktə edən İlham Əliyevdir!**

Hər şeyin isə öz zamanı və məqamı var!

Darıxmayaq!

❖ ❖ ❖

Vətən müharibəsi dövründə və sonralar neçə-neçə terrorçunu, I Qarabağ müharibəsi canilərini tutub Bakıya gətirərək cəzalandırdıq!

**Laçın yolunda nəzarət-buraxılış məntəqəsinin yaradılması həm də əsir və girovlara vaxtilə işgəncə verənlərin, Azərbaycan qanunlarını pozanların tapılıb cəzalandırılmasına şərait yaradıb!**

Əvvəlcə barəsində cinayət işi qaldırılaraq beynəlxalq axtarışa verilmiş Vaqif Xaçatryanı, bir neçə gün öncə isə Azərbaycan bayrağına hörmətsizlik etmiş Alen Sarqsyan, Vahe Hovsepyan və Levon Qriqoryanı yaxalayaraq etdiklərinin əvəzini almalarına şərait yaratdıq.

→ 3

## "Total Energies" şirkəti Azərbaycanda fəaliyyətini genişləndirmək niyyətindədir

### Prezident İlham Əliyev "Total Energies" şirkətinin baş icraçı direktorunu qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 31-də "Total Energies" şirkətinin baş icraçı direktoru Patrik Puyanneni qəbul edib.**

→ 2

## Azərbaycan-Qırğızıstan dostluq əlaqələri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir

### Qırğız Respublikasının Prezidenti zati-aliləri cənab Sadır Japarova

Hörmətli Sadır Nurqojoyeviç!

Qırğız Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Keçən il qardaş Qırğızıstana dövlət səfərim zamanı Sizin rəhbərliyiniz altında aparılan genişmiqyaslı islahatların və quruculuq işlərinin ölkənizin hərtərəfli inkişafına və rifahına xidmət etdiyini görməkdən məmnun oldum.

Diplomatik münasibətlərimizin qurulmasından ötən otuz ildə qardaş xalqlarımızın iradəsindən qaynaqlanan Azərbaycan-Qırğızıstan dostluq əlaqələri möhkəmlənmiş, qarşılıqlı maraq doğuran əməkdaşlığımız davamlı şəkildə inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir.

Əminəm ki, ortaq köklərə, qardaşlığa, qarşılıqlı inam və etimada əsaslanan dövlətlərarası münasibətlərimizin genişləndirilməsi, yüksələn xətlə inkişaf edən strateji tərəfdaşlığımızın daha da möhkəmləndirilməsi naminə birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, qardaş Qırğız Respublikasına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 avqust 2023-cü il*

## Azərbaycan ilə Malayziya arasında dostluq əlaqələrini möhkəmləndirmək üçün bundan sonra da birgə səylər göstəriləcək

### Malayziyanın XVI Ali Başçısı Əlahəzrət əl-Sultan Abdullah Riayatuddin əl-Mustafa Billah Şah ibni əl-Mərhum Sultan Hacı Əhməd Şah əl-Mustain Billaha

Əlahəzrət!

Malayziyanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Bu il biz Azərbaycan-Malayziya əlaqələrinin tarixində əlamətdar ildönümünü - ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd etdik. Əminəm ki, Azərbaycan ilə Malayziya arasında dostluq əlaqələrini möhkəmləndirmək, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə, xüsusilə BMT, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı maraq doğuran əməkdaşlığımızı genişləndirmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost Malayziya xalqına daim rifah və firavanlıq arzulayıram.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 avqust 2023-cü il*

## AZƏRBAYCAN 105

## Tariximizin dürüst salnaməçisi




**Azərbaycanın "Əkinçi" ilə başlanan mətbuat tarixində elə nəşrlər vardır ki, adları millətin və dövlətin tərəqqisi ilə birgə assosiasiya olunur. Bu nəşrlərdən biri də yaşı 105-i haqlamaqda olan Cümhuriyyət yadigarı "Azərbaycan" qəzetidir.**

Olduqca mürəkkəb tarixi şəraitdə Azərbaycan istiqlal məfkurəsindən qaynaqlanaraq meydana çıxmış bu qəzet öz yaranışı və fəaliyyəti ilə bütün qaranlıqlara işıq saçıb ictimai həyatı canlandırdı. Ağır bir zamanda mövcudluq uğrunda ölüm-dirim savaşı aparan bir toplumun ictimai tribunasına çevrilmiş rəsmi dövlət qəzeti "Azərbaycan", müstəqilliyə can atan bir xalqı milli oyanışa səslədi, milli kimlik və istiqlal məsələsini önə çəkərək, bu xalqın gur səsi, onun qurduğu hökumətin rəsmi və mötəbər tribunası oldu. Qəzet XX əsrdə keşməkeşli tariximizin salnaməçisinə və dövrü şəffaf şəkildə göstərən güzgüyə çevrildi.

Azərbaycan Milli Şurası 1918-ci il iyunun 16-da Tiflisdən Gəncəyə köçdü. Burada hakimiyyət məsələsi üstündə yaranmış siyasi böhran tezliklə aradan qaldırıldı. Milli Şuranın qanunvericilik vəzifələrini öz üzərinə götürən və F.Xoyskinin rəhbərlik etdiyi yeni hökumət kabinəsi tezliklə dövlət orqanlarını formalaşdırmağa başladı. İlk növbədə ölkədəki hərbi vəziyyətlə bağlı ümumi səfərbərlik elan olundu. İyunun 21-də Osmanlının qədim bayraqlarından biri Cümhuriyyətin müvəqqəti bayrağı kimi təsdiqləndi. İyunun 27-də türk dili dövlət dili elan edildi. Bundan başqa, mövcud vəziyyəti nəzərə alaraq ölkədən kənara ərzaq çıxarılması yasaqlandı. Həmçinin Mart qırğınlarını araşdırmaq üçün Fövqəladə Təhqiqat Komissiyası yaradıldı. Azərbaycan hökuməti bu tədbirlərlə yanaşı, geniş auditoriya üçün türk və rus dillərində "Azərbaycan" adlı qəzet buraxmaq haqqında qərar verdi və bunun üçün hazırlıq işlərinə başlanıldı. Nəhayət, Qafqaz İslam Ordusunun paytaxt Bakını erməni-bolşevik işğalından azad etdiyi gün - 1918-ci il sentyabrın 15-də Gəncə qubernatorunun mətbəəsində "Azərbaycan" qəzetinin ilk nömrəsi işıq üzü gördü. Qəzetin ana dilində buraxılmış səhifələrinin yuxarısında qəzetin adı ilə yanaşı, "Türk və islamçılığa aid məqalələrə "Azərbaycan"ın səhifələri açıqdır" qeydi də verilmişdir.

→ 8

## Xarici diplomatlar Ağdam-Xankəndi yolunda Azərbaycan Qızıl Aypara Cəmiyyətinin ərzaq yüklərinin yerləşdiyi məntəqə ilə tanış olublar

Səfərdə 50-dən artıq ölkə və beynəlxalq təşkilatdan 60-a yaxın şəxs, o cümlədən Türkiyə, Çin, Rusiya, Yaponiya, İsveçrə, Polşa, Çexiya, Bolqarıstan, Rumıniya, Serbiya, Argentina, Kolumbiya, Meksika, Cənubi Koreya, İndoneziya, İsrail, Birləşmiş Ərəb Əmirlikləri, Əlcəzair, Qətər, İraq, İran, Əfqanıstan, Liviya, Fələstin, Ukrayna, Qazaxıstan, Özbəkistan, Belarus, Gürcüstan, Tacikistan və digər ölkələrin, Birləşmiş Millətlər Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, TÜRKPA və sair beynəlxalq təşkilatların təmsilçiləri, habelə xarici jurnalistlər iştirak edirlər.

Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, hərbi attaşelər və xarici jurnalistlər avqustun 31-də Qarabağda yaşayan ermənisilli şəxslərin ehtiyaclarını qarşılamaq üçün Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən təşkil olunan ərzaqdan ibarət yüklərin yerləşdiyi məntəqəyə gəliblər.

→ 2

## Güclü iradənin və qətiyyətin nəticəsi

### Azərbaycan istədiyinə hər zaman nail olur



Laçın Azərbaycan ərazisi olduğundan burada həyata keçiriləcək tədbirlər, o cümlədən sərhəd-buraxılış məntəqəsinin yaradılması da müstəsna olaraq ölkəmizin daxili işidir. Sərhədimizin toxunulmazlığının təmin olunması məsələsi ölkəmizin milli təhlükəsizliyi ilə yanaşı, qanunun aliliyinin də tələbidir.

→ 7

## Azərbaycan "humanitar fəlakət" şousunu fiaskoya uğradır

Ermənistan və Fransa "humanitar böhran" şousunu yaratmaqla dünya ictimaiyyətini çaşdırmağa və informasiya məkanında üstünlük əldə etməyə çalışsa da, Ağdam-Xankəndi yoluna səfər edən diplomatlar real vəziyyətə və ölkəmizin əsl niyyətinə öz gözləri ilə şahidlik etdilər.

→ 5

## Fransanın möhtəkirliyi göz önündədir

Davanın yardım davası olmadığını bilməyən yoxdur. Fransanın apardığı avantürist siyasət onun dünya siyasətindəki roluna, nüfuzuna zərbə vurub. Artıq Fransa Afrikadan sıxışdırılıb çıxardılır. Afrika xalqları öz azadlıqları uğrunda mübarizəyə başlayıblar. Nigerdən sonra Qabonda da çevriliş oldu. İndi Fransa Afrikada itirdiklərini Cənubi Qafqazda qazanmaq, yenidən Cənubi Qafqaz siyasətində mövqeyini bərpa etmək niyyətinə düşüb. Özü də necə? Riyakarlıqla, yalanla, siyasi təzyiq yolu ilə...

→ 5

*Fransanın ölkəmizdəki səfiri XİN-ə çağırıldı:*

## Rəsmi Bakı Parisə nota verdi

Ermənistanın yalan və manipulyasiya kampaniyasına alət olan bu təxribatçı əməllər bölgədə vəziyyətin gərginləşməsinə yönələn və Fransa tərəfindən Ermənistanı revanşist mövqeyini davam etdirməyə həvəsləndirən və son günlər daha da intensivləşən addımların növbəti nümunəsidir. Azərbaycan tərəfi beynəlxalq humanitar yardımın göndərilməsi ilə bağlı beynəlxalq hüquqi çərçivəyə zidd olaraq nümayişkaranə şəkildə Azərbaycan tərəfi ilə razılaşdırmadan, onun iradəsinin əksinə Azərbaycanın beynəlxalq tanınmış ərazisinə hər hansı bir ad altında yüklərin göndərilməsi cəhdini təxribatçı əməl kimi qiymətləndirib və buna qəti etirazı qarşı tərəfin diqqətinə çatdırılıb.

→ 5

## Azərbaycan Ordusunun mövqeləri atəşə tutulub

Avqustun 31-i saat 19:30 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Zod yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun üzbəüz mövqelərini atıcı silahlardan atəşə tutub.

* * *

Avqustun 31-i saat 20:15-də Ermənistan silahlı qüvvələrinin bölmələri Qafan rayonu istiqamətində yerləşən mövqelərindən Ordumuzun Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən məlumat verilib. Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülüb.

# "Total Energies" şirkəti Azərbaycanda fəaliyyətini genişləndirmək niyyətindədir

## Prezident İlham Əliyev "Total Energies" şirkətinin baş icraçı direktorunu qəbul edib



*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, görüşdə "Abşeron" yatağında hasilatın başlanılması vurğulandı və layihənin parametrləri barədə dövlət başçısına ətraflı məlumat verildi. Qeyd edildi ki, hasilat quyusu ən məhsuldar və ən aşağı karbon tullantılarına malik quyudur. Bu da yatağın potensialının zənginliyinin və perspektivinin aydın göstəricisidir.

Söhbət zamanı "Total Energies" şirkətinin Azərbaycanda fəaliyyətinin genişləndirilməsi, o cümlədən "Abşeron" yatağının tam işlənmə mərhələsinə keçməsi barədə fikir mübadiləsi aparıldı, şirkət tərəfindən layihələrdə iştirakla bağlı maraq ifadə olundu. Ölkə ərazisində, o cümlədən Naxçıvanda bərpaolunan enerji layihələrinin həyata keçirilməsi perspektivi və potensialı müzakirə edildi.

# Azərbaycan Respublikasının dövlət müəssisələrinə özəl investisiyaların cəlb edilməsi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dövlət müəssisələrində institusional islahatların, restrukturizasiya və sağlamlaşdırma tədbirlərinin davam etdirilməsi, dövlətin iştirak payının azaldılması vasitəsilə özəl investisiyaların cəlb edilməsi, Azərbaycan Respublikası vətəndaşlarının dövlət müəssisələrinin idarəedilməsində iştirakının genişləndirilməsi, korporativ idarəetmənin tətbiqinin şaxələndirilməsi və qiymətli kağızlar bazarının inkişaf etdirilməsi məqsədilə **qərara alıram:**

1. "Özəl investisiyaların cəlb edilməsi nəzərdə tutulan dövlət müəssisələrinin siyahısı" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi aidiyyəti üzrə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan İnvestisiya Holdinqi ilə razılaşdırmaqla bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən siyahıda nəzərdə tutulan dövlət müəssisələri tərəfindən maliyyələşdirilməklə nüfuzlu beynəlxalq məsləhətçi şirkətlərinin cəlb olunmasını təmin etsin və aparılacaq təhlillər əsasında aşağıdakılar barədə təkliflərini doqquz ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

2.1. dövlət müəssisələrinin restrukturizasiyası və sağlamlaşdırılması;

2.2. dövlət müəssisələrinin qiymətləndirilməsi, onların öhdəlikləri ilə nizamnamə kapitalları arasında optimal nisbət və investisiya ehtiyacları;

2.3. potensial investorların dairəsi;

2.4. müvafiq bazarın rəqabət mühitinin tələbləri nəzərə alınmaqla, liberallaşdırılması və inhisarsızlaşdırılması imkanları;

2.5. dövlət müəssisələrinin dövlət nəzarətində saxlanılmalı olan əsas fəaliyyətini müəyyənləşdirməklə, əsas fəaliyyətə uyğun olmayan digər fəaliyyətin özəl sektora ötürülməsi imkanları;

2.6. bu Sərəncamda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində əldə edilmiş maliyyə vəsaitinin istifadə istiqamətlərini müəyyənləşdirərək, həmin dövlət müəssisələrinin təşkilati hüquqi formasının dəyişdirilməsi, özgəninkiləşdiriləcək hissələri və dövlət iştirak payının hissəvi satışı üsulları, habelə bununla əlaqədar mövcud normativ hüquqi bazanın təkmilləşdirilməsi.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 avqust 2023-cü il*

**Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 avqust tarixli Sərəncamı ilə təsdiq edilmişdir**

## Özəl investisiyaların cəlb edilməsi nəzərdə tutulan dövlət müəssisələrinin siyahısı

1. "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyəti.
2. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki:
2.1. "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti;
2.2. "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti.
3. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti.
4. "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti.
5. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturuna daxil olan:
5.1. "Azərikimya" İstehsalat Birliyi (Etilen-Polietilen zavodu);
5.2. Karbamid zavodu;
5.3. Metanol zavodu.

# İ.A.Mahmudovun Quba Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

İlqar Akif oğlu Mahmudov Quba Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 avqust 2023-cü il*

# Z.Q.Qurbanovun Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Zəfər Qəzənfər oğlu Qurbanov Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 avqust 2023-cü il*

# S.Ç.Hacıyevin Naxçıvan Muxtar Respublikası Culfa Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Siyam Çərkəz oğlu Hacıyev Naxçıvan Muxtar Respublikası Culfa Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 avqust 2023-cü il*

# Xarici diplomatlar Ağdam-Xankəndi yolunda Azərbaycan Qızıl Aypara Cəmiyyətinin ərzaq yüklərinin yerləşdiyi məntəqə ilə tanış olublar

**Avqustun 31-də Azərbaycanda akkreditə olunan diplomatik korpusun nümayəndələri və hərbi attaşelərinin Ağdama tanışlıq səfəri başlayıb.**

AZƏRTAC xəbər verir ki, səfərdə 50-dən artıq ölkə və beynəlxalq təşkilatdan 60-a yaxın şəxs, o cümlədən Türkiyə, Çin, Rusiya, Yaponiya, İsveçrə, Polşa, Çexiya, Bolqarıstan, Rumıniya, Serbiya, Argentina, Kolumbiya, Meksika, Cənubi Koreya, İndoneziya, İsrail, Birləşmiş Ərəb Əmirlikləri, Əlcəzair, Qətər, İraq, İran, Əfqanıstan, Liviya, Fələstin, Ukrayna, Qazaxıstan, Özbəkistan, Belarus, Gürcüstan, Tacikistan və digər ölkələrin, Birləşmiş Millətlər Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, TÜRKPA və sair beynəlxalq təşkilatların təmsilçiləri, habelə xarici jurnalistlər iştirak edirlər.





Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, hərbi attaşelər və xarici jurnalistlər avqustun 31-də Qarabağda yaşayan erməniəsilli şəxslərin ehtiyaclarını qarşılamaq üçün Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən təşkil olunan ərzaqdan ibarət yüklərin yerləşdiyi məntəqəyə gəliblər.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev diplomatlara və xarici jurnalistlərə mövcud vəziyyət barədə ətraflı məlumat verib.

Qeyd edək ki, avqustun 29-da Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC) tərəfindən Qarabağda yaşayan erməniəsilli sakinlər üçün 40 ton un göndərilib. Yük avtomobilləri Rusiya sülhməramlılarının Ağdam-Xankəndi yolundakı postunda gözləyir. Ərzaq dolu yükün Xankəndiyə çatdırılmasına şərait yaradılması üçün Rusiya sülhməramlı kontingentinin komandanlığına müraciət olunub.

# *Hikmət HACIYEV:* "Ermənistan və qondarma kriminal rejim yol mövzusunu məqsədyönlü şəkildə siyasi spekulyasiya və siyasi manipulyasiya mövzusuna çeviriblər"

**"Biz diplomatik korpusun nümayəndələri ilə avqustun 15-də Ağdam-Xankəndi yolunun texniki imkanları və çatdırılma qabiliyyəti ilə yerində tanış olmuşduq. Hələ o zaman diplomatik korpusun nümayəndələri bir daha şahid oldular ki, Ağdam-Xankəndi yolunun böyük ötürücülük qabiliyyəti var və bu yol daha səmərəlidir. Bu yol düzənlik ərazidən keçərək Azərbaycanın əsas hissəsi ilə Xankəndi şəhərini və Qarabağın digər bölgələrini əsaslı şəkildə əlaqələndirmək imkanlarına malikdir. Təəssüflər olsun ki, Ermənistan və onun Azərbaycanın Qarabağ bölgəsində yaratdığı, bu günə qədər də dəstəkləməyə davam etdiyi qondarma kriminal rejim tərəfindən yenə də məqsədyönlü şəkildə siyasi manipulyasiyalar, siyasi möhtəkirlik məqsədilə bu yolun açılmasına imkan verilmir".**



AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev jurnalistlərə açıqlamasında deyib.

"Azərbaycan tərəfindən dəfələrlə bəyan edilmişdir ki, Ağdam-Xankəndi yolu fəaliyyətdədir və bu yol ilə istənilən yüklərin Xankəndiyə və ətraf ərazilərə çox qısa müddət ərzində çatdırılması təmin oluna bilər. Bu yoldan bu şəkildə imtina edilməsini biz yalnız rasizm və diskriminasiya kimi qiymətləndirə bilərik. Yoldan bu formada imtina yalnız və yalnız rasizmdir. Azərbaycan yolları açaraq reinteqrasiya prosesini başlamaq niyyətindədir. Bu reinteqrasiya prosesinin tərkib hissəsi olaraq Azərbaycan Qarabağda yaşayan erməni sakinlərin hüquqlarını və təhlükəsizliyini, eyni zamanda onların öhdəliklərini Azərbaycan Konstitusiyası və Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq sənədlər əsasında təmin etməyə hazırdır. Amma görürük ki, onlar yol mövzusunu məqsədyönlü şəkildə siyasi spekulyasiya və siyasi manipulyasiya mövzusuna çeviriblər. Ermənistan tərəfindən də məqsədyönlü şəkildə bu siyasətə dəstək verilir", - deyə H.Hacıyev əlavə edib.

# "Onların yalançı humanitar şousunun əsas məqsədi ondan ibarətdir ki, əsl niyyətlərini və xislətlərini gizlətsinlər"

**"Ermənistan Azərbaycan ilə razılaşdırmadan demonstrasiya və populizm məqsədilə müxtəlif yük maşınlarını Azərbaycanla sərhədə, yəni "Laçın" sərhəd-keçid məntəqəsinə gətirmişdir. Dünən də bəzi erməni lobbisinin tərəfdarı və təsiri altındakı korrupsioner Avropa siyasətçiləri bu teatr xarakteri daşıyan dramanın tərkib hissəsi olaraq Azərbaycan sərhədinə doğru gəlmişlər. Bu kimi addımların heç bir mənası yoxdur. Bu kimi şou xarakterli addımlardansa, real məsələləri yerində həll etmək lazımdır. Azərbaycan öz ərazisində hansısa boz zonanın olmasını qəbul etməyəcək".**

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev jurnalistlərə açıqlamasında deyib.

"Kimlərsə düşünürsə ki, onlar mövcud şəraiti olduğu kimi davam etdirəcəklər və bu separatist statusda yaşamağa davam edərək qeyri-qanuni rejimin mövcudluğunu təmin edəcəklər, bu, baş verməyəcək. Azərbaycan heç bir halda buna dözməyəcək. Onların bu yalançı humanitar şousunun əsas məqsədi ondan ibarətdir ki, əsl niyyətlərini və xislətlərini gizlətsinlər. Əsl niyyətləri isə vaxtilə işğal altında olan Azərbaycan ərazilərində yaratdıqları qondarma, qanunsuz rejimin yaşamasını təmin etməkdir və bunun üçün müxtəlif bəhanələrdən istifadə edirlər", - deyə H.Hacıyev vurğulayıb.

# *Hikmət HACIYEV:* "Ermənilərin niyyəti məsələlərin sülh yolu ilə həll edilməsi olsaydı, Yevlax görüşünə gələrdilər"

**"Razılaşma vardı ki, Ağdam-Xankəndi yolu açılsın, ardınca Azərbaycanın gömrük və sərhəd rejimi qaydaları tətbiq olunmaqla Laçın-Xankəndi yolu da açılacaqdı, erməni sakinlərin nümayəndələri Azərbaycanın Yevlax şəhərində müvafiq görüşə gəlməli, ilkin təmaslar başlamalı idi. Son anda onlar bundan imtina etdilər. Bu imtinanın da məqsədi siyasi manipulyasiya, siyasi propoqandadır. Əgər onların əsl niyyəti reinteqrasiya məsələləri, sülh yolu ilə məsələlərin həll edilməsi olsaydı, bu görüşə gələrdilər".**

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ağdam-Xankəndi yolunda jurnalistlərə açıqlamasında söyləyib.

Bu yaxınlarda Azərbaycanın dəvəti ilə Ağdamda da görüş keçirilməsi ilə bağlı razılaşmanın olduğunu xatırladan Hikmət Hacıyev deyib: "Onlar bundan da imtina etdilər. Dialoqdan, təmaslardan imtina edilməsi, yolun açılmasından imtina edilməsi tamamilə qeyri-konstruktiv, aqressiv siyasətin təzahürüdür. Bunun məsuliyyəti özünü qondarma rejimin nümayəndələri kimi təqdim edən şəxslərin, həmçinin Ermənistan rəhbərliyinin üzərinə düşür. Burada Ermənistanın da bilavasitə məsuliyyəti var. Qondarma rejimin saxlanılması Ermənistanın dövlət büdcəsi hesabına həyata keçirilir. Ermənistan silahlı qüvvələrinin elementləri hələ də Azərbaycanın Qarabağ bölgəsində mövcudluğunu davam etdirir. Qondarma qurumun silahlı qüvvələrinin mövcudluğu da davam edir. Bu, regional sülh və təhlükəsizlik üçün ciddi təhdiddir. Onlar hələ də ərazilərin minalanması prosesini davam etdirirlər. Bu da Azərbaycan üçün qəbuledilməzdir. Ermənistanın bu kimi əməlləri Azərbaycanın daxili işlərinə qarışmaqdır, regional sülh və təhlükəsizliyi pozmaqdır və iki ölkə arasında sülh müqaviləsi üzrə aparılan danışıqlar prosesinə çox ciddi zərbədir".

# "Yüklərin qəbul edilməməsinə görə məsuliyyət qondarma rejimin və Ermənistanın üzərinə düşür"

**"Azərbaycanın Qızıl Aypara Cəmiyyəti tərəfindən ərzaq yüklərinin Ağdam-Xankəndi yolunun Əsgəran yolu ilə birləşmə məntəqəsinə gətirilməsi təmin olunmuşdur. Bu yük avtomobillərində 40 tona yaxın un məmulatları var. Amma yenə də rasizm siyasətinin bariz təzahürü olaraq, bu məmulatların qəbul edilməsinə qarşı çıxış edirlər. Bu, bir daha onu göstərir ki, burada məqsəd reinteqrasiyaya yox demək və qanunsuz statusu saxlamaqda davam etdirmək, bu proseslərdən yalnız siyasi manipulyasiya məqsədləri üçün istifadə etməkdən ibarətdir".**



AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev jurnalistlərə açıqlamasında söyləyib.

Dünən Rusiya sülhməramlıları ilə Azərbaycan tərəfinin danışıqlarında bu yüklərin Rusiya sülhməramlılarının maşınlarına daşınaraq, onlar vasitəsilə aparılması məsələsinin müzakirə mövzusu olduğunu vurğulayan H.Hacıyev deyib: "Dünən KİV-də və sosial şəbəkələrdə olan məlumatlar da göstərdi ki, təşkil olunmuş aksiyalar vasitəsilə buna mane olmağa cəhd göstərirlər. Bu yüklərin bura çatdırılması bir daha Azərbaycanın niyyətinin göstəricisidir. Amma yüklərin qəbul edilməməsi və imtina edilməsinə görə də məsuliyyət tam şəkildə qondarma rejimin və Ermənistanın üzərinə düşür. Onlar da bu manipulyativ prosesdə öz funksiyalarını və rollarını oynamaqda davam edirlər. Beynəlxalq ictimaiyyətin nümayəndələri, Azərbaycanda akkreditasiya olunmuş diplomatik korpusun nümayəndələri bir daha görürlər ki, burada yalançı təbliğat siyasəti aparılır. Təəssüflər olsun ki, bəzi Qərb media resurslarında bu faktlara və mövcud vəziyyətə yalan şəkildə don geyindirmək cəhdləri də var. Bu prosesdə eyni zamanda bəzi korrupsioner Qərb siyasətçiləri də öz rollarını oynamaqdadırlar. Onlar tərəfindən separatizmə dəstək verilməsi və separatistlərin yaxşı və pis separatistlərə bölünməsi tendensiyalarını da görürük ki, bunlar da qəbuledilməzdir. Bir daha qeyd etmək istərdik ki, Azərbaycanın ərazisində hər hansı bir qanunsuz ərazinin, Azərbaycanın mərkəzi hökumətinin nəzarətindən kənar hər hansı bir ərazinin mövcud olması qəbuledilməzdir".

Prezidentin köməkçisi müsahibəsində qeyd edib ki, Azərbaycan xoşməramlı niyyət göstərərək reinteqrasiya prosesi ilə əlaqədar öz fikirlərini təqdim etmişdir. Amma bundan imtinaya görə məsuliyyət tam şəkildə qondarma rejimi təmsil edən müharibə cinayətkarlarının üzərinə düşür. "Orada yaşayan erməniəsilli sadə sakinlər həmin rejimin, bu qanunsuz hərbi xuntanın əsarəti altındadırlar. Onlar öz mövcudluqlarını bu cür aqressiv ritorika ilə, müharibə ritorikası ilə əsaslandırmağa çalışırlar və gördüyünüz kimi, bunların heç bir əsası yoxdur. Yüklər buradadır və ən tez zamanda çatdırılması təmin oluna bilər. Gələcəkdə də hər hansısa yüklərin daşınması üçün Ağdam-Xankəndi yolu bütün texniki imkanlara malikdir".

Hikmət Hacıyev əmin olduğunu bildirib ki, diplomatik korpusun nümayəndələri gözləri ilə gördükləri bu faktları öz ölkələrinin aidiyyəti orqanlarına çatdıracaqlar. "Bu, ermənilərin və onların bəzi havadarlarının yaratdığı və yaratmağa çalışdığı yalan mühitinin növbəti darmadağın edilməsi faktıdır", - deyə o əlavə edib.



# İLHAM ƏLİYEV bütün addımlarını vaxtında - tələsmədən və gecikmədən atır

Xalqımız çörəyi müqəddəs sayır.

Hətta o qədər müqəddəs ki, "Çörək Qurandan qabaq gəlib" - deyir.

*Çörəyin "Qurani-Kərim"lə bu sayaq müqayisəsi onun mənəvi yükünü və dəyərini də artırır.*

Çörəyi tapdalamazlar - deyirlər.

Biri ilə duz-çörək kəsəndə sonadək o insana xoş münasibət bəsləyirlər.

Ən ağır qarğışımız da "Görüm səni çörəyə həsrət qalasan"dır!

❖ ❖ ❖

**Çörək deyəndə təkcə buğdadan hazırlanan məhsul nəzərdə tutulmur.**

**Çörək həm də ruzi, evə aparılan halal qazancdır!**

Çörək ailənin dolanışığı, rahat, ehtiyacsız yaşaması deməkdir!

*Çörək anlayışında bir təmizlik, paklıq da var!*

*Heç zaman oğurluqla qazanılanlara çörək deyilmir!*

Mərdimazarın, işverənin qazancı haram pul sayılır, halal çörək yox!

❖ ❖ ❖

İnsanlar hər gün dolanışığı və yaşayışı üçün evdən çıxaraq çörək dalınca gedir.

Hərə bir sahədə bir işlə məşğul olur.

**Halal çörək qazanmaq üçün ən çətin, ən ağır, ən aşağı, ən çirkli işdə çalışmaq belə ayıb sayılmır.**

*Oğurluq, satqınlıq, dələduzluq, haramzadalıq, xəyanətkarlıq yolu ilə qazanılan çörək ayıb və qəbuledilməz sayılır.*

Bəzən insanlar qürbətdə yaşamalı, vətəndən kənarda ömür sürüb çörək qazanmalı olurlar.

Bu bir tale qismətidir...

**Əgər ürəyində Vətən sevgisi varsa, əgər tutduğun əməllərlə Vətəninin adına ləkə gətirmirsənsə, harada yaşamağın nə fərqi var?**

**Təki Azərbaycanın adını, azərbaycanlı adını ləyaqətlə, şərəflə qoruya, doğrulda biləsən!**

❖ ❖ ❖

*Çörəyi xəyanətdən, vətənə dönüklükdən, düşmən qüvvələri yanında yer almaqdan çıxanlar da var.*

*İstər adını "jurnalist", istər "bloqçu", istər "hüquq müdafiəçisi", istər "demokrat" və s. qoysun.*

İstər qadın olsun, istərsə kişi.

Fərqi yoxdur.

Əməlləri eyni, adları müxtəlif olsa da, çörəklərini haramzadalıqla qazanırlar.

Bu qəbildən olanlar "5-ci kolon" üzvləri sayılırlar.

Reallıqda Azərbaycana qarşı düşmən mövqe sərgiləyirlər.

**Ermənilər bizə qarşı nə edirlərsə, onlar da eyni hərəkətlər törədirlər.**

**İstər ölkə daxilində yaşasınlar, istərsə də xaricə getmiş olsunlar.**

Fərq etməz.

*Allah kəssin o cür çörək qazanmağı!*

❖ ❖ ❖

**Bir var ermənilər.**

**Bir də var ermənidən betərlər.**

Qarabağda yaşayanlar "öz ermənilərimiz"dir.

*Ölkə daxilində və xaricdə yaşayaraq "5-ci kolon"a xidmət edənlər, çörəklərini Azərbaycana və Azərbaycan xalqına xəyanətdən çıxaranlar isə ermənidən betərlərdir!*

Ermənilər otuz il ərzində bizə bacardıqları bütün pislikləri etdilər.

Yaxşı bilirlər ki, onları bağışlasaq da, bir yerdə yaşasaq da, heç zaman bizə etdikləri xəyanətləri və həddini aşmış pisliklərini yaddan çıxarmayacağıq!

- Şəhər və kəndlərimizi viran qoyduqlarını;
- Əsir və girovlarla qeyri-insani rəftar edərək olmazın işgəncələr verdiklərini;
- Məscidlərimizdə donuz saxladıqlarını;
- Mədəni və dini abidələrimizi məhv etdiklərini;
- Qəbiristanlıqlarımızı təhqir etdiklərini;
- Otuz il bizə qaçqın və köçkün həyatı yaşatdıqlarını.

**İllər, əsrlər keçsə də, bütün bunları heç zaman unutmayacağıq!**

*Ermənidən betərlər isə "demokratiya" və "insan haqlarının qorunması", "söz azadlığının müdafiəsi" adı altında daim müstəqil Azərbaycanımıza şər-böhtan atırlar:*

- Erməniəsilli milyonçuların maliyyələşdirdikləri fondlardan qrantlar alaraq tapşırıqlarını icra edirlər;
- Məqamında müxtəlif aksiyalar keçirməklə oyunbazlıqlar göstərirlər, düşmən əlinə dəstavuz verirlər;
- Azərbaycana düşmən mövqedə dayanan beynəlxalq təşkilatlarla əməkdaşlıq edərək onların işinə yarıyan "arayışlar" yazıb göndərirlər;
- Müxtəlif tele-radio kanalları yaradaraq sistemli şəkildə Azərbaycana qarşı şər, böhtan, kin və nifrət püskürürlər;
- Azərbaycan xalqını, Azərbaycanın şanlı, qeyrətli və vicdanlı insanlarını təhqir etməklə məşğul olurlar.

**Ermənidən betərlərin bu sayaq əməllərini isə heç zaman bağışlamayacağıq.**

**Bunu özləri də yaxşı bilirlər!**

*Odur ki, keçmiş vətənlərinə qayıtmağa nə üzləri, nə də cürətləri çatır.*

*Xaricdə gəbərib, ermənisayağı torpağa gömüləcəklər.*

*Gəbərəndə isə nə kəfən görəcək, nə də "Yasin" səsi eşidəcəklər.*

❖ ❖ ❖

**Azərbaycan bir uğurlu gedişi ilə erməni yalanını, "humanitar fəlakət" şousunu, erməni havadarlarının canfəşanlığını puç etdi!**

Xankəndidəki erməniəsilli vətəndaşlarına Ağdam-Xankəndi yolu ilə iki maşın - 40 ton un göndərdi.

*Görmək istəməyənlərin də gözlərinə soxduq ki, bu yol yaxşı vəziyyətdədir və normal işləyir, aclıq söhbətləri isə boş bəhanələrdir.*

Ermənilər və Ermənistandakılar "humanitar şou" oynamaqla Laçın yolunu açdırmaq, kefləri istəyən kimi o yoldan istifadə etməkdə israrlıdırlar.

Adama deyərlər ki, əgər həqiqətən acsansa, ərzağın haradan gəlməsinin nə fərqi?

Yox, əgər ürəyindən keçəni bizə zorla etdirmək istəyirsənsə, onu heç yuxunda da görə bilməyəcəksən!

**Bütün oyunlar və oyunbazlıqlar bitib!**

**44 günlük müharibədən sonra bütün məsələlərdə təzə səhifə açılıb!**

❖ ❖ ❖

Qarabağdakı ermənilər Azərbaycan ununu - çörəyini götürməyəcəklər.

Əvvəla, aclıq-filan çəkmirlər, oyun oynayırlar.

İkincisi, bizə xəyanət etdiklərindən halal çörəyimizin xain boğazlarından keçməyəcəyini anlayırlar.

Üçüncüsü, yaxşı bilirlər ki, o çörəyi alıb yesələr, zəhərə dönüb burunlarından gələcəkdir.

Çünki halal çörəyə layiq məxluq deyillər!

❖ ❖ ❖

- Ermənilərlə ermənidən betərlərin oxşar və fərqli cəhətləri mövcuddur.

Onlar torpaq istəyir, bunlar çörək.

Onlar açıq düşmənçilik edir, bunlar müxtəlif "demokrat" titulları ilə pərdələnirlər.

Onlar arada güc nümayiş etdirirlər, müdafiəçiləri, arxalarında duranları var.

Bunlar isə alaq otu kimi ordaburda bitiblər, tulapayı verənlərdən, müxtəlif hədəflərə qısqıranlardan asılı vəziyyətdədirlər.

**Amma hər ikisi gec-tez Azərbaycan çörəyinə möhtac qalacaqlar.**

**Harada, hansı şəraitdə yeyəcəklər - bunu isə tale özü göstərəcək.**

Ta qədimlərdən indiyədək Azərbaycan xalqının mentalitetində "Azərbaycan kişisi" obrazı olub:

- Mərd!
- Təmiz!
- Düz!
- Sözü üzə deyən!
- Düşmənə boyun əyməyən!
- Ana-bacısının namusunu qoruyan!
- Vətən uğrunda şəhid getməyə hər zaman hazır olan!
- Bir tikə çörək üçün yağıya nökərçilik etməyən!
- Böyüyü böyük, kiçiyi kiçik bilərək mənliyini və şəxsiyyətini uca tutan!
- Heç bir zaman, heç bir halda ləyaqətini itirməyən Azərbaycan Kişisi!

**Təəssüf ki, bir zamanlar onlar da "Azərbaycan kişisi" adını daşıyıblar:**

Sonradan Azərbaycandan minbir bəhanə ilə qaçıb gediblər...

*Xaricdə "xoşbəxt həyat" sürmək arzusu ilə.*

*Vətənin dar günündə, dar ayaqda özlərinə xoş gün axtarışı hayına düşüblər, qürbətə qaçıblar.*

**Vətənin qeyrətli oğulları Vətən uğrunda şəhid gedəndə onlar "avro" və "dollar" uğrunda sinov gediblər!**

*Özlərini "kişi" hesab etsələr də ("Avropa kişisi"), daim arvad kimi dalca danışmağı, söyüş söyməyi çörək qazanmaq "peşə"si seçiblər!*

Nə özününkülərin qədrini bilirlər, nə də başqalarına hörmət qoyurlar.

**Zəhərə dönsün o çörək ki, sizlər qazanırsınız.**

**Həm də şərəfsiz və namussuz yolla qazanırsınız.**

*Vətəni, vətənin qeyrətli, namuslu övladlarını söyərək, şərləyərək qazanırsınız.*

*Zamanı çatanda burnunuzdan zədən-zədən gələcəkdir!*

❖ ❖ ❖

**Azərbaycan Prezidenti İlham Əliyev hər bir addımını öz vədəsində atır!**

**Nə tələsir, nə də gecikir!**

44 günlük Vətən müharibəsində, həm müharibənin başlanmasında, həm gedişində, həm də hərbi əməliyyatların dayandırılmasında bütün bunların şahidi olduq!

*İndi mübarizə hüquqi, siyasi, diplomatik müstəvidə davam edir.*

*Burada da təşəbbüs Azərbaycandadır!*

**Burada da söz sahibi, şərtləri diktə edən İlham Əliyevdir!**

Hər şeyin isə öz zamanı və məqamı var!

Darıxmayaq!

❖ ❖ ❖

Vətən müharibəsi dövründə və sonralar neçə-neçə terrorçunu, I Qarabağ müharibəsi canilərini tutub Bakıya gətirərək cəzalandırdıq!

**Laçın yolunda nəzarət-buraxılış məntəqəsinin yaradılması həm də əsir və girovlara vaxtilə işgəncə verənlərin, Azərbaycan qanunlarını pozanların tapılıb cəzalandırılmasına şərait yaradıb.**

Əvvəlcə barəsində cinayət işi qaldırılaraq beynəlxalq axtarışa verilmiş Vaqif Xaçatryanı, bir neçə gün öncə isə Azərbaycan bayrağına hörmətsizlik etmiş Alen Sarqsyan, Vahe Hovsepyan və Levon Qriqoryanı yaxalayaraq etdiklərinin əvəzini almalarına şərait yaratdıq.

Gənc fudbolçular əməllərini qanmadıqlarından törətdiklərini, peşmanlıqlarını söylədiklərindən ongünlük inzibati həbslə ağıllanacaqları güman edilir.

Vaqif Xaçatryan isə yəqin ki, şərəfsiz ömrünün sonunadək həbsxanada "dincələsi" olacaq!

❖ ❖ ❖

İndi Azərbaycanın göndərdiyi 40 ton unu aparan iki "fur" maşını Ağdam-Əsgəran yolundakı PSK-nin postu qarşısında gözləyir.

Bütün dünya isə bunu görür və izləyir.

**Biz erməniyə qudurmaq üçün çörək vermirik!**

**Biz erməniyə ağıllanmaq üçün çörək təklif edirik!**

Harama öyrəşənlər halalı qəbul etməsələr, inciyəsi deyilik!

*Laçın yolu bələləri üçün daim açıqdır!*

*Sürükə bilərlər!*

**Bəxtiyar SADIQOV**
















# Azərbaycan müdafiə naziri Türkiyənin Zəfər bayramı tədbirində iştirak edib





**Qardaş ölkədə işgüzar səfərdə olan Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyənin Zəfər bayramı münasibətilə Ankara şəhərində keçirilən təntənəli mərasimdə iştirak edib.**

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, Beştəpə Milli Konqres və Mədəniyyət Mərkəzində keçirilən tədbirdə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan açılış nitqi ilə çıxış edib. Təntənəli mərasimdə qardaş ölkənin Zəfər bayramını tərənnüm edən musiqi nömrələri təqdim olunub.

# Azərbaycanın müdafiə naziri Anıtqəbri ziyarət edib



Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov qardaş ölkəyə işgüzar səfəri çərçivəsində rəhbərlik etdiyi nümayəndə heyəti ilə birgə Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün mavzoleyini - Anıtqəbri ziyarət edib. Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazir, Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov və digər qonaqlar Mustafa Kamal Atatürkün məzarı önünə əklil qoyaraq xatirəsinə ehtiram nümayiş etdiriblər. Sonra general-polkovnik Z.Həsənov "Xatirə kitabı"na ürək sözlərini yazıb.

Qeyd edək ki, müdafiə nazirinin Türkiyədə işgüzar səfəri davam edir.



# Türkiyə ilə Azərbaycan arasında hərbi, hərbi-texniki, hərbi-təhsil sahələrində əməkdaşlıq genişlənir





**Türkiyədə işgüzar səfərdə olan Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyənin milli müdafiə naziri Yaşar Gülərlə görüşüb.**

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Türkiyə Respublikasının Milli Müdafiə Nazirliyində təntənəli qarşılama mərasimi olub, hər iki ölkənin müdafiə nazirləri fəxri qarovulun önündən keçiblər. Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirilib. Protokola uyğun olaraq "Şərəf kitabı" imzalanıb.

Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədovun da iştirak etdiyi görüşdə hər iki qardaş və dost ölkələrin dövlət başçılarının səmimi münasibətlərinin digər sahələrə olduğu kimi hərbi əməkdaşlıq sahəsinə də müsbət təsir etdiyi xüsusi vurğulanıb.

Azərbaycan və Türkiyə respublikaları arasında qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan əməkdaşlığın bundan sonra da uğurla inkişaf etdiriləcəyinə əminlik ifadə olunub. Ölkələrimiz arasında strateji müttəfiqliyin dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğu qeyd edilib.

Görüşdə hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib, həmçinin bu istiqamətdə görülən işlərin daha da genişləndirilməsinin vacibliyi bildirilib.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Prezident İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin respublikanın bölgələrində vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, fövqəladə hallar naziri Kəmaləddin Heydərov avqustun 31-də Şəki şəhərində, nazirliyin Şəki rayon Dövlət Yanğından Mühafizə Hissəsinin inzibati binasında Şəki və Qax rayonlarının sakinləri ilə görüş keçirib.

Bu barədə Fövqəladə Hallar Nazirliyinin (FHN) Mətbuat xidmətindən məlumat verilib.

Sonra fövqəladə hallar naziri tərəfindən qəbul edilən Şəki və Qax rayonlarının sakinlərinin müraciətlərinin əksəriyyəti yerində həllini tapıb, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə nazirliyin aidiyyəti strukturlarının rəhbərlərinə tapşırıqlar verilib.

Fövqəladə hallar naziri ilə yanaşı, nazir müavinləri, nazirliyin müvafiq baş idarə və qurum rəhbərləri də vətəndaşlarla görüşüblər.

* * *

Ədliyyə Nazirliyinin Mətbuat xidmətindən verilən məlumata görə, avqustun 31-də ədliyyə naziri Fikrət Məmmədov tərəfindən Şamaxıda keçirilmiş səyyar görüşdə Şamaxı, İsmayıllı, Qobustan və digər rayonlardan olan vətəndaşlar iştirak ediblər.

Sonra vətəndaşların ədliyyə fəaliyyəti ilə bağlı müraciətləri dinlənilib, qaldırılan məsələlərə dair aidiyyəti tapşırıqlar verilib. Bu zaman Vətən müharibəsi iştirakçılarının və şəhid ailələrinin qayğılarına xüsusi həssaslıqla yanaşılıb.

*AZƏRTAC*

# "Abşeron" yatağının yüksək hasilatla işə düşməsi Azərbaycanın enerji ehtiyatlarının zənginliyinin göstəricisidir

**Avqustun 31-də "Abşeron" qaz-kondensat yatağından ilk qazın verilməsi münasibətilə tədbir keçirilib.**









AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən SOCAR-ın Müşahidə Şurasının sədri, iqtisadiyyat naziri Mikayıl Cabbarov Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Abşeron" qaz-kondensat yatağında hasilata başlanılmasının ölkəmiz və layihədə iştirak edən şirkətlər üçün mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan olunduğunu qeyd edən iqtisadiyyat naziri, "Abşeron" qaz-kondensat yatağından ilk qazın verilməsinin Azərbaycan üçün əlamətdar olan bu ildə həyata keçirilməsini xüsusi vurğulayıb. Qeyd olunub ki, "Abşeron" qaz-kondensat yatağının işlənilməsinin ikinci mərhələsi üzrə işlər intensiv şəkildə davam etdirilir.

Tədbirdə Mikayıl Cabbarov Azərbaycanın enerji sahəsində uğurlu əməkdaşlıq əlaqələrinin ölkəmizi beynəlxalq miqyasda etibarlı tərəfdaşa çevirdiyini ifadə edib. Cari il avqustun 4-də SOCAR, "Total Energies" və ADNOC şirkətləri arasında "Abşeron" qaz-kondensat yatağında 30 faiz iştirak payının satışı ilə bağlı imzalanma mərasiminin keçirildiyini xatırladan SOCAR-ın Müşahidə Şurasının sədri bu sənədin Azərbaycanda yaradılan əlverişli investisiya mühitinin növbəti təzahürü olduğunu qeyd edib.

Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazov çıxış edərək dünyada qaz tədarükü mənbələrinin əhəmiyyətinin təhlükəsizlik amilinə əsasən müəyyənləşdiyi, müvafiq olaraq etibarlı enerji təchizatçısı kimi Azərbaycanın rolunun gücləndiyi və ölkəmizin enerji resurslarına tələbatın artdığı bir vaxtda "Abşeron"un yüksək hasilatla işə düşməsinin strateji əhəmiyyət daşıdığını vurğulayıb. Nazir bunun Azərbaycanın enerji ehtiyatlarının zənginliyinin və enerji tədarükçüsü missiyasının davamlılığının bariz göstəricisi olduğunu bildirib, eyni zamanda enerji bazarlarının, istehlakçıların fasiləsiz enerji təchizatına, ölkəmizdə neft-kondensat hasilatının sabitliyinə etibarlı təminat olduğunu diqqətə çatdırıb. Pərviz Şahbazov "Abşeron" yatağının ölkəmizdə qaz istehsalı, istehlakı mənbələrini şaxələndirməklə yanaşı, Avropaya əlavə qaz tədarükünün də mühüm mənbəyi olacağını bildirib.

SOCAR-ın prezidenti Rövşən Nəcəf çıxışında "Abşeron" qaz-kondensat yatağının tarixi inkişaf yolundan, ötən illər ərzində beynəlxalq tərəfdaşlarla birgə atılan mühüm addımlardan bəhs edib. Rövşən Nəcəf "Abşeron" qaz-kondensat yatağının ölkəmizin hasilat potensialının artırılmasına və beynəlxalq mövqelərinin gücləndirilməsinə dəyərli töhfə verəcəyini vurğulayıb.

O, çıxışında ölkə başçısı tərəfindən "Abşeron" qaz-kondensat yatağının işlənməsinin ikinci mərhələsi üzrə verilən tapşırıqların icrası istiqamətində görülən işlərdən bəhs edib.

"Abşeron" qaz-kondensat yatağının İHS mərhələsi üzrə hasilata başlanılmasından məmnunluğunu ifadə edən "Total Energies" şirkətinin baş icraçı direktoru Patrik Puyane SOCAR və layihəyə yeni qoşulmuş ADNOC şirkəti ilə əməkdaşlığın daha da möhkəmləndiriləcəyini diqqətə çatdırıb. O, hazırda tərəfdaş şirkətlərlə birgə "Abşeron" qaz-kondensat yatağının işlənilməsinin növbəti mərhələsi üzrə görülən işlərdən danışıb. Patrik Puyane təbii qazın karbohidrogenlər içərisində ən təmiz yanacaq olduğunu diqqətə çatdıraraq "Abşeron" layihəsinin "Total Energies"in aşağı karbonlu enerjiyə keçid öhdəliyinə tam uyğun olduğunu da deyib.

ADNOC şirkətinin aşağı karbon həlləri və beynəlxalq inkişaf üzrə icraçı direktoru Musabbeh Al Kaabi SOCAR və "Total Energies" ilə birlikdə Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında strateji əlaqələrdə və enerji tərəfdaşlığında daha bir mühüm mərhələ olan "Abşeron" yatağından ilk qazın hasil olunmasına həsr edilən tədbirdə iştirakdan məmnunluğunu ifadə edib. İcraçı direktor aşağı karbonlu enerji istehsalı sahəsində ADNOC-un malik olduğu ənənələrə və onilliklər boyu qazanılan zəngin təcrübəyə əsaslanaraq, bu strateji əhəmiyyətli layihədə oynayacağı mühüm rolu səbirsizliklə gözlədiklərini diqqətə çatdırıb.

Çıxışlardan sonra "Abşeron" qaz-kondensat yatağının işlənilməsinin İHS mərhələsinə həsr olunan videoçarx nümayiş etdirilib.

# "Total Energies" şirkəti ilə energetika sektorunda tərəfdaşlığın genişləndirilməsi müzakirə olunub

**İqtisadiyyat naziri və SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarov və SOCAR-ın prezidenti Rövşən Nəcəf "Total Energies" şirkətinin baş icraçı direktoru Patrik Puyanne ilə görüşüblər.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə ölkəmizin təşəbbüsü və fəal iştirakı ilə reallaşan beynəlxalq əhəmiyyətli iri neft-qaz layihələrinin önəmi qeyd edilib, SOCAR-la "Total Energies" arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi diqqətə çatdırılıb. Vurğulanıb ki, Azərbaycanın biznes və investisiya mühitinin əlverişliliyi, xarici şirkətlərin bu baxımdan ölkəmizə olan yüksək marağı beynəlxalq tərəfdaşlarla regional və qlobal miqyasda mühüm layihələri reallaşdırmağa imkan verir.

Qeyd olunub ki, "Abşeron" qaz-kondensat yatağından ilk qazın verilməsi ölkəmizin istehsal imkanlarını artırmaqla yanaşı, dünya miqyasında enerji ekosistemində etibarlı tərəfdaş kimi mövqeyini gücləndirəcək.

Tərəflər arasında neft-qaz sektorunda tərəfdaşlığın genişləndirilməsi, perspektiv layihələr, həmçinin bərpaolunan enerji istehsalı sahəsində əməkdaşlıq barədə də müzakirələr aparılıb.

# Görüşdə "Total Energies" şirkəti ilə əməkdaşlıqdan məmnunluq ifadə edilib

**Energetika naziri Pərviz Şahbazov "Abşeron" qaz-kondensat yatağından ilk qazın verilməsi mərasimində iştirakı məqsədilə ölkəmizdə səfərdə olan "Total Energies" şirkətinin baş icraçı direktoru Patrik Puyannenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazirlikdən AZƏRTAC-a verilən məlumata görə, görüşdə "Abşeron" yatağının yüksək hasilat göstəriciləri ilə istismara verilməsindən və "Total Energies" şirkəti ilə əməkdaşlıqdan məmnunluq ifadə edilib. Azərbaycanın enerji təchizatçısı kimi öhdəliklərinin yerinə yetirilməsində "Abşeron"un əhəmiyyəti, xüsusilə təbii qazın enerji təhlükəsizliyinin təminatında rolu vurğulanıb. Layihənin növbəti mərhələsi üzrə proseslərin inkişafına dair fikir mübadiləsi aparılıb.

Söhbət zamanı "Total Energies" şirkətinin Azərbaycanda karbohidrogen sektorunda fəaliyyəti ilə bağlı məsələlərlə yanaşı, ümumi gücü 500 MVt olan külək-günəş enerjisi, enerji saxlanc sistemləri layihələrinin həyata keçirilməsi də müzakirə edilib. Həmçinin ölkəmizdə bərpaolunan enerji mənbələrindən elektrik enerjisinin istehsalı, şəbəkəyə inteqrasiyası və ixracı ilə bağlı layihələrin cari vəziyyəti nəzərdən keçirilib, əməkdaşlıq imkanları diqqətə çatdırılıb, növbəti addımlar razılaşdırılıb.

# SOCAR-ın prezidenti ADNOC şirkətinin icraçı direktoru ilə görüşüb

**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf Əbu-Dabi Milli Neft Şirkətinin (ADNOC) aşağı karbon həlləri və beynəlxalq inkişaf üzrə icraçı direktoru Musabbeh Al Kaabi ilə görüşüb.**

SOCAR-dan AZƏRTAC-a verilən məlumata görə, görüşdə ölkələrimiz arasında qarşılıqlı əməkdaşlıq əlaqələrinin uğurla inkişaf etdiyi bildirilib, ölkəmizdə enerji sektorunda həyata keçirilən layihələrdə Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) şirkətlərinin iştirakının əhəmiyyəti vurğulanıb. Bu xüsusda cari ilin avqustunda SOCAR, "Total Energies" və ADNOC şirkətləri arasında "Abşeron" qaz-kondensat yatağında 30 faizlik iştirak payının satışına dair imzalanan sazişin Azərbaycan və BƏƏ arasında strateji əlaqələrin daha da gücləndirilməsinə, "Abşeron" qaz-kondensat yatağının tammiqyaslı işlənilməsinə və ölkəmizin hasilat potensialının artırılmasına dəyərli töhfə verəcəyi qeyd edilib.

Görüşdə həmçinin "Abşeron" layihəsinin cari vəziyyəti, onun növbəti fazası üzrə irəliləyişlər, aşağı karbon həlləri və bərpaolunan enerji layihələri barədə məsələlər müzakirə olunub. Bu xüsusda ADNOC-un Azərbaycanda ümumi gücü 10 GVt olan bərpaolunan enerji layihəsini icra edən və BƏƏ-nin təmiz enerji sahəsində ən böyük şirkəti olan "Masdar"a investisiyası ilə qlobal miqyasda bərpaolunan enerjinin inkişafına təkan verdiyi qeyd edilib və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, Xəzər dənizinin Azərbaycan sektorunda, Bakıdan təxminən 100 kilometr cənub-şərqdə yerləşən "Abşeron" qaz-kondensat yatağından ilk qaz cari ilin iyul ayının əvvəlində hasil edilib.

## *Fransanın ölkəmizdəki səfiri XİN-ə çağırıldı:*

# Rəsmi Bakı Parisə nota verdi

**Avqustun 31-də Fransanın Azərbaycandakı səfiri Ann Buayon Xarici İşlər Nazirliyinə (XİN) çağırılıb.**

Nazirliyin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Paris şəhərinin meri Ann İdalqo daxil olmaqla Fransanın bir neçə şəhərinin rəhbər şəxslərinin müşayiəti ilə "humanitar yük" adı altında Laçın dövlət sərhədindən buraxılış məntəqəsi istiqamətinə nəqliyyat vasitələrinin göndərilməsi və həmin şəxslər tərəfindən Azərbaycana qarşı təxribatçı bəyanatlar səsləndirilməsi ilə bağlı XİN-in etiraz notası Fransa səfirinə təqdim edilib. Fransa tərəfinin bu addımlarının Azərbaycanın daxili işlərinə birbaşa müdaxilə olmaqla yanaşı, ölkəmizin beynəlxalq hüquqla qorunan suverenliyi və ərazi bütövlüyünə qarşı qəsd olduğu vurğulanıb.

Qeyd olunub ki, Ermənistanın yalan və manipulyasiya kampaniyasına alət olan bu təxribatçı əməllər bölgədə vəziyyətin gərginləşməsinə yönələn və Fransa tərəfindən Ermənistanı revanşist mövqeyini davam etdirməyə həvəsləndirən və son günlər daha da intensivləşən addımların növbəti nümunəsidir. Azərbaycan tərəfi beynəlxalq humanitar yardımın göndərilməsi ilə bağlı beynəlxalq hüquqi çərçivəyə zidd olaraq nümayişkaranə şəkildə Azərbaycan tərəfi ilə razılaşdırmadan, onun iradəsinin əksinə Azərbaycanın beynəlxalq tanınmış ərazisinə hər hansı bir ad altında yüklərin göndərilməsi cəhdini təxribatçı əməl kimi qiymətləndirib və buna qəti etirazı qarşı tərəfin diqqətinə çatdırılıb.

Azərbaycanın beynəlxalq hüquqla qorunan suverenliyi və ərazi bütövlüyünə qarşı yönələn, regionda beynəlxalq aktorların fəal səyləri ilə irəlilədilən kövrək normallaşma prosesini təhlükə altına alan addımlara son qoyulması Fransa tərəfindən təkidlə tələb olunub.

# Azərbaycan XİN Nikol Paşinyana cavab verdi

**"Avqustun 31-də hökumət iclasında çıxışı zamanı növbəti dəfə Azərbaycanı "soyqırımı" həyata keçirməkdə təqsirləndirən baş nazir Nikol Paşinyanın heç bir əsas olmadan bu kəlməni bu qədər ucuzlaşdırması Ermənistanın məsuliyyətsiz manipulyasiya fəaliyyətinin təzahürüdür".**

AZƏRTAC xəbər verir ki, bu barədə Ermənistanın baş nazirinin həmin iclasda səsləndirdiyi iddialara dair Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) şərhində bildirilib.

Ehtiyac olacağı təqdirdə erməni sakinlərə yüklərin çatdırılması üçün Ağdam-Xankəndi yolundan istifadə ilə paralel olaraq, Laçın yolundan hərəkətin intensivləşməsi təklifinə qarşı çıxan ermənilərin bəzi nümayəndələrinin təxribatçı addımlarına etiraz etmək əvəzinə, Azərbaycanın erməni sakinləri ac saxladığı ilə təqsirləndirən baş nazirə xatırlatmaq istərdik ki, hazırda Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən Ağdam-Xankəndi istiqamətinə göndərilmiş yük avtomobilləri ərazidə Xankəndiyə keçidi gözləyir. Erməni tərəfinin əgər həqiqətən aparılan yüklərə ehtiyacı olsaydı, onlar sülhməramlı kontingent tərəfindən yolun bloklanmasını tələb edərək bu yüklərin əraziyə keçidinə mane olmazdılar. Erməni sakinlərin yanaşması bir daha göstərib ki, Ermənistanın və erməni sakinlərin bəzi nümayəndələrinin "humanitar vəziyyət"lə bağlı iddiaları siyasi manipulyasiyadan başqa bir şey deyil.

Laçın yolunun birtərəfli qaydada açılması və erməni sakinlərin qovulması planları barədə iddiaya gəldikdə bildirmək istərdik ki, hazırda erməni sakinlərin Laçın dövlət sərhəd-buraxılış məntəqəsindən hər iki istiqamətdə keçidinə şərait yaradılır və Azərbaycan tərəfinin bölgədə etnik təmizləmə siyasəti həyata keçirməkdə təqsirləndirilməsi absurddur.

Görünür, 30 ilə yaxın müddətdə nəinki işğal etdiyi Azərbaycan ərazilərindən, hətta 1980-ci illərin sonunadək indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılara qarşı soyqırımı, kütləvi qırğınlar və etnik təmizləmə həyata keçirən Ermənistan tərəfi hər bir dövlətin eyni yanaşma tətbiq etdiyini və eyni anlayışa sahib olduğunu düşünür.

Azərbaycanın ərazi bütövlüyünü sözdə dəstəkləyən Ermənistanın baş naziri yaxşı olardı ki, Qarabağ bölgəsində yaşayan erməniəsilli sakinlərin Azərbaycan qanunvericiliyi çərçivəsində reinteqrasiya siyasətini də dəstəkləsin və Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə qarşı müdaxilələrdən çəkinsin.

Ümidvarıq ki, Ermənistan tərəfi postmünaqişə dövründə bölgədə formalaşmış reallıqları düzgün qiymətləndirəcək və sülhün bərqərar olunması üçün Azərbaycanla danışıqlarda konstruktiv mövqe sərgiləyəcək", - deyə XİN-in şərhində vurğulanıb.

# Qərbi Azərbaycan İcması dünya ictimaiyyətini Ermənistana təzyiq göstərməyə çağırır

**"Ermənistanın Azərbaycan Qızıl Aypara Cəmiyyətinin ehtiyacı olanları ərzaqla təmin etməsinin qarşısını alması Qarabağın erməni əhalisinin ərzaqla təminatında əslində problem olmadığını və ya yardıma ehtiyac olmasına baxmayaraq bu yardımdan mənfur siyasi məqsədlər və etnik nifrət səbəbi ilə imtina edildiyini göstərir".**

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının həmin məsələ ilə bağlı bəyanatında bildirilib.

Qeyd olunub ki, müstəqil, tərəfsiz və humanizm prinsipləri əsasında işləyən Azərbaycan Qızıl Aypara Cəmiyyəti öz təşəbbüsü ilə Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əhalisinin mümkün ehtiyacını ödəmək üçün 40 ton unu Ağdam-Xankəndi yolu vasitəsilə aparmağa çalışır. Lakin həmin bölgədəki qondarma rejim Ermənistanın fitnəsi ilə Qızıl Aypara Cəmiyyətinin ərzaq konvoyunun oraya daxil olmasına imkan vermir.

Bütün bunlar həmin bölgədə yaşayan ermənilərin ərzaq, xüsusilə un çatışmazlığı ilə üzləşdiyi barədə Ermənistanın davamlı təbliğatı fonunda baş verir.

"Hər bir halda, Ermənistanın bu addımı bu dövlətin irqçi siyasətini və mülki əhalinin humanitar ehtiyaclarından siyasi məqsədlərlə sui-istifadə edəcək dərəcədə riyakar və qəddar olmasını göstərir.

Qərbi Azərbaycan İcması dünya ictimaiyyətini Ermənistanın bu qeyri-insani və irqçi siyasətini pisləməsi, ona son verməsi və əhalinin təchizatına mane olmağını dayandırması üçün bu ölkəyə təzyiq göstərməyə çağırır", - deyə bəyanatda vurğulanıb.

# "Aİ-nin Ermənistandakı missiyasının patrul apardığı ərazilərin əksəriyyəti vaxtilə azərbaycanlıların yaşadığı və deportasiya edildiyi ərazilərdir"

**Qərbi Azərbaycan İcması Almaniya Bundestaqının Xarici məsələlər komitəsinin sədri Mihael Rotun Avropa İttifaqının Ermənistandakı missiyasının Azərbaycan ərazilərini də əhatə etməsinin vacibliyi ilə bağlı bəyanatına dair açıqlama yayıb.**

İcmadan AZƏRTAC-a daxil olan açıqlamada M.Rotdan Azərbaycanın suverenliyinə qarşı yönəlmiş bu cür təxribatçı bəyanatlardan çəkinmək tələb edilib. "M.Rotun diqqətinə çatdırırıq ki, Avropa İttifaqının Ermənistandakı missiyasının patrul apardığı ərazilərin əksəriyyəti vaxtilə azərbaycanlıların yaşadığı və deportasiya edildiyi ərazilərdir. Qərbi Azərbaycan İcması hesab edir ki, M.Rot Ermənistan hökumətini azərbaycanlıların öz dədə-baba yurdlarına qayıdışına imkan yaratmağa və Avropa İttifaqının missiyasını bu prosesə töhfə verməyə çağırmalıdır", - deyə Qərbi Azərbaycan İcmasının açıqlamasında bildirilib.

# "Parisin meri siyasi hoqqabazlıqlara, azərbaycanlılara qarşı nifrətə son qoymalıdır"

**Fransa Azərbaycana qarşı təxribatları davam etdirir. Bu dəfə estafet Parisin meri Ann İdalqo başda olmaqla, fransız şəhərlərindən "humanitar yardım" şousu təşkil edən heyətə ötürülüb.**

Bu barədə AZƏRTAC-a Qərbi Azərbaycan İcmasından bildirilib.

Qeyd olunub ki, bu gün "timsah göz yaşı" tökən Ann İdalqo kimi rasist təfəkkürlü adamlar heç bir zaman Azərbaycan ərazilərinin işğalını, azərbaycanlıların Ermənistandan və vaxtilə işğal edilmiş ərazilərdən qovulmasını, Xocalı soyqırımını pisləməmişlər, əksinə, Ermənistana və erməni diasporuna qoşulub qürrələnmişlər.

Ann İdalqo və onunla gələn fransız heyət siyasi hoqqabazlıqlara, dini təəssübkeşlik əsasında azərbaycanlılara qarşı nifrətə son qoymalıdır.

# Azərbaycan "humanitar fəlakət" şousunu fiaskoya uğradır

**Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən Qarabağda yaşayan erməniəsilli şəxslərin ehtiyaclarını qarşılamaq üçün Bakıdan yola salınan humanitar yardım karvanı artıq üç gündür ki, Ağdam-Xankəndi yolundadır. Ermənilər sözügedən yolu kəsərək yardımın lazımi ünvanlara çatdırılmasına mane olurlar.**







Bunun əsas səbəbi isə odur ki, separatçılar Qarabağda dünya ictimaiyyətini aldatmaq üçün yaratdıqları "humanitar fəlakət" şousunun ifşa olunmasından qorxurlar. Çünki yaxşı başa düşürlər ki, Azərbaycan Qızıl Aypara Cəmiyyəti bölgədə monitorinq keçirərsə, orada heç bir humanitar çətinliyin olmadığı aydınlaşacaq.

Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik.

### Xankəndiyə yüklərin daşınması yalnız Azərbaycanın icazəsi ilə baş tuta bilər

Milli Məclisin deputatı Azər Badamov bildirib ki, Ermənistanın və separatçıların azərbaycanlılara qarşı düşmənçilik münasibətindən əl çəkməməsinə baxmayaraq, Azərbaycan tərəfindən Xankəndiyə humanitar yardımın göndərilməsi xoş məramımızın göstəricisidir: "Azərbaycan Qarabağda yaşayan erməniləri öz vətəndaşları hesab edir və onların bütün təminatlarını həyata keçirməyə hazır olduğunu dəfələrlə bəyan edib. Lakin Qarabağdakı bir qrup erməni separatçı Ağdam-Xankəndi yolunu kəsərək Bakıdan göndərilən yardımın ehtiyacı olan şəxslərə çatdırılmasına mane olur".

Deputat vurğulayıb ki, Azərbaycanın Qızıl Aypara Cəmiyyətinin ekspertləri Xankəndidə real vəziyyəti müşahidə edib qiymətləndirmə apara bilərlər: "Monitorinqlər nəticəsində Xankəndidə yardıma ehtiyac olduğu müəyyənləşdirilərsə, Bakı bütün zəruri vasitələrin təminatını həyata keçirə bilər. Sadəcə olaraq, separatçılar ekspertlər tərəfindən Xankəndidəki humanitar vəziyyətin videoçəkilişlər vasitəsilə qeydə alınmasından və saxta humanitar fəlakət şoularının ifşa olunmasından ehtiyatlanırlar. Ona görə də Əsgəran postunun yanında yolu kəsərək Qızıl Aypara Cəmiyyətinin göndərdiyi yardımın Xankəndiyə çatmasına mane olurlar".

Deputatın sözlərinə görə, xarici diplomatların Ağdam-Xankəndi yolunda Azərbaycan Qızıl Aypara Cəmiyyətinin ərzaq yüklərinin yerləşdiyi məntəqə ilə tanışlığı çox vacib hadisədir. Ermənistan və Fransa "humanitar böhran" şousunu yaratmaqla dünya ictimaiyyətini çaşdırmağa və informasiya məkanında üstünlük əldə etməyə çalışsa da, Ağdam-Xankəndi yoluna səfər edən diplomatlar real vəziyyətə və ölkəmizin əsl niyyətinə öz gözləri ilə şahidlik etdilər. Onlar bir daha əmin oldular ki, Ermənistanın və Fransanın təşkil etdiyi "humanitar böhran" şousu məqsədlidir və Azərbaycanla Ermənistan arasında sülhün yaranmasının qarşısının alınmasına hesablanıb. Xarici diplomatların Ağdam-Xankəndi yoluna səfəri informasiya müharibəsində Azərbaycanın ədalətli mövqeyinin dünya ictimaiyyətinə daha düzgün çatdırılmasına töhfə verəcək.

Azər Badamov deyib ki, göndərilən yardımın Ağdam-Xankəndi yolu ilə buraxılmaması orada heç bir humanitar çətinliyin olmadığını sübut edir: "Azərbaycan öz ərazi bütövlüyünü döyüş meydanında təmin edib. Bu il aprelin 23-də isə Laçın sərhəd keçid məntəqəsi qurmaqla sərhədlərə nəzarəti tam əlinə alıb və Ermənistanın çirkin niyyətlərini davam etdirməsinə imkan verməyib. Bundan sonra Xankəndiyə yüklərin daşınması yalnız Azərbaycanın icazəsi ilə baş tuta bilər".

### Azərbaycan humanitar yardım məsələsində birincidir

Milli Məclisin deputatı Arzu Nağıyev qeyd edib ki, Xankəndiyə humanitar yardım kimi 40 ton un göndərilməsi məsələsi indi əsas müzakirə mövzusudur. Lakin separatçılar Azərbaycan Qızıl Aypara Cəmiyyətinin missiyasına əngəl törətməyə çalışmaqla əsas dərdlərinin siyasi məsələ olduğunu sübut edirlər.

"Ağdam-Xankəndi yolu ilə humanitar yardımın çatdırılmasında Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı kontingenti də maraqlı olmalıdır. Həmçinin Qarabağdakı qondarma qurumun rəhbərliyi də öz icmasını düşünürsə, onların "humanitar təhlükə"sini hesablayırsa, bu, prosesə əngəl törətməməlidir", - deyə deputat bildirib.

Arzu Nağıyev deyib ki, kənar qüvvələr, xarici ölkələr Laçın yoluna yaxın ərazidə - Ermənistanla sərhəddə "biz humanitar yardım gətirmişik" deyə bəyanatlar səsləndirirsə, bu, siyasi məsələdir: "Yox, əgər həqiqətən nəsə problem varsa, Azərbaycan humanitar yardım məsələsində birincidir. Həmişə olduğu kimi, bu məsələdə də ölkəmiz humanist addım atıb. Həmin yüklər də hara lazımdırsa, ora çatacaq".

Deputat əlavə edib ki, bir müddət öncə Ermənistan Qırmızı Xaç Cəmiyyəti absurd bəyanatla çıxış edərək bildirmişdi ki, Azərbaycan Qızıl Aypara Cəmiyyəti guya siyasi məsələlərlə məşğuldur. Bügünkü vəziyyət isə təsdiq edir ki, bu iddia tamamilə əsassızdır. Sözügedən təşkilat humanitar missiya həyata keçirir.

### Xoş niyyətin göstəricisi

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib ki, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Qarabağda yaşayan erməniəsilli vətəndaşlara ehtiyaclarını qarşılamaq üçün yardım göndərməsi beynəlxalq hüququn aliliyinin təmin olunması, regionda etimad mühitinin möhkəmləndirilməsi, habelə reinteqrasiya prosesinə mane olan əngəllərin aradan qaldırılmasına xidmət edir.

"Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara Hərəkatının fəaliyyətinin təşkili haqqında 1997-ci il Sevilya sazişinə ötən il edilmiş müvafiq dəyişikliyə əsasən, humanitar yardımların həyata keçirilməsində aparıcı rolun milli cəmiyyətlərə verilməsi qərara alınıb. Belə olan halda milli cəmiyyət olan Azərbaycan Qızıl Aypara Cəmiyyətinin humanitar yardımda aparıcı rola malik olması beynəlxalq hüququn imperativ şərtidir. Bu Qızıl Aypara Cəmiyyəti təxribatçı Qırmızı Xaç Komitəsindən fərqli olaraq 100 ildən artıq bir müddətdə irqi, dini, milli mənsubiyyətindən, siyasi baxışlarından asılı olmayaraq, bütün ehtiyaclı insanlara münasibətdə zəruri humanitar missiyanın həyata keçirilməsi istiqamətində ləyaqətlə fəaliyyət göstərir", - deyə deputat bildirib.

Bəhruz Məhərrəmovun dediyinə görə, Ağdam-Xankəndi yolundan hər vəchlə imtina etməklə tam siyasiləşdiyini nümayiş etdirən Beynəlxalq Qırmızı Xaç Komitəsindən fərqli olaraq, Azərbaycan Qızıl Aypara Cəmiyyəti daha qısa və təhlükəsiz olan bu yolu vacib bilib.

"Bir daha səhih, dəqiq məlumatlara əsaslanaraq bildiririk ki, Qarabağ iqtisadi rayonunda separatçıların yaratdıqları süni siyasi gərginlikdən başqa heç bir problem, o cümlədən humanitar böhran yoxdur. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin göndərdiyi yardım Azərbaycanın reinteqrasiya prosesində səmimiliyinin və hazırkı durumda xoş niyyətinin, o cümlədən Ağdam-Xankəndi yolunun işlək, təhlükəsiz və daha səmərəli olmasının göstəricisidir", - deyə deputat söyləyib.

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Fransanın möhtəkirliyi göz önündədir

## Qətlə yetirdikləri insanların kəllə sümüklərini eksponat kimi muzeylərində nümayiş etdirən fransızlar bizə "humanizm" dərsi keçmək istəyirlər

**Paris meri Ann İdalqonun müşayiəti ilə Fransada yaşayan ermənilərin Qarabağa göndərmək istədikləri 10 maşından ibarət "humanitar yük" karvanı srağagün Laçın yolu ilə Xankəndiyə buraxılmadığı üçün geri qayıtdı.**



Əslində, "humanitar yük"ün Laçın yolu ilə ərazilərimizə buraxılmayacağı bu işin təşkilatçılarına da, yükü müşayiət edənlərə də, həvəslə "humanitar yardım" gözləyənlərə də bəlli idi. Fransanın gerçək məqsədi Qarabağda yaşayan erməni icmasına yardım etmək də deyildi. Bu, "humanitar yardım" adı altında Fransanın ölkəmizə qarşı etdiyi növbəti fitnəkarlıq idi. Əgər Fransanın gerçək niyyəti "humanitar yardım" şousu düzəldib siyasi oyun oynamaq deyildirsə, Azərbaycan ərazisinə göndərilən yükün haradan getməli olduğunu əvvəlcədən ölkəmizlə razılaşdırmalı idi. Fransa ilə Azərbaycan arasında gediş-gəliş zamanı "viza" rejimi tətbiq olunduğundan yükü daşıyan avtomobil sürücülərinə və yükü müşayiət edən şəxslərə əvvəlcədən viza alınmalı idi. Beynəlxalq qanunlara uyğun olaraq, gətirilən yükə deklorasiya yazılıb, fitosanitar qaydada müayinə edilib sertifikatlaşdırılmalı idi. Amma bunların heç biri olmamışdır. Bunları etməyi "vacib bilməyən" Paris, Marsel, Strasburq kimi böyük Avropa şəhərlərinə rəhbərlik edən, beynəlxaq hüquqdan anlayışı olan vəzifəli şəxslərin sərhədlərimizə gəlməsi təəccüb doğurur.

Fransa Azərbaycanla ilk diplomatik münasibət quran ölkələrdəndir. Hər halda yükü müşayiət edən şəxslər də təhsil görmüş, siyasətdən müəyyən qədər anlayışı olan insanlardır. Sözsüz ki, onlar təmsil etdikləri ölkənin Azərbaycanın ərazi bütövlüyünü tanıdığını, ölkəmizin federativ dövlət olmadığını, Azərbaycan ərazisində Naxçıvan istisna olmaqla hər hansı bir muxtar respublikanın mövcud olmadığından da xəbərdardılar. Məqsəd siyasi oyun oynamaq deyildirsə, "humanitar yük" gətirən avtomobillərin üstünə nə üçün "Artsax" yazılmış banerlər vurulurdu? Fransızlar Qarabağa "humanitar yardım" etmək niyyətinə düşən kimi nədən Fransanın "Le Figaro" jurnalının direktor müavini Jan-Kristof Buisson Azərbaycanın ərazisində "Artsax" adında hər hansı inzibati ərazi vahidi olmadığını bilə-bilə Paris, Marsel və Strasburq merlərinin müşayiəti ilə "Fransadan 10 ağır yük maşınından ibarət humanitar karvan avqustun 30-da Kornidzora - Ermənistan Artsaxının girişində yola düşəcək" yazırdı? Əslində, Fransaya yüklərin Xankəndiyə buraxılmaması daha çox sərf edirdi, nəinki "humanitar yardım"ın mənzilbaşına çatması. Əgər "humanitar yardım"dan siyasi məqsədlər üçün istifadə edilmirsə, fransızların niyyəti gerçək humanizm prinsiplərinə xidmət edirdisə, nədən "yardımsevər" fransızlar yükü Ağdam-Xankəndi marşrutu ilə ünvanına çatdırmaq istəmədilər. Bəlkə separatçı Ruben Vardanyanın yaratdığı qondarma "Qarabağ təhlükəsizlik və inkişaf cəbhəsi"nin silahlıları onların da yolunu bağlayıb Xankəndiyə buraxmayacaqdılar?

Onu da qeyd edək ki, Azərbaycan apardığı çevik siyasətlə Fransanın oynadığı "top"u əlindən almışdır. Xankəndiyə 40 ton un göndərən Azərbaycan Qızıl Aypara cəmiyyəti "aclıq", "çörək çatışmazlığı" deyib boğazını yırtanların bir həmlə ilə səsini batırmışdı. Fransızlar sərhədlərimizə yaxınlaşmamış boşuna oynadıqlarını hiss etməliydilər.

Davanın yardım davası olmadığını bilməyən yoxdur. Fransanın apardığı avantürist siyasət onun dünya siyasətindəki roluna, nüfuzuna zərbə vurub. Artıq Fransa Afrikadan sıxışdırılıb çıxardılır. Afrika xalqları öz azadlıqları uğrunda mübarizəyə başlayıblar. Nigerdən sonra Qabonda da çevriliş oldu. İndi Fransa Afrikada itirdiklərini Cənubi Qafqazda qazanmaq, yenidən Cənubi Qafqaz siyasətində mövqeyini bərpa etmək niyyətinə düşüb. Özü də necə? Riyakarlıqla, yalanla, siyasi təzyiq yolu ilə... Avqustun 24-də "Le Point" qəzetinə müsahibə verən Fransa Prezidenti Emmanuel Makron deyib ki, "Biz xüsusən də Laçın dəhlizi ətrafında qəbuledilməz humanitar vəziyyətlə üzləşirik. Fransanın rolu humanitar yardım üçün təzyiqi saxlamaqdır və biz bu istiqamətdə əlimizdən gələni edirik. Xüsusilə biz Qarabağa ərzaq, dərman çatdırmaq və bu bölgəyə sərbəst girişi təmin etmək üçün təşəbbüslərlə çıxış etməyə davam edirik. Bundan başqa, bu gün Ermənistanın öz sərhədləri də təhlükə altındadır".

Makron Ermənistanın sərhədlərinin təhlükədə olmadığını, Ermənistanın təcavüzkar dövlət olduğunu, vaxtilə Azərbaycan ərazilərini işğal edib, sərhədləri zorla dəyişmək istədiyini və Fransanın da problemin həllində guya "vasitəçi" olduğunu yaxşı bilir. Onu da bilir ki, onun prezidentlik etdiyi Fransanın da üzv olduğu BMT-nın Təhlükəsizlik Şurası Ermənistanın işğalçı olduğunu rəsmən qəbul edib. Makron bilir ki, Azərbaycan onun təzyiq göstərə biləcəyi ölkə deyil. Ermənistanla sərhəddə Laçın sərhəd nəzarət-buraxılış məntəqəsi də ona görə yaradılıb ki, kimsə istədiyi vaxt qanunsuz olaraq ərazilərimizə girib-çıxa bilməsin. İstədiyi budur ki, separatçılar "yükün" üstə "humanitar damğa"sı vurub Qarabağa silah-sursat keçirə bilməsinlər.

Yeri gəlmişkən, dünən Yerevanda olan Paris meri Ann İdalqo Meşəlidə soyqırımı törətmiş cinayətkar Vaqif Xaçaturyanın qızı ilə görüşüb ona "atasının tezliklə azadlığını həll edəcəyinə" söz verib. Xatırladaq ki, Avropa Məhkəməsi sülh və insanlıq əleyhinə cinayətləri törətməkdə təqsirləndirilən Vaqif Xaçaturyanla bağlı Ermənistanın müraciətini rədd edib. Əli yüzlərlə günahsız insanın qanına bulaşmış bir qatilin "azadlığını" Paris merinin necə təmin edəcəyi gülüş doğurur. Avropa mədəniyyətindən dəm vuran, beynəlxalq hüquqdan, insan haqlarından danışan, az qala özünü beynəlxalq arbitr rolunda təqdim etməyə çalışan bir Avropa ölkəsinin vətəndaşının bu cür populist çıxışı adamı heyrətləndirir. Ann İdalqodan istər-istəməz soruşmaq istəyirsən: sizin insan hüququ, insan azadlığı anlayışınız budurmu? Görünən odur ki, Emmanuel Makrondan sonrakı dövr üçün Fransadakı erməni lobbisi Fransa prezidentliyinə Ann İdalqonu gətirmək istəyir. Yoxsa "viza"sız sərhədlərimizə gəlib dirənən xanım sağa-sola belə populist vədlər verməzdi. Qarabağa gedə bilməyən, hətta "binokl"la da Xankəndini seyr etməyə "vaxtı" olmayan xanım merin "Qarabağda baş verənlər soyqırımına bənzəyir" deməsi bizi təəccübləndirməməlidir. Unutmayaq ki, bunu deyən müharibə zamanı öldürdükləri, qətlə yetirdikləri insanların kəllə sümüklərini eksponat kimi muzeylərində nümayiş etdirən, bizə "humanizm" dərsi keçmək istəyən bir xalqın nümayəndəsidir. Sözün bitdiyi yerdir. Görün kim kimə "humanizm" dərsi keçmək istəyir?

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Baş prokuror Kamran Əliyev ölkəmizin Beyrutdakı səfirliyinin binasına hücumla bağlı livanlı həmkarı ilə telefonla danışıb

Bir çox yerli və xarici media resursunda avqustun 29-da Azərbaycan Respublikasının Livan Respublikasındakı səfirliyi qarşısında aksiya keçirən 50-yə yaxın erməniəsilli şəxsin səfirliyin inzibati binasının ətrafındakı hasara zərbələr endirib, özləri ilə gətirdikləri içərisində boya olan və partlayıcı bərkidilmiş şüşələri, eləcə də bərk cisimləri səfirliyin inzibati binasına atmalarını əks etdirən videogörüntülər yayılıb. Qeyd olunan məsələ ilə bağlı Azərbaycan Respublikasının baş prokuroru Kamran Əli-




yev Livan Respublikasının baş prokuroru Qassan Ueydat ilə telefon danışığı aparıb. Danışıq zamanı beynəlxalq norma və prinsiplərə, eyni zamanda daxili qanunvericiliyə uyğun olaraq hərtərəfli, tam və obyektiv istintaq aparılmaqla təqsirkar şəxslərin dairəsinin müəyyən edilərək cinayət məsuliyyətinə cəlb edilmələri istiqamətində zəruri və təxirəsalınmaz tədbirlərin görülməsi xahiş olunub.

Həmçinin qeyd olunan faktın istintaqı ilə bağlı Azərbaycan Respublikasının dəstəyi və əməkdaşlığı təklif olunub.

Tərəflər məsələ ilə bağlı koordinasiyalı fəaliyyətin aparılacağı barədə razılığa gəliblər.

# Ombudsman erməniəsilli şəxslərin Azərbaycan səfirliyinə hücumunu pisləyib

**Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Azərbaycan səfirliyinə qarşı erməniəsilli şəxslər tərəfindən törədilən hücumu pisləyib.**

Bu barədə AZƏRTAC-a Ombudsman Aparatından məlumat verilib.

Bildirilib ki, Ermənistan tərəfindən tarixboyu Azərbaycan-türk diplomatlarına qarşı terror siyasəti həyata keçirilib, cari ildə həmin siyasətin bu gün də dəstəklənməsinin rəmzi olaraq "Nemezis" terror əməliyyatına həsr olunan abidənin açılışı keçirilib.

Qeyd edilib ki, bu siyasətin nəticələrindən biri kimi çıxış edən növbəti hal Livanda baş verib, 50-yə yaxın erməniəsilli şəxs Azərbaycan Respublikasının Livan Respublikasındakı səfirliyinin inzibati binası qarşısında toplaşaraq boya ilə doldurulmuş, partlayıcı bərkidilmiş şüşələr səfirliyin inzibati binasına atılıb, hasarlara zərbə vurulub və müxtəlif şüarlar səsləndirilib.

"Səfirliyin heyəti arasında xəsarət alan olmasa da, bu kimi hallar azərbaycanlı diplomatların həyat və sağlamlığına zərər vurulması məqsədilə törədilən təxribat kimi qiymətləndirilməlidir. Eyni zamanda hüquq-mühafizə orqanlarının əməkdaşları hadisə yerinə gəldiyi zaman təxribatı törətmiş şəxslərin oranı tərk etməsi onlar barədə müvafiq məsuliyyət tədbirlərinin görülməsinin qarşısını almamalıdır. Məlumdur ki, beynəlxalq hüquqa əsasən səfirlik binaları toxunulmazdır və hər hansı müdaxilədən, zərər vurulmasından mühafizə edilməlidir. Hər bir dövlət diplo-



matik xidmət orqanlarının təhlükəsizliyinin təmini ilə bağlı zəruri tədbirləri görməlidir. Təəssüf ki, bundan əvvəl də bir neçə dəfə Azərbaycanın xarici ölkələrdə yerləşən diplomatik nümayəndəliklərinə ermənilər tərəfindən hücumlar edilib, müxtəlif vandalizm aktları törədilib. Livandakı səfirliyimizin önündə də ötən il bu cür insident yaşanıb. Bu səbəbdən ermənilərin aksiya keçirmək adı ilə radikal hücumlarını davam etdirməsi və Azərbaycanın ərazi bütövlüyünə hörmətsizlik nümayiş etdirən, ittihamyönümlü əsassız şüarlar səsləndirməklə zorakı əməllər törətməsi ciddi narahatlıq doğurur.

Bildirmək istərdim ki, Ermənistan tərəfindən azərbaycanlılara qarşı nifrət təbliğatının daha kəskin hal alması ilə bağlı dəfələrlə açıq müraciətlərimiz olub. Belə ki, bu Azərbaycanofobiya siyasətinin davam etdirilməsi Ermənistanla yanaşı, onun hüdudlarından kənarda da ermənilər tərəfindən müxtəlif formalarda Azərbaycanı hədəfə alan əməllərin törədilməsinə gətirib çıxarır.

Bu baxımdan bütün xarici dövlətləri "Diplomatik əlaqələr haqqında" 1961-ci il tarixli Vyana Konvensiyasından irəli gələn öhdəliklərini yerinə yetirməyə, diplomatik nümayəndəliklərin hədəfə alınması hallarını qəti şəkildə pisləməyə, zəruri məsuliyyət tədbirlərinin görülməsinə dəstək verməyə çağırıram", - deyə ombudsman diqqətə çatdırıb.

# Azərbaycanın təkliflərinin davamlı olaraq rədd edilməsi vəziyyətin heç də humanitar deyil, əksinə, siyasi xarakter daşıdığını bir daha nümayiş etdirir

**Azərbaycan ABŞ Dövlət Departamentinin bölgədəki vəziyyətlə bağlı bəyanatını qeydə alır.**

İlk növbədə Azərbaycan tərəfinin erməniəsilli sakinlərin tələbatlarının ödənilməsi istiqamətində təklifləri, o cümlədən Ağdam-Xankəndi yolundan istifadə ilə paralel olaraq, Laçın yolundan hərəkətin intensivləşməsi təklifini irəli sürməsinin, eləcə də gündəlik əsasda onlarla erməni sakinin Laçın sərhəd-buraxılış məntəqəsindən hər iki istiqamətdə keçməsi fonunda bölgədə "blokada" olması iddiaları qəbuledilməzdir.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə ABŞ Dövlət Departamentinin mətbuat katibi Metyu Millerin 31 avqust tarixli bəyanatını şərh edərkən deyib.

Ayxan Hacızadə bildirib ki, erməni sakinlərin bəzi nümayəndələrinin Azər-



baycan ərazilərində yerləşən Rusiya sülhməramlı kontingenti vasitəsilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən Ağdam-Xankəndi istiqamətinə göndərilmiş və hazırda Xankəndiyə keçidi gözləyən yük maşınlarına mane olmaq istiqamətində səyləri və yolu bağlaması bölgədə "gərgin humanitar vəziyyət"in mövcudluğu iddialarını əsassız edir.

Azərbaycanın Qarabağ bölgəsində məskunlaşan erməni sakinlərin reinteqrasiyası, Qarabağ bölgəsinə humanitar yüklərin müxtəlif marşrutlarla çatdırılması, həmçinin Azərbaycanın xüsusi nümayəndəsi ilə yerli erməni sakinlərin nümayəndələri arasında görüşün təşkili ilə bağlı Azərbaycanın erməni sakinləri dəfələrlə görüşə dəvət etməsi, bu istiqamətdə görüşlərin təşkili ilə bağlı əldə olunmuş razılıqlardan Ermənistan tərəfinin öz qondarma rejimi vasitəsilə qeyri-qanuni şərtlər və müxtəlif bəhanələr irəli sürməklə boyun qaçırması ABŞ tərəfinə yaxşı məlumdur. Azərbaycan tərəfinin bu istiqamətdə təkliflərinin davamlı olaraq rədd edilməsi isə vəziyyətin heç də humanitar deyil, əksinə, siyasi xarakter daşıdığını bir daha nümayiş etdirir.

"Azərbaycan Respublikası dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət əsasında bölgədə sülh, təhlükəsizlik və sabitliyin bərqərar olmasında, erməni sakinlərin ölkəmizin qanunvericiliyi çərçivəsində reinteqrasiyasında qərarlıdır", - deyə XİN rəsmisi əlavə edib.

# *Səfir:* "Rusiya-Azərbaycan münasibətləri hər iki dövlətin mənafeyi naminə uğurla inkişaf edir"

**Avqustun 31-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Rusiya Federasiyasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mixail Yevdokimovla görüşüb.**

QMİ-dən AZƏRTAC-a bildirilib ki, görüşdə Şeyxülislam Qafqaz Müsəlmanları İdarəsi ilə Rus Pravoslav Kilsəsi arasında səmərəli dinlərarası əməkdaşlıq əlaqələrindən danışıb. O, bu əlaqələrin dinlərarası dialoqun gözəl nümunəsi olmaqla xalqlarımız arasında qarşılıqlı anlaşma mühitini dərinləşdirdiyini və bölgəmizin mənafelərinə xidmət etdiyini vurğulayıb.



Şeyxülislamlığı dövründə Moskva və bütün Rusiya Patriarxları ilə yüksək səviyyədə münasibətlərindən bəhs edən QMİ sədri Rus Pravoslav Kilsəsinin sülhyaratma potensialını vurğulayıb. Rus Pravoslav Kilsəsinin uzun illər ərzində dinlərarası dialoq müstəvisində nümunəvi fəaliyyətinə toxunaraq Patriarx Kirillin vasitəçiliyi ilə baş tutan dini liderlərin dialoqları sayəsində zamanında Ermənistan-Azərbaycan münaqişəsinin dini qarşıdurma xarakteri almasının qarşısı alındığını xüsusi diqqətə çatdırıb. Dini liderlərin sülh yönündə səylərinin davam etdirilməsinin mühümlüyünə toxunan QMİ sədri təəssüflə qeyd edib ki, erməni kilsəsi bölgədə sülhün bərqərar olması istiqamətində deyil, revanşizmi körükləmək yönündə fəal iş aparır, anti-Azərbaycan kampaniyasının önündə gedərək beynəlxalq dini platformalardan sui-istifadə edir.

Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında siyasi, iqtisadi, mədəni-humanitar münasibətlərlə yanaşı, dini-mənəvi əlaqələrin də mövcud səviyyəsindən razılıq ifadə olunub. QMİ sədri yeni səfirin bu əlaqələrin inkişafı istiqamətində öz səylərini əsirgəməyəcəyinə ümidvar olduğunu bildirib. Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası ilə Qafqaz Müsəlmanları İdarəsinin dinlərarası dialoq sahəsində səmərəli əməkdaşlıq münasibətlərinin mövcudluğundan, ölkəmizin dini həyatında, dini konfessiyalar müstəvisində fəal icma olaraq iştirakından razılıq ifadə edilib.

İkinci Qarabağ müharibəsində Azərbaycan xalqının işğaldan azad etdiyi ərazilərdə gedən genişmiqyaslı quruculuq işləri, infrastruktur layihələri ilə yanaşı, vandalizmə məruz qalmış dini-mənəvi irsin dirçəldilməsi, məscidlərin və pravoslav, alban-udi kilsələrinin, digər məbəd və ziyarətgahların yenidən qurulması, bərpası, qorunması sahəsində misilsiz işlər görüldüyünü deyən Allahşükür Paşazadə bütün bunların Prezident İlham Əliyevin möhkəm siyasi iradəsi sayəsində həyata keçirildiyini qürurla qeyd edib.

M.Yevdokimov Rusiya ilə Azərbaycan arasında geniş spektr üzrə münasibətlərin hər iki dövlətin mənafeləri naminə uğurla davam və inkişaf etdiyini vurğulayıb. Diqqətə çatdırıb ki, Rusiya Federasiyası bölgədə sülhün davamlı olması, habelə humanitar yükün Qızıl Aypara Cəmiyyətinin xətti ilə Ağdam-Xankəndi yolundan keçirilməsi istiqamətində öz səylərini əsirgəmir.

Dövlət başçılarımızın səyləri sayəsində ölkələrimiz arasında çoxtərəfli əlaqələrin qurulmasından məmnunluğunu ifadə edən rusiyalı səfir Pus Pravoslav Kilsəsi ilə Qafqaz Müsəlmanları İdarəsi arasında dinlərarası dialoq çərçivəsində nümunəvi dini-mənəvi əlaqələrin mövcudluğunu yüksək qiymətləndirib. Bu işdə böyük nüfuza malik dini lider olaraq Allahşükür Paşazadənin fəaliyyətinin böyük əhəmiyyət daşıdığını bildirib. Görüşdə xalqlarımız, dövlətlərimiz arasında mövcud dostluq, qardaşlıq, strateji əməkdaşlıq bağlarının qorunub saxlanılması, inkişaf etdirilməsinin vacibliyi qeyd olunub.

Görüşdə Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi Arximandrit Aleksiy Nikonorov da iştirak edib.

# *Dmitri KİSELYOV:* ""Sputnik" radiosunun Qarabağda yayımının davam etdirilməsi üçün Azərbaycanın icazəsi lazımdır"

**"Sputnik" radiosunun Qarabağda yayımının davam etdirilməsi üçün Azərbaycanın icazəsi lazımdır.**

AZƏRTAC xəbər verir ki, bu barədə "Rossiya seqodnya" mediaqrupunun baş direktoru Dmitri Kiselyov Rusiya Federasiyası Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr üzrə Komitəsi sədrinin birinci müavini Konstantin Zatulinin məktubuna cavab olaraq bildirib.

Məktubda qeyd olunur ki, "Sputnik" radiosunun Qarabağda yayımının dayandırılması Ermənistanın baş naziri Nikol Paşinyanın İrəvanın Azərbaycanın ərazi bütövlüyünü tanımağa və Ermənistanın ərazisini 1991-ci ilin sərhədlərində qeyd etməyə hazır olması barədə bəyanatı ilə bağlıdır. D.Kiselyov vurğulayıb ki, söhbət radio yayımının tam deyil, müvəqqəti dayandırılmasından gedir.

"Bir müddət əvvəl Ermənistanın baş naziri Nikol Paşinyan bildirib ki, sülhə nail olmaq üçün İrəvan Azərbaycanın ərazi bütövlüyünü tanımağa və Ermənistanın ərazisini 1991-ci ilin sərhədlərində qeyd etməyə hazırdır. Biz bu bəyanata əsasən güman edirik ki, Azərbaycanın tənzimləyici orqanlarının razılığı olmadan efirimizin retranslyasiyasının davam etdirilməsi Moskva tərəfindən münasibətlərin səmimiliyini şübhə altına qoyur və ölkələrimiz arasında dövlətlərarası əlaqələrin mürəkkəbləşməsinə səbəb ola bilər", - məktubda deyilir.

"Rəsmi Bakıdan yayımı davam etdirmək üçün bütün aktual hüquqi normalara uyğun icazə alınarsa, regionda yayımı davam etməyə hazırıq", - deyə D.Kiselyov əlavə edib.

# Azərbaycan dövləti Gürcüstanda yaşayan soydaşlarımıza daim diqqət və qayğı göstərir

"Azərbaycan dövləti Gürcüstanda yaşayan soydaşlarımıza daim diqqət və qayğı göstərir. Əsası Ulu Öndərimiz tərəfindən qoyulmuş bu siyasət Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir".

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev ADA Universitetinin Qazax Müəllimlər Seminariyasında təhsil alacaq tələbələrlə görüşdə söyləyib.

Bildirib ki, dövlətimiz tərəfindən hər il Gürcüstandakı azərbaycandilli məktəblərə minlərlə dərs vəsaiti və müxtəlif kitablar çatdırılır. Azərbaycan dövlətinin və Heydər Əliyev Fondunun dəstəyi ilə Gürcüstanda məktəblər, idman kompleksləri, mədəniyyət ocaqları tikilir və əsaslı təmir olunur.

Diplomat deyib ki, ADA Universitetinin rəhbəri, professor Hafiz Paşayevin təşəbbüsü ilə Gürcüstandakı soydaşlarımızın daha yaxşı ali təhsil almalarına yardım məqsədilə yeni layihə hazırlanıb: "Bu layihə əsasında Gürcüstanda soydaşlarımız arasında keçirilmiş müsabiqə nəticəsində 25 nəfər ADA Universitetinin Qazax Müəllimlər Seminariyasında ikinci ali təhsil alacaq. Düşünürük ki, bu, soydaşlarımıza yüksək dövlət vəzifələrində çalışmalarına imkan yaradacaq".

Səfir ADA Universitetinin imkanları, dünyanın ali təhsil ocaqları sırasındakı yüksək yeri, bu universiteti, eləcə də Qazax Müəllimlər Seminariyasını bitirən məzunlar üçün yaradılan geniş iş imkanları barədə ətraflı məlumat verib.

Qazax Müəllimlər Seminariyasında təhsil alacaq tələbələr göstərilən yüksək diqqət və qayğıya görə Azərbaycan dövlətinə, eləcə də professor Hafiz Paşayevə təşəkkür ediblər.

Sonda xatirə şəkli çəkdirilib.

# Araik Arutyunyan istefa verdi

## Hayastanla separatçılar arasında ziddiyyətlər daha da dərinləşir

**Qarabağda baş verən son proseslər Hayastanla separatçılar arasında ziddiyyətlərin daha da dərinləşdiyini göstərir. Belə ki, Ağdam-Xankəndi yolundan daşımaların gündəmə gəlməsindən sonra separatçılar arasında kəskinləşən qarşıdurmada Araik Arutyunyana həm "siyasi qüvvələr", həm də "rejim daxilində" təzyiqlər edilirdi. Samvel Babayan Ağdam yolunun açılmasını dəstəkləyir, Ruben Vardanyan ona qarşı çıxırdı. Dünən istefa verdiyini elan edən Arutyunyan isə bununla da məsuliyyəti üzərindən atdığını göstərmiş oldu.**

İstefa səbəblərinə aydınlıq gətirən Araik deyib ki, o, "prezident" olandan 4 ay sonra müharibə başlayıb: "Biz bu müharibədə məğlub olduq. Əlbəttə ki, məğlubiyyətin bütün günahını mənim üzərimə yıxmaq olar. Bu məsuliyyətdən imtina etmirəm. Buna görə ermənilərdən üzr istəyirəm. Lakin biz mümkün qədər müqavimət göstərdik. Amma bunların yetərli olduğunu düşünmürəm. Ona görə də prinsipial qərarların qəbul edilməsi üçün dəyişikliyə getməyi qərara aldıq. İlk addımı isə mən atıram. Qoy, dəyişiklik məndən başlasın".

O, separatizm mərkəzindən istefasını iki gün əvvəl verdiyini də söyləyib. "İstefamı erməni xalqına təqdim edəcəm. Buna qədər isə "dövlət naziri" Qurgen Nersisyanı istefaya göndərmişəm. Onun yerinə isə Samvel Şahramanyanı gətirmişəm. Əminəm ki, o, hər şeyi etməyi bacaracaq". Arayik həmçinin Qarabağdan getmək fikrində olmadığını, ailəsi ilə birlikdə Xankəndidə yaşayacağını da söyləyib.

Yerli medianın yazdığına görə, onun yerinə təyin olunan Şahramanyan 1978-ci il dekabrın 1-də Azərbaycan SSR-in Xankəndi şəhərində anadan olub. O, indiki "vəzifə"sindən öncə qondarma rejimin "milli təhlükəsizlik xidməti"nin (MTX) "direktoru" və tanınmamış "DQR"in "hərbi vətənpərvərlik, gənclər, idman və turizm naziri" işləyib. "General-mayor" rütbəsi daşıyan S.Şahramanyan 1997-ci ildə İrəvan Qriqor Zohrap Universitetinin Beynəlxalq İqtisadiyyat fakültəsinə daxil olub. Daha sonra 1998-ci ildə Xankəndi Pedaqoji İnstitutunun İqtisadiyyat fakültəsinə keçib və 1999-cu ildə oranı bitirib.

1996-1999-cu ildə separatçı qurumun "müdafiə ordusu"nda "hərbi xidmət" keçib. Qondarma qurumda müxtəlif "vəzifələr"də çalışan S.Şahramanyan 2013-cü ildə separatçı "DQR Polisi"nin Xankəndi şəhər şöbəsinin "rəisi", sonra isə cinayət axtarış idarəsinin "rəisi" təyin edilib. 2014-2018-ci illərdə qondarma qurumun MTX-sində işləyib. 2018-2020-ci illərdə o, MTX-nin "direktoru" olub. O, 2018-ci il iyulun 16-da "Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar komissiya"nın "sədri" təyin edilib. 29 may 2020-ci ildə isə "general-mayor" rütbəsi alıb. Bu tarixdə separatçı xuntanın "hərbi vətənpərvərlik, gənclər, idman və turizm naziri" təyin edilən S.Şahramanyan 2023-cü il yanvarın 16-dan qondarma qurumun "təhlükəsizlik şurası"nın "katibi" "vəzifə"sində çalışıb.

Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev tviter hesabında paylaşımında bildirib ki, Qarabağdakı qanunsuz rejim buraxılmalı və tərk-silah edilməlidir: "Azərbaycan Qızıl Aypara Cəmiyyətinin tədarük etdiyi buğda ununun istehsal mənşəyinə görə (Azərbaycan) rədd edilməsi qeyri-qanuni marionet rejimin izlədiyi irqçilikdir. Azərbaycan artıq öz torpağında nəzarətsiz zonaya tolerantlıq göstərə bilməz. Qanunsuz rejim buraxılmalı və tərk-silah edilməlidir".

Burada əsas məqam Azərbaycanla kimin danışıqlar aparması məsələsidir. Araik "istefa"dan öncə qondarma "dövlət naziri" Qurgen Nersisyanın yerinə Samvel Şahramanyanı gətirdi və ona geniş "səlahiyyətlər" verməklə separatçıların yeni "rəhbəri" etdi. Xatırladaq ki, Şahramanyan martın 1-də Xocalıda keçirilən görüşdə Qarabağdakı ermənilərin "nümayəndəsi" kimi iştirak etmişdi.

Dünən Ermənistan Mərkəzi Seçki Komissiyasının binası yaxınlığında keçirilən mitinqdə "Ana Ermənistan" blokunun proporsional siyahısına rəhbərlik edən Andranik Tevanyan deyib ki, Hayastan üçün yaranmış vəziyyətin həlli danışıqların məntiqinin və danışıqları aparanın (Paşinyan-red.) dəyişməsindən keçir.

Erməni müxalifətçinin sözlərinə görə, Qarabağın Azərbaycanın tərkib hissəsi kimi şifahi tanınması burada yaşayan ermənilərə, eləcə də Ermənistanın maraqlarına ciddi ziyan vurub. Hazırkı iqtidarın bu cür tezislər səsləndirməyə və belə bir siyasət həyata keçirməyə legitimliyi yoxdur.

Erməni fəal İşxan Verdyan isə bildirib ki, Araik Arutyunyanın istefası sülh prosesi üçün pis xəbərdir. Araik bütün iyrəncliyinə baxmayaraq, Paşinyanın adamı, yəni nəzəri olaraq Azərbaycanla mümkün dialoqu düşünə bilən adam olaraq qalmışdı. Onun yerinə gələn istənilən şəxs gözlənilməz nəticələrə səbəb ola biləcək revanşist qüvvələri təmsil edəcək. Separatçıların qondarma "konstitusiyasına" əsasən "prezidentin" istefası "parlament"in buraxılmasına gətirib çıxarmalıdır. Əgər "parlament" buraxılmasa, bu o demək olacaq ki, Qarabağda yəni sırf terror təşkilatı yaranacaq.

Erməni siyasi xadim Armen Melikyan isə deyib ki, Hayastanın sponsoru olsaydı, belə vəziyyətə düşməzdi. İrəvanın mövqeyi elədir ki, hər hansı bir geosiyasi layihələrin qələbəsi bizə şok yarada bilər. "Qarabağ səlahiyyətliləri" (separatçılar-red.) dilsiz qaldıqları müddətdə petisiyalarla nəticə əldə etməyəcəklər. Qarabağda yeni "rəhbər"in gəlişi Ermənistanda hakimiyyət dəyişikliyinə təkan vermək üçün platforma ola bilər.

Bütün bunlar göstərir ki, proseslər separatçılarla Qarabağın erməni əhalisi arasında ziddiyyətləri daha da kəskinləşdirəcək.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

## "Böyük qayıdış" proqramı sürətlə icra olunur

# Güclü iradənin və qətiyyətin nəticəsi

## Azərbaycan istədiyinə hər zaman nail olur

**Zəfər onu təkcə qazanmaqla tamamlanmır. Xalqın tarixi zəfərinə layiq olduğu dəyəri vermək, onun əlamətdarlığını qorumaq, bununla milli vəhdəti daha da möhkəmləndirmək, yeni nəsilləri zəfər ruhunda tərbiyələndirmək də çox mühüm məsələdir.**





44 günlük Vətən müharibəsində nail olduğumuz qələbə sadəcə Azərbaycanın ərazi bütövlüyünün bərpası, torpaqlarımızın işğalçılardan azad edilməsi, haqq-ədalətin öz yerini tutması ilə nəticələnmədi. Bu zəfər xalq olaraq özümüzə, dünyaya böyüklüyümüzü, milli iradəmizin gücünü göstərdi. Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, Vətən uğrunda canından keçən əsgər və zabitlərimizin igidliyi sayəsində Azərbaycanın hər kəndinin, qəsəbəsinin, şəhər və rayonunun düşməndən azad edilməsi bu tarixin şərəfli səhifələridir. Vətən müharibəsindəki qələbəmiz milli qürur salnaməmizdir. Azərbaycan xalqının qələbəsini yaşadan hər bir addım əhəmiyyətlidir. Bu baxımdan tarixi qələbə günlərinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı 31 iyul 2023-cü il tarixli sərəncam, həmin sərəncama əsasən, Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi çox böyük əhəmiyyət daşıyır. Sözügedən sərəncama əsasən, 26 avqust Laçın Şəhəri Günü kimi tarixə düşdü. Elə ilk Şəhər Günü də Azərbaycan Prezidentinin iştirakı ilə Laçında keçirildi. Bu münasibətlə təşkil edilmiş təntənəli, unudulmaz bayram mərasimi ilə qələbədən sonra ilk Şəhər Günü ənənəsinin əsası da Laçında qoyuldu.

### 31 ildən sonra yurda dönüş

Azərbaycanın füsunkar məkanlarından olan Laçın ölkəmizin ərazi bütövlüyünün bərpasında xüsusi önəm daşıyır. Bu şəhərin azadlığı tarixi ədalətin təntənəsi, Azərbaycan dövlətinin, dövlət rəhbərimizin qətiyyətinin, siyasi iradəsinin, gücünün daha bir simvoludur. Vətən müharibəsində əldə etdiyimiz qələbə nəticəsində imzalanmış üçtərəfli Bəyanata əsasən, 2020-ci il dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verilmişdi. Amma keçmiş Laçın dəhlizi bu şəhərdən və rayonun iki kəndindən keçdiyindən həm şəhərin özü və iki kənd - Zabux və Sus nəzarətimizdə deyildi. Sonradan digər yol çəkildiyindən Azərbaycan Laçın şəhərini, Zabux və Sus kəndlərini də nəzarətə götürdü və dövlətimiz bununla beynəlxalq səviyyədə tanınan ərazilərimizin bütövlüyünü bərpa etdi.

Qələbədən sonra Şərqi Zəngəzurda, Qarabağda aparılan bərpa quruculuq prosesi gedişində Laçında da çox böyük işlər görüldü. Bu rayona böyük köç artıq başlanıb. 31 illik həsrətdən sonra laçınlılar artıq öz doğma el-obalarına qayıdırlar. Artıq 1000-ə yaxın Laçın sakini şəhərdə məskunlaşıb. İlin sonuna qədər 900 ailə üçün də evlər hazır olacaq. Bu ilin sonuna qədər Laçında bir neçə min şəhər sakininin yaşaması nəzərdə tutulur.

Bölgədə son dərəcə böyük strateji önəm daşıyan Laçının azadlığı, işğaldan qurtuluşundan sonra yeni həyatına qədəm qoyması 1992-ci ilin mayında köksümüzə vurulan ağır yaranın zamanla sağalmasıdır. 31 il əvvəl Laçının, Şuşanın itirilməsi ən böyük fəlakətlərimizin başlanğıcı idi. İşğaldan sonra erməni vandalları burada da ağlagəlməz vəhşiliklər törətdilər. Rayonun əhalisi etnik təmizləməyə məruz qaldı. 300-dən artıq hərbi və mülki şəxs həlak oldu və itkin düşdü. Laçındakı 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 30 rabitə, 133 idarə və müəssisə, 5 musiqi məktəbi, 1 internat məktəbi, 1 orta texniki peşə məktəbi, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri işğalçılar tərəfindən talan və məhv edildi. 54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə vandalizmə məruz qaldı.

### Torpağın əsl sahibi

Ermənistanın Laçınla bağlı cinayətləri bununla da bitmədi. Rəsmi İrəvan dövləti hərbi cinayət törədərək Laçında qanunsuz məskunlaşma aparırdı. Xüsusilə xarici ölkələrdən, Yaxın Şərqdən erməniləri dəvət edib onları azərbaycanlıların evlərində yerləşdirmişdi. Laçında qanunsuz məskunlaşdırılmış ermənilərin burada necə miskin bir həyat yaşadıqları şəhər və kəndlərimizin xarabalıq mənzərələrindən bəlli idi. Təxminən 30 illik işğal dövründə Azərbaycanın qurulu yurdlarını talamaqdan, ələ keçən, gözə görünən nə varsa, söküb satmaqdan, quldur kimi yağmalamaqdan başqa bir iş görməmiş erməni vandalları Laçında da, demək olar, kiçik bir inkişaf mənzərəsi belə yarada bilməmişdilər. Bu həm də özünün olmayana münasibətin göstəricisidir. İnsan hansısa məkanı, dəyəri özününkü saymayanda, onunla özü arasında heç bir mənəvi-maddi bağlantı qura bilməyəndə dağıdıcılıq instinktləri işə düşür. Ermənilər də bütün ciddcəhdlərə, azğınlıqlara, qanunsuz məskunlaşdırma cinayətlərinə rəğmən bu torpaqlarda müvəqqəti olduqlarını, yurdun əsl sahibinin gec-tez onları buralardan rədd edəcəyini çox yaxşı bilirdilər. Ona görə də mümkün qədər dağıtmaqdan, talan etməkdən, ziyan vurmaqdan başqa nəyisə həyata keçirməyə iradə, qabiliyyət və imkanları çatmırdı.

Torpağa əsl sahiblik ruhu Azərbaycan dövlətinin qısa müddət ərzində Qarabağda, Şərqi Zəngəzurda yaratdığı reallıqlardadır. Azad yurdlarımızda böyük sürətlə aparılan quruculuq işlərindədir. Bu ruh cəmi 8 ay içində yenidən qurulmuş Laçın şəhərinin indiki gözoxşayan cənnət görkəmindədir. Bütün bunlar bir tərəfdən Azərbaycan xalqının quruculuq istedadını, tikib-yaratmaqla əsrlərboyu bəşər mədəniyyətinə verdiyi töhfələri, milli iradəsini göstərir, eyni zamanda bu torpaqların əsl sahibləri olduğumuzu bütün dünyaya nümayiş etdirir. Laçın rayonunun timsalında biz dirçələn Azərbaycanı, dirçələn torpaqlarımızı görürük. İnsanlarımızın qayıdışı ilə doğma torpaqlarımızda başlanan yeni həyat, yurda dönmüş həmvətənlərimizin burada qürurla yaşaması, Şuşada, Laçında qurulan toy-büsat öz torpaqlarında haqq-ədalət uğrunda mübarizə aparan, ədalətli müharibədə qalib gələn, bütün çətinliklərə, keşməkeşlərə baxmayaraq öz haqqını, özünə aid olanı almağı bacaran Azərbaycanın zəfərinin təntənəsidir. Dövlət rəhbərimizin də bəyan etdiyi kimi, bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, ancaq öz torpağımızı da heç kimə verən deyilik. Azərbaycan xalqı bundan sonra bu torpaqlarda sülh, əmin-amanlıq şəraitində yaşayacaq, doğma yurdlarımızda qurub-yaradacaq.

### Legitim addım

Laçın zəfərimizdən sonra Azərbaycanın iradə və cəsarətinin daha bir simvoluna çevrilib. Bu il aprelin 23-də Laçın rayonunda, Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsinin qoyulması və ərazi bütövlüyümüzün tam bərpasının bütün dünyaya bəyan edilməsi bunun təzahürüdür. Azərbaycanın həmin tarixdə Həkəri çayı üzərində Laçın sərhəd-buraxılış məntəqəsini qurması, sərhəddə üçrəngli, ay-ulduzlu dövlət bayrağımızın ucalması qətiyyətin gücüdür. Bu addım böyük Şuşa zəfərindən sonra əldə edilmiş əhəmiyyətli hərbi-siyasi qələbəmizdir.

Laçın sərhəd-buraxılış məntəqəsinin böyük önəmi var. Bir zamanlar torpaqlarımızı işğal edən, soydaşlarımızı doğma yurd yerlərimizdən didərgin salan, kütləvi şəkildə qətlə yetirən düşmən indi şanlı Azərbaycan bayrağının altından keçərək, sərhədçilərimizin önündə dinməz-söyləməz farağat dayanır. 30 il əvvəl azərbaycanlılara qarşı XX əsrin faciəsini törətmiş şəxsin - Xaçaturyan Vaqif Çerkezoviçin saxlanılması misalında Azərbaycan dövləti cinayətkarların törətdikləri vəhşi əməllərə görə beynəlxalq hüquq və ölkə qanunvericiliyi çərçivəsində mühakiməsinə nail olur. Bu, qürur duyulası hal və ali ədalətin təntənəsidir.

Laçın sərhəd-buraxılış məntəqəsində Dövlət Sərhəd Xidmətinin və Dövlət Gömrük Komitəsinin əməkdaşları istər Azərbaycan ərazisinə daxil olan ermənilərin, istərsə də ölkəmizdə yaşayan erməni-əsilli vətəndaşların sənədlərini, eləcə də şübhəli bilinən yüklərini yoxlayırlar. Beləliklə, Azərbaycanın fəaliyyəti, öz dövlət sərhədlərini etibarlı qaydada mühafizə etməsi bölgədə sülhün bərqərar olmasına şərait yaradır və separatçıların növbəti təxribatlarının qarşısını alır.

Bu məntəqənin yaradılması yaxın gələcəkdə Qarabağda qanunsuz yerləşdirilmiş erməni silahlı birləşmələrinin çıxarılması, həmçinin separatçıların tərk-silah olunması baxımından çox böyük əhəmiyyətə malikdir. Bununla Azərbaycan regionda sülh və əmin-amanlığın, dayanıqlı inkişafın əsasını qoyur, buna möhkəm zəmin yaradır.

Laçın sərhəd-buraxılış məntəqəsi Azərbaycanın suverenliyini, təhlükəsizliyini təmin edir, ölkəmizin ərazisində qeyri-qanuni dislokasiya olunmuş 10 minə yaxın hərbçinin rotasiyasının, habelə əraziyə silah, sursat, mina və xarici terrorçuların daşınmasının qarşısını alır, həmçinin Azərbaycanın təbii sərvətlərinin qanunsuz çıxarılmasını əngəlləyir.

Bütün bunlar Ermənistanın beynəlxalq aləmdəki çoxsaylı havadarlarının Azərbaycana qarşı təzyiq və təhdidləri fonunda baş verir. Laçın sərhəd-buraxılış məntəqəsinin yaradılmasını həzm edə bilməyən Ermənistan tərəfi və onun himayədarları hər cür təxribata əl ataraq ölkəmizi guya Ermənistanla sərhəddə vəziyyəti gərginləşdirməkdə, Qarabağ bölgəsində humanitar böhran yaratmaqda təqsirləndirirlər. Rəsmi İrəvan belə təxribatçı cəhdlərlə Azərbaycanın daxili işlərinə müdaxilə etməklə yanaşı, uzun illərdən bəri ölkəmizə qarşı həyata keçirdiyi təcavüzkar siyasəti fərqli qiyafədə təqdim etməyə çalışır. Bir sözlə, erməni xisləti yenə öz işindədir. Bütün beynəlxalq hüquq normalarını, dəyərləri kənara qoyub onların təxribatlarına dəstək verən riyakarlar da yenə öz əməllərindən qalmırlar. Amma heç bir təxribat, təzyiq və təhdid cəhdi Azərbaycan dövlətini ölkəmizin suveren hüquqları çərçivəsində atılmış legitim addımdan çəkindirə bilməz. Laçın Azərbaycan ərazisi olduğundan burada həyata keçiriləcək tədbirlər, o cümlədən sərhəd-buraxılış məntəqəsinin yaradılması da müstəsna olaraq ölkəmizin daxili işidir. Sərhədimizin toxunulmazlığının təmin olunması məsələsi ölkəmizin milli təhlükəsizliyi ilə yanaşı, qanunun aliliyinin də tələbidir. Azərbaycan dövləti təhlükəsizliyin pozulmasına yönəlik təhdidlərə qarşı suveren ərazimizdə sərhəd-buraxılış məntəqəsinin yaradılmasını beynəlxalq hüququn norma və prinsiplərinə uyğun şəkildə tam qanuni həyata keçirib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu il mayın 1-də ABŞ Dövlət katibi Entoni Blinkenlə telefon danışığı zamanı qeyd etdiyi kimi: "Azərbaycan-Ermənistan sərhədində Laçın sərhəd-buraxılış məntəqəsinin qurulması Azərbaycanın suveren hüquqları çərçivəsində və bütün beynəlxalq qaydalara uyğun olaraq təmin edilib... Məqsəd hərəkətin məhdudlaşdırılması deyil, əksinə, nəzarətin təmin edilməsidir və artıq bu məntəqə vasitəsilə gediş-gəliş həyata keçirilir... Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əhalisinin hüquqları Azərbaycanın Konstitusiyası və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq sənədlər çərçivəsində təmin olunacaqdır".

Bu, milli maraqlarımızın qorunması naminə siyasi iradənin nümayişi, tarixi zəfərimizdən sonra regionda yaranmış yeni reallığın tərkib hissəsidir və legitimliyi ilə müvafiq beynəlxalq normalara uyğundur. Belə ki, Beynəlxalq Ədalət Məhkəməsinin 2023-cü il 6 iyul tarixli yekdil qərarı ilə Ermənistanın nəzarət-buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı müvəqqəti tədbir görmək tələbi rədd edilmiş, rəsmi İrəvanın Laçın keçid məntəqəsinin qanunsuzluğu ilə bağlı iddiaları qəti şəkildə təkzib olunmuşdur. Bütün proseslər Ermənistanın "humanitar böhran" bəhanəsilə yeni manipulyasiyalar etdiyini, növbəti hərbi təxribatlar üçün süni səbəblər yaratdığını göstərir. Eyni zamanda rəsmi İrəvanın riyakarlığını, məkrli xislətini, Qarabağ ermənilərini öz çirkin məqsədi üçün girova çevirdiyini, Xankəndidə vəziyyətin maksimum pisləşməsi marağında olduğunu ortaya qoyur. Belə ki, Ermənistan həqiqətən də bölgənin sadə sakinlərini düşünsəydi, heç vaxt Ağdam-Xankəndi yolundan Qarabağ bölgəsinə yüklərin çatdırılmasına etiraz etməzdi. Bu baxımdan Azərbaycan dövləti Ağdam-Xankəndi yolu ilə Qarabağ ermənilərinə 40 ton un yüklənmiş 2 avtomobil göndərməklə "humanitar böhran" haray-həşiri salmış Ermənistan rəhbərlərini də, onlara dəstək verib yeni təxribatlara "həvəsləndirən" xarici havadarlarını da fakt qarşısında qoymuş oldu.

Tarixboyu özünə "miskin millət" qiyafəsi biçmiş ermənilərin təxribatları, manipulyasiya cəhdləri heç bir nəticə verməyəcək. Proseslərin gedişatı regionumuzda sülhün, dövlətlərin bir-birinin ərazi bütövlüyünə, qanunlarına hörmətlə yanaşmasının, dayanıqlı inkişaf naminə əməkdaşlığının alternativinin olmadığını göstərir. Azərbaycan səbirlə, təmkinlə, bir o qədər də qətiyyət və iradə ilə bu istiqamətdə bütün məqsədləri reallaşdıracaq, ölkəmizin liderliyi ilə regionumuz əmin-amanlıq, tərəqqi məkanına çevriləcək, möhtəşəm qələbəmiz işığında yeni inkişaf zəfərləri qazanılacaq.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Qərbi azərbaycanlılar doğma yurdlarına qayıdacaqlarına əmindirlər

**Qərbi Azərbaycan İcması İrəvan və Ermənistanın digər bölgələrindən zorla qovulan, deportasiya adı ilə elindən-obasından məcburən köçürülən soydaşlarımızın öz ata-baba torpaqlarına qayıdış tələbini dünya müstəvisində reallaşdırmağa çalışmaqla ölkəmizdə gedən bütün ictimai-siyasi proseslərinə öz münasibətini bildirir. Bəzi dairələrin Azərbaycanda sülh, sabitlik və əməkdaşlığın təmini məsələlərində reallıqdan uzaq qərar və qətnamələr qəbul etməsini, subyektiv mövqe ortaya qoymasını Qərbi Azərbaycan İcması çox kəskin və ciddi şəkildə ittham edir.**



Fransa Prezidentinin və xarici işlər nazirinin bir çox açıqlamalarında rəsmi Parisin Azərbaycana düşmən münasibət bəsləməsinin davam etdiyi açıq göstərilir. Öz ölkəsinin problem və qayğıları ilə məşğul olmaq iqtidarında ola bilməyən Fransa Cənubi Qafqazda yer tutmaq üçün erməni separatizminə dəstək verir.

İrqçiliyə qarşı etirazları polis gücü ilə yatıran və bu hadisələr fonunda dünyada imici darmadağın olan, Afrika qitəsində dalbadal biabırçı məğlubiyyətlərə düçar olaraq ölkələrdən qovulan Fransa, görünür, Azərbaycana qarşı hansısa addımların atılması ilə təskinlik tapmaq istəyir.

Qərbi Azərbaycan İcmasının Fransa Prezidenti və xarici işlər nazirinin bu kimi qərəzli açıqlamaları ilə bağlı bəyanatında konkret və açıq şəkildə bildirilib: "Fransa xarici işlər nazirinə xatırladırıq ki, "əxlaqsızlıq" Əlcəzairdə soyqırımı törədən, müxtəlif tayfaları məhv edən, əlcəzairli azadlıq döyüşçülərinin kəllələrini hərbi qənimət kimi Parisdə muzeydə saxlayan, özündən min kilometrlərlə uzaqda yerləşən əraziləri hələ də müstəmləkə işğalında saxlayan, Sakit okeanda keçirdiyi nüvə silahı sınaqları ilə müxtəlif xalqlara və ətraf mühitə zərərlər yetirən, Korsika dilini qadağan edən Fransanın hərəkətidir.

Ermənistanın 1987-1991-ci illərdə azərbaycanlıların hamısını öz ərazisindən vəhşicəsinə qovmasına, 1991-1994-cü illərdə Azərbaycan ərazilərini işğal etməsinə, oradan 800 minə yaxın azərbaycanlını qovmasına, Azərbaycanın 900-dən artıq şəhər və kəndini Yer üzündən silməsinə, 20 mindən artıq azərbaycanlını qətl etməsinə, Qaradağlı, Xocalı, Malıbəyli, Meşəli, Ağdabanda qətliamlar törətməsinə göz yuman Fransa xarici işlər nazirinin indi Azərbaycanı "etnik təmizləmə" niyyətində olmaqda ittiham etməsi bu əxlaqsız siyasətin növbəti təzahürüdür".

Azərbaycanın maddi və qeyri-maddi mədəni irsini Ermənistan hökuməti bilavasitə hərəkətləri ilə və azərbaycanlılara qarşı etnik ayrı-seçkiliyi təşviq edən təbliğat aparmaqla dağıdıb və ya ona zərər vurub. Dağıntı Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü zamanı və ondan sonrakı dövrdə baş verib. Ermənistandakı Azərbaycan mədəni irsinin demək olar ki, hamısı hərbi əməliyyatların təsiri olmadan, əvvəlcədən planlaşdırılmış şəkildə məhv edilib.

Həqiqəti tərəqqipərvər ictimaiyyətə və beynəlxalq təşkilatlara çatdıran icmanın bəyanatında o da ciddi şəkildə vurğulanır ki, Fransa Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olunmasını istəmir və Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilərin reinteqrasiyasını əngəlləməyə çalışır. Fransa mənəviyyata, beynəlxalq hüquqa həqarət olan islamofobiya, Azərbaycanofobiya siyasətinə, məsələlərə dini təəssübkeşlik prizmasından yanaşmağa son qoymalıdır.

Qərbi Azərbaycan İcması tarixi soyqırımı, müstəmləkəçilik və ədalətsizliklərlə dolu Fransanın öz siyasətinin mənfur mahiyyətini pərdələmək üçün insan hüquqları kimi nəcib dəyərlərdən sui-istifadə etməsinə imkan verməyəcək və onun ikili standartlar maskasını yırtmaqda davam edəcək.

Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının sədr müavini, Əməkdar elm xadimi, professor Vaqif Şadlinski bildirir ki, Fransa hakimiyyəti Azərbaycanda yaşayan etnik ermənilər arasında separatçılıq meyillərini qızışdırmağa çalışır, habelə, Azərbaycan hökumətinin onların reinteqrasiyası istiqamətində səylərini sabotaj etməyə yönəlmiş addımlar atır. Ermənistanın bu hərəkətləri regionda sülh və barışıq əldə etmək perspektivlərini sarsıdır.

Hayastan tərəfindən böyük əzab-əziyyətlərə məruz qalmasına baxmayaraq, uzun müddətdir davam edən bu problemin sülh yolu ilə həllinə nail olmaq üçün icma barışıq, dialoq və anlaşmaya sarsılmaz sadiqlik nümayiş etdirərək Ermənistanın Baş naziri Nikol Paşinyana yazılı müraciət ünvanlayaraq onu xoş məramla dialoqa başlamağa və Ermənistanın azərbaycanlıları öz evlərindən qovaraq onları onilliklər boyu məruz qoyduğu ədalətsizliyi aradan qaldırmağa çağırdı.

Təəssüf ki, Ermənistan hökuməti icmanın dialoq çağırışına cavab verməyib. Bizim dialoq çağırışımız qarşısında susqunluq nümayiş etdirir, həm də dədə-baba torpaqlarımıza qayıtmaq hüququmuzu təkəbbürlə inkar edərək didərgin salınmış qərbi azərbaycanlıların iztirablarını daha da artırır.

Fransanın, eləcə də Ermənistan hökumətinin ölkəmizə qarşı beynəlxalq qanunların tələb və müddəalarına uyğun olmayan mövqeyi barədə icma tərəfindən BMT-nin Baş katibi Antonio Quterreşə də məktub ünvanlanıb. Məktubda Ermənistandan qovulmuş azərbaycanlıların geri qayıtmasını təmin etmək barədə icmanın dialoq təklifindən yayınması, qayıdış hüququnu inkar etməsi və Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilərin reinteqrasiyasına mane olan təxribatlar törətməsi barədə məlumat verilib və Ermənistan tərəfinin öz öhdəliyini yerinə yetirməsi üçün bu ölkəyə təsir etməyə, qayıdış prosesinə yardım etmək üçün Ermənistana BMT-nin xüsusi missiyasını göndərməyə çağırıb.

Ümid edirik ki, nəinki Birləşmiş Millətlər Təşkilatı, dünyanın bütün tərəqqipərvər insanları Qərbi Azərbaycan İcmasının haqq işinə kömək edəcək, habelə uzun müddət davam edən bu problemin həllində bizim öz dədə-baba torpaqlarımıza qayıtmaq təşəbbüsümüzün tərəfdarı olacaqlar.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***










**Azərbaycanın "Əkinçi" ilə başlanan mətbuat tarixində elə nəşrlər vardır ki, adları millətin və dövlətin tərəqqisi ilə birgə assosiasiya olunur. Bu nəşrlərdən biri də yaşı 105-i haqlamaqda olan Cümhuriyyət yadigarı "Azərbaycan" qəzetidir. Olduqca mürəkkəb tarixi şəraitdə Azərbaycanın istiqlal məfkurəsindən qaynaqlanaraq meydana çıxmış bu qəzet öz yaranışı və fəaliyyəti ilə bütün qaranlıqlara işıq saçıb ictimai həyatı canlandırdı. Ağır bir zamanda mövcudluq uğrunda ölüm-dirim savaşı aparan bir toplumun ictimai tribunasına çevrilmiş rəsmi dövlət qəzeti "Azərbaycan" müstəqilliyə can atan bir xalqı milli oyanışa səslədi, milli kimlik və istiqlal məsələsini önə çəkərək, bu xalqın gur səsi, onun qurduğu hökumətin rəsmi və mötəbər tribunası oldu. Qəzet XX əsrdə keşməkeşli tariximizin salnaməçisinə və dövrü şəffaf şəkildə göstərən güzgüyə çevrildi.**



# Tariximizin dürüst salnaməçisi

## "Azərbaycan" ilk saylarında nədən yazırdı?

Azərbaycan Milli Şurası 1918-ci il iyunun 16-da Tiflisdən Gəncəyə köçdü. Burada hakimiyyət məsələsi üstündə yaranmış siyasi böhran tezliklə aradan qaldırıldı. Milli Şuranın qanunvericilik vəzifələrini öz üzərinə götürən və F.Xoyskinin rəhbərlik etdiyi yeni hökumət kabinəsi tezliklə dövlət orqanlarını formalaşdırmağa başladı. İlk növbədə ölkədəki hərbi vəziyyətlə bağlı ümumi səfərbərlik elan olundu. İyunun 21-də Osmanlının qədim bayraqlarından biri Cümhuriyyətin müvəqqəti bayrağı kimi təsdiqləndi. İyunun 27-də türk dili dövlət dili elan edildi. Bundan başqa, mövcud vəziyyəti nəzərə alaraq ölkədən kənara ərzaq çıxarılması yasaqlandı. Həmçinin Mart qırğınlarını araşdırmaq üçün Fövqəladə Təhqiqat Komissiyası yaradıldı. Azərbaycan hökuməti bu tədbirlərlə yanaşı, geniş auditoriya üçün türk və rus dillərində "Azərbaycan" adlı qəzet buraxmaq haqqında qərar verdi və bunun üçün hazırlıq işlərinə başlanıldı. Nəhayət, Qafqaz İslam Ordusunun paytaxt Bakını erməni-bolşevik işğalından azad etdiyi gün - 1918-ci il sentyabrın 15-də Gəncə qubernatorunun mətbəəsində "Azərbaycan" qəzetinin ilk nömrəsi işıq üzü gördü. Qəzetin ana dilində buraxılmış səhifələrinin yuxarısında qəzetin adı ilə yanaşı, "Türk və islamçılığa aid məqalələrə "Azərbaycan"ın səhifələri açıqdır" qeydi də verilmişdir.

İlk dörd nömrəsi Gəncə şəhərində nəşr edildikdən sonra qəzet beşinci nömrədən öz çapını Bakıda davam etdirməyə başladı. Nəşrin ilk saylarının buraxılışında redaktor imzası əvəzinə kollektiv məsuliyyəti ifadə edən və indiki anlamda "Redaksiya heyəti" mənasını verən "Heyəti-idarə", "Heyəti-təhririyyə" yazılırdı. İki ilə yaxın fəaliyyət göstərmiş qəzetin Azərbaycan dilində 443, rus dilində isə 438 sayı çap olunub.

Qəzetin nəşri insanlara ölkədə nə baş verdiyindən xəbər tutmağa imkan verirdi. Qəzet səhifələrində hökumətin çoxşaxəli fəaliyyəti əks olunur, cəmiyyətdə gedən proseslər güzgü kimi göstərilir, xalqı düşündürən problemlər haqqında söhbət açılırdı. İstiqlal ideyalarının şüurlara yeridilməsi, beynəlxalq təhlükənin artdığı bir vaxtda ölkədə müstəqilliyin addım-addım möhkəmləndirilməsi göstərirdi ki, artıq Azərbaycan məfhumu "coğrafi bir mənadan ziyadə fikir və əməl şəklində təcəssüm edir". Buna görə də qəzet tədricən milli düşüncənin, azərbaycançı fikirlərin və əməllərin, istiqlal idealının tribunasına çevrilirdi. Bəs tezliklə Cümhuriyyətin tarixi fəaliyyətinin mətbu salnaməsinə çevrilmiş "Azərbaycan" qəzeti Gəncədə çıxmış ilk saylarında nədən yazırdı?

Təbii ki, əsas mövzu Bakının işğaldan azad edilməsi, bununla bağlı Qafqaz İslam ordusunun qəhrəmanlığı idi. Bu baxımdan qəzetin 15 sentyabr 1918-ci il tarixli ilk nömrəsi daha xarakterikdir. Həmin nömrədə "Müharibə meydanında" başlığı altında verilmiş hərbi xronika Bakı uğrunda ölüm-dirim savaşının dolğun mənzərəsini yaradır. Cəbhədə qarşılıqlı artilleriya atəşləri, düşmən təyyarəsinin top atəşi ilə zərərsizləşdirilməsi, Ağdamda bir ingilis təyyarəsinin pilotu ilə birlikdə ələ keçirilməsi, Gürcüstan sərhədi yaxınlığında erməni quldur dəstəsinin tərk-silah olunması, Qarabağda erməni silahlı dəstələrinin təqib edilməsi və s. məlumatlar dövrün mürəkkəb hərbi vəziyyətini dolğun şəkildə göstərir. Həmin nömrədə Bakının erməni-bolşevik əsarətindən xilas edilməsi, bununla bağlı Nuru paşanın "Bakı azad edildi" teleqramı, hökumət başçısı F.Xoyskinin Nuru paşa və Xəlil paşaya ünvanladığı müraciətlər, həmçinin İstanbul və Tiflisdən göndərilmiş təbrik teleqramları da öz əksini tapmışdır.

Ölkədəki hərbi-siyasi vəziyyət, hərbi çağırış üzrə qurumun fəaliyyəti, Daxiliyyə İşləri Nazirliyinin məlumatları, dövlət quruculuğu məsələləri, o cümlədən hərbi məktəb və kursların təşkili haqda qəzetdə çap olunmuş xəbərlər də maraq doğurur. İlk nömrədən başlayaraq hökumətin fəaliyyətindəki yeniliklərin xəbər lentində verilməsi həmin dövrdə gedən prosesləri bütün təfərrüatı ilə öyrənmək üçün "Azərbaycan" qəzetini mötəbər mənbəyə çevirir. Çünki mövzusundan asılı olmayaraq qəzet haqqında söz açılan məsələlərə müstəqil dövlətin formalaşdırılması və möhkəmləndirilməsi mövqeyindən yanaşır, qurulmaqda olan milli dövlətin və yeni cəmiyyətin ideyalarını və hökumətin əməli addımlarını xalqa çatdırırdı.

Qəzet günün aktual mövzularını sentyabrın 19-da çap olunmuş 2-ci nömrəsində də davam etdirir. Xüsusən Bakının alınması mövzusunu detalları ilə yazaraq, bu günümüz üçün də maraqlı olan faktlardan bəhs edir. Məsələn, qəzetin aşağıdakı məlumatları tarixi baxımdan xeyli maraqlıdır:

- "Redaksiyamızın aldığı xəbərlərə görə, Bakıda 8000 nəfərə qədər ingilis əsir götürülmüşdür. "Ərdahan" kanoner qayığı istisna olmaqla, bütün ticari və hərbi donanma tutulmuşdur".

- "Şəhər ermənilərinin 6 nəfərlik nümayəndə heyəti, arximandrit Levonun rəhbərliyi ilə 15 sentyabrda Baş Nazir F.Xoyskini və Nuri paşanın Gəncə şəhərindəki müavinini Bakının alınması münasibəti ilə təbrik etmişdir. Ruhanilər adından təbrikləri arximandrit Levon, şəhər xalqı adından isə İ.N.Xocayev və Q.M.Şahnazarov çatdırmışdır. Nümayəndə heyəti Nuri paşanı təbrik etmək üçün cəbhəyə və şəhərin erməni əhalisini sakitləşdirmək üçün Bakıya getmək icazəsini Türk Komandanlığından istəmişdir. Nuri paşanın müavini bunun üçün cəbhədən razılıq almağa çalışacağını söyləmişdir.

- "Bakıda ciddi ərzaq qəhətliyi hiss olunduğundan, Qafqaz İslam Ordusu Komandanlığı Bakıya ərzaq daşıyan nəqliyyat vasitələrinə heç bir halda maneçilik törədilməməsini əmr etmişdir".

- "Şərq cəbhəsi komandanı Xəlil paşa dünən gecə Bakıdan qayıtmış və Gəncədə dayanmayaraq Tiflisə keçmişdir".

- "16 sentyabrda Azərbaycan Hökuməti tam tərkibdə xüsusi qatarla Bakıya yola düşmüşdür. Hökumət qurumları hələlik Gəncədə fəaliyyət göstərir və nazirlər bir neçə gündən sonra Gəncəyə qayıdacaqlar. Əlverişli şərait yaranan kimi bütün mərkəzi qurumlar Bakıya köçürüləcək. Bakı şəhərinin alınmasıyla əlaqədar olaraq, 15 sentyabrda şəhərdə nümayişlər keçirilmişdir. Nümayişçilər hökumətin yerləşdiyi oğlanlar gimnaziyasının binasına yaxınlaşmışlar. Baş Nazir nümayişçilərin qarşısına çıxaraq təbrik nitqi söyləmişdir".

Qəzet ilk saylarında ölkənin yerli həyatına diqqət yetirərək öz oxucularını baş verən yeniliklərdən xəbərdar edirdi. Həmin xəbərləri oxuduqca göz önündə dövrün dramatik hadisələri tam dolğunluğu ilə canlanır. Həmin xəbər xronikasından məlum olur ki, Qafqaz İslam Ordusu komandanı Nuru paşanın əmri ilə polkovnik Cavad bəy Şıxlinski Gəncə şəhərinin komendantı, minbaşı Süleyman əfəndi isə onun köməkçisi təyin edilmişdir. Gəncə şəhər komendantının əmri ilə 16 sentyabrda şəhərdəki zabitlərin, hərbi məmurların və aşağı rütbəlilərin sənədləri yoxlanmışdır. Gəncə quberniyası həbsxanasının rəisi K.Fəttahov və Gəncə şəhəri 2-ci qisminin pristavı A.Mirzoyants vəzifələrindən azad edilmişlər. Bildirilir ki, Gəncə şəhərində ərzaq idarələri təftiş edilir. Bununla əlaqədar olaraq, idarənin bəzi işçiləri nəzdində axtarış həyata keçiriləcəkdir. Başqa bir məlumatda deyilir ki, məktəblərin milliləşdirilməsi ilə əlaqədar olaraq, 9 sentyabrdan etibarən Gəncə Müəllimlər Seminariyasının kurslarında dərslər türk dilində keçiriləcəkdir.

Qəzetin çap etdiyi məlumata görə, Gəncə şəhərində divarlara Nuru paşanın erməni xalqına müraciətini əks etdirən vərəqələr yapışdırılmışdır. Qafqaz İslam Ordusu komandanı bu müraciətində Andranikin və "Daşnaksutyun" partiyasının digər rəhbərlərinin bandalarının müsəlmanlara qarşı düşmən hərəkətlərini qeyd etmiş, erməniləri provokasiyalara qapılmaqdan sapındırmış və müsəlmanlarla sülh şəraitində yaşamağa səsləmişdir.

Bu gün olduğu kimi, 1918-ci ilin sentyabr-oktyabr günlərində və ümuməm Cümhuriyyətin mövcud olduğu iki ildə "erməni təxribatları" qəzetin əsas mövzularından biri olmuşdur. Həmin illərdə xarici qüvvələrə arxalanan erməni qüvvələri Azərbaycanın müstəqilliyi üçün əsas təhlükə mənbələrindən biri olmuşdur. Bu baxımdam "Azərbaycan"da çap olunmuş (19 sentyabr 1918) "Ağlını başına yığmaq vaxtıdır" adlı redaksiya yazısı çox ibrətamizdir. Yazıda qeyd olunur ki, Nuru paşanın Azərbaycan ermənilərinə müraciətində Qafqaz xalqlarının sülh şəraitində birgə yaşayışı tarixində ən mənfi rolu oynamış və təəssüf ki, oynamaqda davam edən o acı problemə toxunulmuşdur. Yazıda deyilir: "Qonşumuz erməni xalqı təəssüf ki, fanatik "Daşnaksütyun" partiyasının simasında öz rəhbərləri tərəfindən böyük nisbətdə kor edilmişdir. Öz xalqının tarixində ölümcül rol oynamış bu partiya hal-hazırda elə bir vəziyyətlə üzləşmişdir ki, mütləq dönüb geriyə baxmalı, bütün tarixi səhvlərini etiraf etməli və öz siyasətini dəyişdirmək istiqamətində radikal addımlar atmalıdır. Bu yol - Osmanlı İmperiyasını yıxmağa çalışan, özlərinin Şərq siyasətini erməni xalqının qanı bahasına həyata keçirən və əsrlərdən bəri erməni xalqını gerçəkləşməsi imkansız olan ehtiraslarla bəsləyən Antanta dövlətlərinin intriqalarından birdəfəlik əl çəkmək yoludur. Erməni xalqının qonşularıyla sülh şəraitində yaşaması ancaq o zaman mümkün ola bilər. Zaqafqaziyanın hər yerində cərəyan edən qanlı hadisələrə baxmayaraq, təəssüf ki, erməni xalqının rəhbərlərinin qəti surətdə ağıllandıqlarını hələlik müşahidə etmirik". Yazıda göstərilir ki, fərarilərdən ibarət silahlı erməni bandaları Qazax uyezdinin sərhədində və Türk Ordusunun hərəkət yolu üzərində dinc müsəlman xalqa zülm etməkdə və keçib gedən türk eşelonlarıyla partizan müharibəsi aparmaqda davam edir. Gəncə quberniyasının dağlıq hissəsində axır vaxtlarda köçəri müsəlmanlara hücum hallarına tez-tez rastlanmaqdadır. Qarabağ ermənilərinin bir hissəsi, ingilis qızılıyla dəstəklənən Andranikin ölümcül avantüralarına qapılmaqda və Azərbaycan dövlətinin bütövlüyünə qarşı təxribat törətməkdədir.

Ümumiyyətlə, "Azərbaycan" qəzeti təkcə ilk saylarında deyil, 1918-1920-ci illər ərzində çap olunan bütün nömrələrində ən aktual mövzuları diqqət mərkəzində saxlayıb. Ölkə parlamentinin - Məclisi-Məbusanın iclaslarını, milli hökumətin fəaliyyətini, ölkənin siyasi, iqtisadi və mədəni həyatında baş verən hadisələri ən xırdalıqlarına qədər işıqlandırıb. Azərbaycanın xarici siyasətinə, xüsusən şimaldan gələn təhlükələrə böyük diqqət yetirib. Müstəqil dövlətin ictimai-siyasi, iqtisadi-təsərrüfat həyatını, mədəni quruculuq proseslərini müxtəlif janrlı yazılarda geniş əks etdirib. Xalqa müstəqilliyin, istiqlalın, dövlətin, demokratiya və onunla bağlı dəyərlərin nə demək olduğunu anladıb. Millətə ozamankı qarmaqarışıq dünyanın təhlükəli axınında var ola bilmək bacarığını aşılayıb.

Qəzet təkcə Bakıdan deyil, Cümhuriyyətin hər yerindən və həm də hər türlü şeylərdən xəbərlər dərc edib: yaxın-uzaq ölkələrdəki siyasi vəziyyətdən, gələn qonaqların şərəfinə verilən ziyafətlərdən, beynəlxalq münasibətlərdən, yeni cəmiyyət quruculuğundan, ölkəni bürüyən erməni bəlasından, bazarlarda hökm sürən bahalaşmadan, bələdiyyələrin fəaliyyətindən, dəllalların özbaşınalığından, su qıtlığından, ərzaq çatışmazlığından, mədəniyyət yeniliklərindən, teatr tamaşalarından, camaatın dərdlərindən yazıb. Elə bütün bunlara görə də ümummilli qəzet statusunu qazanıb. Məhz bu cəhətinə görə "Azərbaycan" qəzeti olduqca mötəbər, qiymətli arxiv mənbəyi, dəyərinə görə ölçüyəgəlməz dərəcədə zəngin bir xəzinədir. Hazırda bu qəzetin səhifələrini vərəqləmək kifayətdir ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından süqutuna qədər keçdiyi şərəfli yolu göz önündə canladırmaq mümkün olsun.

## Üzeyir bəy Hacıbəyli: "Qəzetəmiz Vətən istiqlalı üçün çalışır"

"Azərbaycan" qəzetinə müxtəlif vaxtlarda Üzeyir bəy Hacıbəyli, Ceyhun bəy Hacıbəyli, Xəlil İbrahim, rusca buraxılışlara isə Səfi bəy Rüstəmbəyli redaktorluq edib. Mətbuat sahəsində daha böyük təcrübəyə malik olan Ü.Hacıbəylinin redaktorluğu daha uzun çəkib və o, "Azərbaycan"ın ideya-siyasi səviyyəsinin yüksəldilməsinə, qəzetçilik baxımından ciddi uğurlar qazanmasına daha çox töhfələr verib. Professor Şirməmməd Hüseynov kimi tədqiqatçıların bu fikri ilə razılaşmaq lazım gəlir ki, "Azərbaycan" adlı qəzetin nəşrə başlamasının reallaşması milli mətbuatımızın tarixində təkcə ərazi olaraq ölkənin deyil, milli dövlətin adını ifadə edən mətbuat orqanının fəaliyyətə başlaması ilə əlamətdardır. Bu mənada "Azərbaycan" qəzetinin rəsmi dövlət qəzeti kimi meydana çıxması Azərbaycan tarixinin mühüm hadisəsi idi, hər şeydən əvvəl ona görə ki, bu nəşr hansısa firqə maraqlarını deyil, ümummilli düşüncəni əhatə edirdi. Bununla bağlı qəzetin baş redaktoru Ü.Hacıbəyli yazırdı ki, "Azərbaycan" qəzetinin guya "Müsavat" partiyasına məxsus firqəvi bir qəzet olması barədə danışılanlar doğru deyildir. Bu fəqərə barəsində bunu bəyan etməyi lazım bilirəm ki, "qəzetimiz partiya qəzeti deyildir. "Azərbaycan" qəzetinin məsləki Vətən istiqlalı yolunda çalışmaqdan ibarətdir".

Cümhuriyyət qurucularından biri olan Ü.Hacıbəyli təkcə çoxsaylı kollektivi olan redaksiyanı idarə etmirdi, təkcə yaradıcılıq işlərini tənzimləmirdi, həm də "Azərbaycan"ın səhifələrində bir-birindən maraqlı reportajlar və məqalələr çap etdirirdi. Bu mənada onun parlamentin açılışından yazdığı reportaj (9 dekabr 2018) parlaq jurnalistika nümunəsidir. Nə yaxşı ki, son illərdə Ü.Hacıbəylinin "Azərbaycan" qəzetində indiyədək çap olunmamış, bu günümüzlə səsləşən, AXC dövrünün bütün uğurlarını və qarşılaşdığı çətinlikləri özündə əks etdirən məqalələri ayrıca kitab halında nəşr olunmuşdur.

Üzeyir bəy "Azərbaycan"dakı publisistik yazılarını "Hacıbəyli Üzeyir", "Üzeyir", "Ü.Hacıbəyli", "Ü.Əbdül" və başqa imzalarla dərc etdirmişdir. Onun "Mühüm məsələlər" (1 dekabr 1918), "Partiyalarımıza" (3 dekabr 1918), "Azərbaycan Parlamanı" (5 dekabr 1918), "Tarixi günümüz" (7 dekabr 1918), "Təəssürat" (9, 13, 16 dekabr 1918), "Vəzifəmiz nədir" (24 dekabr 1918), "Bir iltimas münasibətilə" ( 3 yanvar 1919), "Ehtiyat lazımdır" (15 yanvar 1919) və s. bu qəbildən olan publisistik yazıları təkcə bir müəllifin deyil, ümumən böyük istiqlal sınağından keçməkdə olan bir xalqın istək və düşüncələrinin ifadəsidir.

Bu yazılarda biz onu vətənpərvər, istiqlal aşiqi, azərbaycançılıq ideologiyası ilə yoğrulmuş bir publisist kimi görürük. İllərlə arzuladığı bir amala çatan ədibin 1918-ci il dekabrın 7-də Azərbaycan parlamentinin açılışı münasibətilə yazdığı "Təəssürat" silsilə məqalələrini oxuyan hər kəs bunun şahidi ola bilər: "Parlamanımız açıldı, gördük. Fətəli xan doğru dedi ki, yatsa idik də yuxumuza girməzdi...

Parlaman imarətinin içində zinyət cümləsindən calibi-diqqət olan şey qiymətli xalılar degil idi, bəlkə fiatı ucuz, lakin mahiyyəni-milliyyə və siyasiyyəsi dedikcə baha olan üç rəngli milli bayraqlarımız idi.

Məhəmməd Əmin nitqi-iftitahisində bu üç rəngin: "Türkləşmək, islamlaşmaq və müasirləşmək amalı əlamətindən ibarət olduğuna işarə ilə bu bayraq endirilməz!" - dedikdə bütün məclis ayağa qalxıb əl çala-çala bayraqları salamlarkən təəssürati-fövqəladədən başımın tükləri biz-biz durdu... Padşahlı məmləkətlərdə məclisi-məbusanı padşah açar, amma Azərbaycan Cümhuriyyətinin Məclisi-Məbusanını bir nəfər vətən övladı açdı" ("Azərbaycan", 9 dekabr 1918).

Məclisi-Məbusanının fəaliyyətə başlamasından iki gün əvvəl Ü.Hacıbəyli "Azərbaycan parlamanı" (5 dekabr 1918) adlı məqaləsində qeyri-müsəlman cəmiyyətlərin və qərəzli xarici-daxili düşmənlərin yeni qurulmuş hökumət əleyhinə apardıqları təxribata qarşı çıxaraq onların Azərbaycan türklərinin azad və firavan yaşamalarına qarşı olan məkrli niyyətlərini açıb göstərirdi. Dünənə qədər əsir və qul olan bir milləti bu gün azad və sərbəst görmək istəməyənlərə, lal edilib hüquqları alınmış bir millətin açılıb söz söyləməsini, bir əsrdən artıq məhkum qalan bir millətin bu gün hakim degil, yalnız müstəqil və azad olmasını qəbul etməyənlərə milli mücahid qətiyyətilə cavab verirdi: "...bunu dürüst bilməlidirlər ki, biz Azərbaycan türkləri zor ilə də olsa, güc ilə də əsarət zəncirini təkrar boynumuza salmaq istəməyəcəyik...milli parlamanımızı, milli şuramızı açaq...kəmali-ciddiyyət ilə işə başlayaq" ("Azərbaycan", 5 dekabr 1918).

Bütün varlığı ilə Azərbaycan istiqlalını təbliğ edən böyük publisist bu istiqlalı daxili və xarici təhlükələrdən göz bəbəyi kimi qorumağı vacib hesab edirdi. Ona görə də məqalələrində Azərbaycan istiqlalına qarşı hazırlanan sui-qəsdlərə və təxribatlara qarşı xalqı ayıq olmağa çağırırdı. Bu baxımdan onun "Dördgöz olmalıyıq" ("Azərbaycan", 25 aprel 1919) məqaləsinin xüsusi önəmi vardır. Üzeyir bəy həmin məqaləsində yazırdı ki, içimizdə olan düşmənlərin təhlükəsi xaricdə görünən düşmənlərinkindən daha zərərlidir. "Xaricdə duranı görürük, lakin içimizdəkiləri hər dəfə görmək mümkün olmuyor. Bunlar əlaltı işlər görürlər və bizə qarşı qəflətən hücumlar və şəbxunlar hazırlıyorlar ...keşmiş işlərdə ləkəli olanları və söz və əməllərilə şübhəli görünənləri məmləkətimiz daxilinə buraxmamalıdır, səhvən buraxılmışlar varsa, ərd və ixrac etməlidir...

Xülasə, istiqlalımızı müdafiə və mühafizə yolunda dördgöz olub da xarici düşmənlərimizi dəf üçün hər bir tədbirə bilatərəddüd təvəssül etməlidir".

"Bir yaş" adlanan məqaləsində isə Ü.Hacıbəyli qurulması uğrunda çaylarca qanlar axıdılan Azərbaycan türk dövlətinin bir yaşının tamam olması və ikinci yaşa qədəm qoyması gününü qürurla, istiqlal sevgisi ilə qələmə alır. O qeyd edir ki, bu gün istiqlalını elan etmiş olduğumuz Növzad dövlətmizin təvəllüdü, ana bətnindən doğulması çətinliklə əmələ gəldi. Ana vətən balasını doğarkən özünü qurban edəcək dərəcəsinə gəlmişdi... Azərbaycan torpağı bir xarabazara, bir viranəyə dönəcək idi. Onun, o madəri-mehribanın nazik sinəsi, zərif bədəni üzərində gəzən qaba ayaqlar, həm anası bətnindən balasını çəkmələrinin təpikləri altında tapdalamaq, əzmək və xurd-xaş etməklə anasını da, balasını da öldürmək istəyirdilər. Amma buna nail olmadılar. Üzeyir bəy bu məğlubedilməzliyin səbəbini milli ruhla izah edərək yazır: "Bu Ana Vətənin vücudunda gizlənmiş olan eşq o dərəcədə qüvvətə və güclü ruha qadir idi ki, düşmən zülmü qarşısında tab və taqətdən düşməyib yaşamaq və yaşatmaq iqtidarını itirmədi: "Ana Vətən doğdu... Və bu gün doğduğu övladının səneyi-dövriyyəsi münasibəti ilə bayram qurub və övladını mavi, al və yaşıl rəngli parçalarla bəzəyib nümayişkaranə bir surətdə bəyani-iftixar etməkdədir" ("Azərbaycan" 28 may 1919).

Tədqiqatçı-alim Aygün Əzimovanın qeyd etdiyi kimi, bu məqamda bir Vətən övladının Azərbaycan istiqlalına və bəşəri eşqə köklənmiş duyğularının ifadəsini, dahi publisistin azərbaycançılıqla yoğrulmuş qələminin qüdrətini görməmək mümkün deyil.

Bir yaşlı dövlətinin yaxın gələcəkdə türklüyün ümidgahı, islamlığın pənahı, mədəniyyət aləminin möhtərəm bir üzvü olacağına əmin olan Üzeyir bəy inamıyla uzaqgörən bir publisist kimi xalqını bu yolda dəyanətli olmağa səsləyir: "...düşmən dəfində təcrübəsiz olduğuna, türklük və islamlığına məxsus fəzilətlərinə baxıb da əmin olunuz ki, bu hökumət və bu millət öz istiqlalını, öz azadlığını və öz təbəəsini şanlı bir surətdə hər bir düşməndən qorumağa qadirdir... Ölmək var ki, dönmək yoxdur".

Bu yazıda Üzeyir bəy ingilislərin Bakıya ilk gəlişi ilə onlarda yaranan yanlış təəssüratla sonrakı münasibətlərindəki əsaslı fərqi göstərir. Eyni zamanda Qafqaz müsəlmanları haqqında bilərəkdən yayılan iftira və böhtanlara da münasibət bildirir: "İngilislər bizim içərimizə girərkən özlərini vəhşi heyvan qarşısına çıxmış bir ovçu vəziyyətində saxlamaq ehtiyatına heç bir lüzum olmadığını bir-iki gündən sonra kəmali-təəccüb ilə anladılar...-bilməməzlik və ya düşmənlər təbliği nəticəsi olaraq xəta və yalnış olduğunu dərk etdilər".

Xalqımızın mənəvi sütunlarından olan Ü.Hacıbəylinin azad Azərbaycan arzusu, istiqlal təşnəsi, onun öz vətəninə, millətinə və üçrəngli bayrağına sonsuz sevgisi "Bayrağımız sarsılmaz" (8 may 1919) məqaləsində daha parlaq şəkildə əks olunmuşdur. Adından da göründüyü kimi, yazı zülm və əsarətin yoğun zəncirlərini parça-parça etmiş bir millətin, gənc Azərbaycan dövlətinin haqq və azadlıq rəmzini özündə daşıyan üçrəngli bayrağımıza həsr olunmuşdur. Üzeyir bəy düşmənlərimizin xain gözlərini qamaşdıran müqəddəs bayrağımızın üç rəngini göylərə qaldıran ağacın iti bir ox olub alçaq düşmənlərimizin qara qəlblərini deşməsilə namərd belini sındırıb alçaq başları əydirmək üzrə olduğunu mübariz bir ruhla qeyd edir: "O ağac sınmaz, o nur sönməz, o əl dönməz!! Çünki bayrağımız həqq bayrağıdır. O, bir millətin hüquqi-bəşəriyyəsinin harisidir. Bir millət ki, onun da insan kimi yaşamaqa həqqi vardır! Bir millət ki, daha əsir olmaq istəmir!"

## "Azərbaycan"ın səhifələrində Qarabağ mövzusu

İndi olduğu kimi, yüz il əvvəl də ermənilərin Qarabağ fitnəsi Azərbaycanın müstəqilliyi üçün ciddi problem olmuşdur. "Azərbaycan" qəzeti bu mövzunu daim diqqət mərkəzində saxlamışdır. Qəzet səhifələrində Zəngəzur, Naxçıvan və Qarabağda dinc sakinlərə qarşı törədilən zorakılıqlar, soyqırımı davranışları, Qərbi Azərbaycan torpaqlarında yaşayan azərbaycanlıların acı taleyi, onların kütləvi surətdə vəhşiliyə məruz qalması, yaşayış məntəqəsinin məhv edilməsi, insanların öz ata-baba torpaqlarından qovulması haqqında çoxlu sayda yazılar dərc edilmişdir.

*(Ardı var)*

***Qulu MƏHƏRRƏMLİ,***
***BDU-nun Multimedia və elektron kommunikasiya kafedrasının müdiri, filologiya elmləri doktoru, professor***

«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 29 dekabr (Bazar günü) tarixli 73-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Yekşənbə, 25 rəbiüləvvəl sənə 1337.
29 kanuni-əvvəl sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## ELAN

Bu gün kanuni-əvvəlin (dekabr) 29-unda 1918-ci sənəsi saat 12-də Azərbaycan Məclisi-Məbusan iclası olacağını iclasın heyəti-rəyasəsi [rəyasət heyəti] elan edir.

## İNTİBAHNAMƏ [BİLDİRİŞ]

Fətəli xan Xoyski sədarəti [sədrliyi] altında müştərək hökumət təşkil edildiyindən, bununla ümuma elan edirəm ki, Müttəfiqlər komandanlığı, Azərbaycan dairəsində yeganə məhəlli [yerli] qanuni hökumət olmaq üzrə bu hökumətə tamamilə müzahirət [yardım] göstərəcəkdir.

*Bakı şəhərində*
*Müttəfiqlər qoşunları*
*komandanı general-mayor Tomson*
*Bakı, 28 dekabr 1918*

## QİSMİ-RƏSMİ [RƏSMİ HİSSƏ]

### Məclisi-Məbusan Rəisi həzrətlərinin əmrnamələri

**Nömrə 19**
Gəncə şəhəri əhli Möhsün Məşhədi Qafar oğlu, həmin 1334 sənəsi kanuni-əvvəlin [dekabrın] 18-dən etibarən Məclisi-Məbusan İdarəsi xidmətkarlığına (kuryer) təyin edilir.

**Nömrə 20**
Azərbaycan Hökuməti-Cümhuriyyəti Səhiyyə Nəzarəti katibi Əmir Ağazadə, 1334 sənə kanuni-əvvəlin 21-dən etibarən Azərbaycan Məclisi-Məbusa[nı]nın katiblik xidmətinə təyin edilir.

**Nömrə 21**
Bakı əhli Ağaverdi Qasımov, həmin 1334 sənə kanuni-əvvəlin 15-indən etibarən Azərbaycan [Məclisi]-Məbusan mülki nəzarətçiliyinə təyin edilir.

## KEÇƏN ZABASTOVKA [TƏTİL] HAQQINDA

İki gün əvvəl idi ki, şəhərimizin güzəran və məişəti adi cərəyanından düşürülüb, qeyri-adi bir şəklə girdi. Qəzetələr çıxarılmadı, elektrik işığı sönüb küçələr axşamları zülmətə döndü, dəmiryol hərəkatı dayandırıldı, telefon müxabiratı [əlaqəsi] kəsildi, zavod və mədənlərdə işlər durduruldu. Əlhasil, bu bir neçə günü hər kəsin qəlb və ruhunu sıxacaq və keçmiş mənhus günlərin mənhus xatiratını [uğursuz xatirələrini] yada salacaq sıxıntılı şərait içində keçirməyə məcbur olduq.

Nə olmuşdu?

Fəhlə tətil komitəsi tərəfindən siyasi zabastovka elan edilmişdi.

Nə səbəbə?

Ona görə ki, "Demokratik Şura" başında olan "eser"lərdən bir neçə nəfər başçıları, ingilis komandanı rəisi general Tomsonun hökmü ilə tutulub həbs edilmişdilər.

Bunların tutulmalarının səbəbi indiyə qədər məlum olmadı. Bu xüsusda cürbəcür sözlər və şayiələr buraxılırdı. Bir paraları deyirdilər ki, bu tutulanlar keçmişdə Bakıda hökumət etdikləri vaxt dövlətin bir çox pullarını yeyibdirlər. Bir paraları isə böylə bəyanatda bulunurdular ki, bu adamlar əl altınca işlər görüb Azərbaycan Hökuməti və ingilis komandasına qarşı üsyan və inqilab törətmək istəyirmişlər. Lakin bunlar hamısı şayiat cümləsindən olduğuna görə, hansının doğru və hansının yalan olduğunu bilmək mümkün olmadı.

Srağagünkü Parlaman iclasında bizim sosialistlərimiz tərəfindən bu həbslər haqqında Hökumətimizə bir sual təqriri [təklifi; tələbi] verilmişdi. Həbslərin general Tomson tərəfindən nə cəhətə görə icra edildiyi soruşulacaqdı. Fəqət vaxt olmadığına görə bu təqrir, mövqeyi-müzakirəyə qoyulmadı. Hökumət də, təbii, cavab vermədi. Lakin vaxt müsaidə versəydi də Hökumət tərəfindən öylə bir cavab ala bilməyəcəkdik ki, marağımızın atəşini söndürsün. Çünki Parlaman dairələrində danışılan mötəbər adamların sözlərindən aşkar idi ki, bu həbslər məhz ingilis komandasının idarəsi ilə əmələ gəlib, Azərbaycan Hökuməti bu işdə zimədxəl deyildir [bu işə dəxli yoxdur]. Binaileyh [ona görə], səbəbini bilməyir və bilsə də söyləməyəcəkdir.

Deməli, həbsləri zabastovkaya səbəb olan bu adamların həbs edilmələri haqqında bir rəy və qərar hasil etmək işi, maraq göstərib əhəmiyyət verənlərin öz mülahizat [mülahizələrinə] və öz fərasətinə bağlıdır.

Zabastovka elan edən tətil komitəsi öz tərəfindən buraxdığı nəşriyyatında fəhlə qisminin düşmənləri kim olduğunu göstərərkən, əzcümlə [o cümlədən] Azərbaycan Hökumətini də həman düşmənlərdən biri olmaq üzrə nişan vermişdi. Bu əhvalat həmin zabastovkada xarici fəhlələrlə həmrahlıq [eyni yolda olmaq, yol yoldaşı olmaq] və yoldaşlıq üzündən iştiraka məcbur olan ümum müsəlman fəhlə və əmələlərini [işçilərini] son dərəcədə mütəğəyyir edib [əsəbiləşdirib], öz hərəkətləri ilə öz hökumətlərinə qarşı durmuş olduqlarını anlayanlar bu işdən ictinab etdilər [çəkindilər] və "bu zabastovka işi Azərbaycan Hökumətinə qarşı bir əməl isə biz bu işdə heç bir vəchlə iştirak etmərik" deyə qərar və bəyanatda bulundular.

Yəqin bu səbəbdənmiş ki, zabastovka elan edən komitə öz səhvü xətayi-fahişini [nalayiq səhv və xətasını] düzəltmək üçün keçən günkü nəşriyyatlarında digər bir əhval buraxıb, zabastovkanın Qafqaz millətləri azadlığına və istiqlalına qarşı olmadığını elan edib, böylə xəbərləri yalandan buraxanları "erməni və müsəlman millətçi mütəəssibləri" [ifrat millətçiləri] deyə adlandırır.

Bizim nəzərimizə gəlincə, əvvəla burasını qeyd etməliyik ki, zabastovkanı mövcib olan [tətilə səbəb olan] bu həbslərin səbəbi nə olduğunu bilmədiyimizə təəssüflər edirik. Çünki, bu səbəblər aşkar edilsəydi, o halda zabastovkanın da Azərbaycan Hökumətinin və Azərbaycan dövlətinin lehinə və ya əleyhinə olduğu meydana çıxardı və çıxdığı surətdə, Azərbaycan fəhlə və əmələlərinin də təklif [vəziyyəti] və vəzifəsi məlum olardı.

Qaldı zabastovkanın özü; şübhəsiz siyasi, ictimai və iqtisadi hürriyətlər elan edilmiş olan cümhuriyyətimizdə istər siyasi, istər iqtisadi tətillərə heç bir kəsin deyəcəyi ola bilməz. Bu xüsusda yalnız bir şey var ki, həman o tətil işi dövlətin istiqlalını və rüknünü [özülünü] sarsıdacaq qəsdlə mövqeyi-icraya qoyulmuş olmasın və bir də tətil icra edilərkən müəyyən bir qayda üzrə olub, nizam və asayişə riayət olsun, ta ki əhalinin içinə şuluxluq və vahimə düşməsin.

Bundan əlavə, bir dövlətdə tətil və zabastovka icra edən adamlar həman o dövlətin təbəə[si] və vətən övladı olmaları birinci şərtdir. Məsələn, əgər Firəngistan [Fransa] fəhlələri, İngiltərənin bir şəhərinə gedib də zabastovka elan və icra etsələr, nəticədə İngiltərə torpağından tərd və təbid ediləcəkləri [qovulacaqları və sürgün ediləcəkləri] və firənglərə uyan ingilislərin də təhti-mühakiməyə alınacaqları [məhkəməyə cəlb ediləcəkləri] təbiidir.

Əlhal [indi], şəhərimizdəki zabastovkanın kimlər tərəfindən icra edildiyini nəzərə alıb da görürük ki, bu tətili elan və icra edənlər, Azərbaycan dövlətinin istiqlalını tanımayanlar və tanımamaqlarından indiyə qədər qatı bir inad göstərib azadlığımıza qarşı düşmənanə bir vəziyyətdə bulunanlardır.

Deməli, bu adamlar şəhərimizdə öylə mətin, cismani olmasa da, mənəvi bir qüvvətə malikdirlər ki, şəhərimizin həyatının cərəyanını istədikləri vaxt durdurmağa qadirdirlər. Necə ki, durdurdular. Elektrik istasyonunda, telefonlarda, dəmiryolunda, zavod və fabriklərdə işləyən fəhlə və əmələlərimiz hamısı bu adamların əmrinə müti olub onlarla və təbii onların Azərbaycan istiqlalına qarşı olan siyasi fikir və amalları ilə şərik və həmdil olduqlarını nümayişkaranə bir surətdə meydana qoydular.

Doğrudur fərz edəlim ki, hələ bu "birinci" zabastovkanın icrasına "günahsızların günahsız" yerə həbs edilmələri səbəb oldu. Kim bizi mütmə-inülqəlb [əmin; ürəkdən inanmış] edə bilər ki, "ikinci" zabastovkanın icrası, istiqlalımızın ləğv və məhvini tələb edən "səbəblər" üzərinə olmayacaqdır?

İstiqlalımızı tanımaq istəməyənlər, özlərinin böylə bir müvəffəqiyyətlərini görüb də mənəvi bir qüvvəyə malik olduqlarını hiss etdikdən sonra bu qüvvəni siyasi amal və arzularının hüsulu [əldə edilməsi] yolunda da sərf etmək istəməzlərmi? İstəməyəcəklərindən kim bizi əmin edə bilər və kim buna inanar?

İştə, bu zabastovka məsələsinin bizi dərin əndişələrə salan cəhəti burasıdır. Bu əndişələrə qarşı qəlbimizə təsəlli verən yalnız bu oldu ki, Azərbaycan müsəlman fəhlə və əmələləri bu zabastovkanın əsl səbəbini bilmədiklərindən, bu işdə mütərəddid [tərəddüddə] qalıb, zabastovka əhyanən [birdən; bəzən] bizim istiqlalımıza qarşı icra edilərsə, bunda heç bir vəchlə iştirak etmək istəmədiklərini görüb son dərəcə xoşnud olduq. Lakin bu tərəddüdü və bu əzmkarlığı biz yalnız mədən fəhlələrimizdən və mətbəə əmələlərimiz tərəfindən gördük. Dəmiryol, elektrik stasyonu və sairə bu kimi mühüm müəssisələrimizdə xidmət edənlər tərəfindən heç bir milli cünbüş [hərəkət] müşahidə edilmədi və edilmədiyinə də təəccüb ediləcək deyildir. Çünki həman müəssisələrdə işləyənlərin demək olar ki, cümləsi [hamısı] xaricilərdən ibarət olub, Azərbaycan dövlətlərinə qarşı olan "sədaqətləri" də məvacib almaqdan başqa özgə bir mövqedə ibraz edilməyir [görünmür].

Böylə olan surətdə, gələcək hadisələr əndişəsindən özümüzü mütməin [xatircəm] etmək üçün təklifimizin [işimizin, vəzifəmizin] bundan sonra nədən ibarət olacağını anlamaq üçün çox da zehin yormaq istəməz. Hələlik isə istiqlalımız yolunda hər bir fədakarlığa hazır olduqlarını bildirmiş olan fəhlə və əmələlərimizə rəhbərlik etmək, onları möhkəm bir orqanizasiya başına cəmləşdirmək və istiqlalımızı tanımaq istəməyən xarici fəhlə və əmələlərin təşkilatları qabağında öz fəhlə və əmələlərimizdən "əks-təşkilat"lar düzəltmək bizim bütün partiyalarımızın birinci borcudur.

Zabastovka əsnasında fəhlələr və əmələlərimizin dəfəatla [dəfələrlə] idarəmizə müraciət edib də: "Bizə adam göndərin, bizə rəhbərlik edin, təklif və vəziyyətimizi bizə bildirin" deyə israr etdiklərini görüb də, partiyalarımızın bu yolda ətalətlə iş görüb də başısoyuqluq etmələrindən məyus olduğumuzu deməyə bilmərik. Ümidvarıq ki, bundan sonra partiyalarımız işin nə dərəcə ciddi bir vəziyyətdə olduğunu nəzəri-etinaya alıb da fəhlə və əmələ təşkilatı işlərimizə kamali-şövq və həvəslə girişməyi özləri üçün müqəddəs bir vəzifəədd [hesab] edəcək və işə ciddiyətlə girişəcəkdirlər.

*Hacıbəyli Üzeyir*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

**Yeni Kabinə təşkili**

Məclisi-Məbusanın 5-ci iclası, kanuni-əvvəlin [dekabrın] 26-sı, gündüz saat 12-də təyin edilmişdi. Saat birdə müavini-sədr [sədrin müavini] doktor Həsən bəy Ağayev iclası açaraq müzakirə olunacaq məsələləri elam edir [bildirir]. Növbədəki məsələlər bunlardır:

1 - Varid olan məktubat [gələn məktublar];
2 - Fəhlə komissiyası intixabı [seçkisi];
3 - Büdcə komissiyası seçkisi;
4 - Məclisi-Müəssisan dəvəti [çağırılması] qanunu hazırlamaq üçün bir komissiya intixabı;
5 - Yeni Kabinə təşkili haqqında;
6 - Bəyannamələr;
7 - Son həbslər haqqında istizah [izahat tələbi];
8 - Rüşvətxorluq haqqında rus fraksiyasının istizahı.

Varid olan məktubat bundan ibarətdir ki:

Gorus qəzasından Ağaoğlu Əhməd bəy həzrətlərinin Parlamana məbus intixab edilmiş olduğu haqqında məhəllindən [yerindən] teleqraf və etibarnamə alınmışdır.

Bakı qəzasından Parlamanda məbus bulunmadığından "İttihad" firqəsi Parlamana müraciətlə, Bakı qəzasına iki yer verilməsini istida [xahiş] edir.

Məhəmmədbəyovun məbusluqdan istefası, Qasım bəyin məzuniyyəti, Ukrayna Radası[nın] "Bakı" ərizəsini mütaliə edib də öz qərarını bildirmək üçün bu kağızlar Etibarnamə Komisyonuna verilir.

Bundan sonra yeni Kabinə təşkili məsələsinə keçərək Rəisivükəlaya [Baş nazirə] söz verilir.

Fətəli xan Xoyski şiddətli və sürəkli alqış içində kürsiyi-xitabətə çıxaraq yeni təşkil olunan hökumətin gələcək məramnameyifəaliyyətini müxtəsərən təsvirlə böylə nitq irad edir [söyləyir]:

"Möhtərəm məbuslar! Sizin rəisinizin xahişinə görə bu mühüm, çətin və qorxulu bir zamanda yeni Kabinə təşkili mənə mühəvvəl edildi [tapşırıldı]. Vəziyyəti, aşkardır ki, siz məndən yaxşı bilirsiniz. Yeni Kabinə təşkilini öhdəmizə götürməkdə nə qədər məsuliyyət olduğu da sizə məlumdur. Siz bilirsiniz ki, beş illik Cahan müharibəsindən sonra Sülh Konfransı qarşısında bizim əsl mühüm məsələmiz, istiqlaliyyətimiz məsələsi olacaqdır. Bu istiqlalı təsdiq etdirməyi bu halətdə siz Hökumətə tapşırırsınız və biz bu ağır vəzifəni öhdəmizə alırız. Hökumət hamı vəzifələrindən qabaq istiqlaliyyətimizi müdafiə və mühafizə etməyi özünə borc bilir. *(Alqış)*

Keçənlərdə burada hər fraksiya tərəfindən oxunan deklarasiyalar, bu vəzifəni boynumuza götürüb əmələ gətirmək üçün bizə zəmanət verir. Fəqət Azərbaycan istiqlaliyyəti ondan ibarət deyil ki, özümüzlə özgə dövlətlər arasında bir sədd çəkək. Aşkardır ki, müstəqil Azərbaycan Hökuməti ümüm [bütün] dövlətlərlə rabitə hüsuluna [əlaqə qurmağa] çalışacaqdır. Bu rabitə əvvəlcə qonşu dövlətlər, ümumiyyətlə sabiq Rusiya ərazisində təşəkkül tapmış dövlətlər, xüsusən Rusiyanın özü ilə hasil olmalıdır. Özgə millət və dövlətlərlə Hökumət, yalnız başına deyil, sizin köməyiniz və göstərdiyiniz yol ilə rabitə əmələ gətirəcəkdir.

İstiqlaliyyətimizin hamımız üçün əziz və sevgili olduğuna əminiz. Fəqət burası ancaq Ümumi Sülh Konfransında qəbul edilib tanınacaqdır. Biz ümidvarız ki, hürr Amerikanın bütün cahana deklarasiya elan etmiş olan hürriyyətpərvər rəisi-cümhuru [prezidenti], demokratik İngiltərə və cümhuri Fransa heç vaxt kəndi istiqlalına ciddü cəhd ilə çalışan bir millətin hüququnu tapdalayıb hürriyyətini əlindən almazlar. Bu cür hökumətlərin nümayəndələrindən ibarət cahan məhkəməsi olan Sülh Konfransında bizim sözümüz eşidiləcəkdir. Bunu deməyə mənə ümid verən, Müttəfiqlərin şəhərimizdə bulunan nümayəndələrinin bizimlə etdikləri rəftar və müamilədir. Özümə borc bilirəm deyim ki, onlar bizimlə heç pis rəftar etməyib, biləks [əksinə], istiqlaliyyətimizi almaq yolunda müzahirət [köməklik] tərzində müamilədə [rəftarda] bulunmuşlardır. *(Alqış)* Mən ümidvar oluram ki, gələcəyə bəslədiyimiz ümid və amalımız vücuda gələcəkdir.

Möhtərəm məbuslar! Hökumət çox şadlıqla bəyan edir ki, işlərimizi sülhlə aparmaq məsələsində hamınızın rəyi birdir və böylə aparmağa hamınız bərabər çalışırsınız. Heç vaxt qan tökülmək tərəfdarı deyildiniz. Aşkardır ki, sizin göstərməniz Hökumət üçün bir yol olacaq və Hökumət bu yol ilə gedəcəkdir. Hökumət həmişə çalışacaqdır ki, özgə dövlətlərlə bizim aramızda həll edilməmiş qalan məsələlərin həpsi sülh təriqi [yolu] ilə həll olunub qurtarsın. Fəqət bizi çox məyus edən bir şey var – o da torpaq məsələsi üstündə gürcülərlə ermənilərin arasında qan tökülməsidir. Hökumət çalışır ki, böylə məsələlər sülhlə həll edilsinlər və Xariciyyə Nəzarətimizin vəzifəsidir, Xariciyyə Nəzarətinin borcudur, özgə dövlətlərlə öylə bir rabitə hasil etsin ki, aramızda qalxan məsələlər, sülhlə xitampəzir ola [nəticələnə] bilsinlər.

Məlumdur ki, Xariciyyə Nəzarəti başqa dövlətlərlə həm siyasi, həm ticarəti rabitə yapmalı, həm də işləri sülhlə əmələ gətirməlidir. Amma sülhlə əmələ gətirmək o deyildir ki, Hökumət özü üçün heç bir qüvvə hazırlamasın. Gərək hər dövlət daima özünü müdafiə etmək üçün qüvvə bulundursun. Ona görə həm daxili, həm xarici düşmənlərə qarşı, bizim istiqlalımıza hücum edənlər müqabilinə müdafiədə bulunmaq üçün lazım olan qədər qüvvəmiz olsun gərək. *(Mərkəzdən və soldan alqış)*

Keçmişdə sabiq hökumət öylə bir qüvvə təşkili üçün çalışmışdır; təşkilat və hazırlıq yapmış, iş başında adam qoymuşdur. İnşallah az bir vaxtdan sonra bunların həpsi feilən vücuda gələcəkdir. Ola bilər ki, keçmişdə bəzi xətalar olmuşdur. Lakin şimdi artıq böylə xətalar olmamalıdır. Əsgəri qüvvə təşkili üçün lazımi tədabir ittixaz edilməlidir [tədbirlər görülməlidir]. Ümidvar oluruz ki, bu uğurda Parlaman dəxi bizə kömək edib, lazımi büdcəni qəbul edəcəkdir.

Möhtərəm məbuslar! Mən özümü borclu bilirəm bu gün sair nəzarətlər [nazirliklər] haqqında da sizə məlumat verəm. Daxili işlərimizdə bir çox nöqsanlar vardır. Əlbəttə, heç öylə bir hökumət olmaz ki, onun böylə nöqsanları olmasın. Hökumət özü yaxşı bilir ki, nöqsanlar daxiliyyə işlərinin başında duran adamlardan asılıdır. İş başında duran adamlar milləti, camaatı sevən, iş bacaran, yaxşı adamlar olsun gərək. Bundan maəda [başqa] millət özü də gərək hökumətə müavinət [köməklik] etsin. Amma, təəssüflər olsun ki, millət öz hökumətinə bu qüvvəti verməyir, o iqtidarı göstərməyir. Lazımlı adamlar iş başına gəlməyib qırağa qaçırlar. Halbuki millət nümayəndələri bilməlidirlər ki, bu işlər, camaat işi, vətən və millət işidir; bundan boyun qaçırmaq olmaz. Fəqət bizdə öylə deyildir. Hökumət işində qulluq edənlərə məvacib az verilir. Halbuki hər adam alış-verişlə bu məvacibindən çox artıq qazana bilər. Şübhəsiz ki, hökumət də hamıya istədiyi qədər məvacib verə bilməz. Ona görədir ki, bacarıqlı bildiyimiz hər kəsi qulluğa dəvət ediriz, qazanc az olduğundan boyun qaçırır. Camaat, millət bunu anlamalı və hökumət işlərindən qaçmamalıdır. Bununla da inşallah hər bir işi əmələ gətirib daxilimizdə hər şey öz yoluna düşəcəkdir. Hökumət özünü borclu bilir ki, Rusiya inqilabının fütuhatı [nailiyyəti] olan ümum [bütün] hürriyyətləri müdafiə eyləsin. *(Sol və mərkəz[dən] alqış)* Bu işdə hökumət tək işləyəmməz. Millət özü hökumətinə kömək etməlidir. *(Soldan "doğrudur", alqışlar)* Hökumət bilir bu hürriyyətlərin həpsi verilməli, təmin edilməlidir. Bu hürriyyətlər, bu imtiyazlar verilməsə, dövlət işləri düz getməz.

Bir də daxili işlərimizdə mühüm bir məsələ var. Bir məmləkətdə yaşayan ümum millətlər, özlərini o məmləkətin, o dövlətin doğma övladı kimi görməlidirlər. Biz türk-islamlar heç bir zaman özümüzü vətənə övlad kimi görməyib, həmişə ögey olduğumuzu hiss etmişik. Şimdi biz öylə şərait hasil etməliyiz ki, vətənimizdə yaşayan millətlərin həpsi özünü bir dərəcə vətən övladı kimi görsünlər. Biz özümüzə rəva görmədiyimizi, sairlərinə də rəva görməməliyiz. *(Mərkəz və soldan alqış)*

Ona görədir ki, məmləkətimizdə yaşayan ümum milətlərin millimədəni ehtiyaclarını tamamilə təmin etməliyiz. Bizim içimizdə əsrlərdən bəri bizimlə yan-yana yaşayan millətlər var. Onlardan birisi də erməni millətidir. Müsəlmanlar da, ermənilər də unutmamalıdırlar ki, onlar min illərdən bəri bir yerdə yaşamışlar və bundan sonra da min illərcə bərabər yaşayacaqlardır. Bu millətlərin həpsini hökumət gərək bir gözlə görsün. *(Alqış)*

Maarif Nəzarəti hər kəsə imkan verməlidir ki, öz ana dilində oxusun. Böylə imkan verilməmək bəlasındandır ki, bu gün mən sizinlə istədiyim kimi danışa bilmirəm. Bizdə böylə olmamalıdır. Hazırda məmləkətimizin sənət məktəblərinə böyük ehtiyacı vardır. Maarif Nəzarəti milli ümumi məktəblərlə bərabər, sənət məktəbləri güşadına [açılmasına] da çox əhəmiyyət verməlidir.

Möhtərəm məbuslar! Daha bir mühüm məsələ var ki, hər bir dövlətdə birinci ədd [hesab] olunur. Hətta böyük dövlətlər bu məsələyə diqqət verməlidirlər. Bu da ərzaq məsələsidir. Bu məsələdən dolayı sair məmləkətlərdə nizamsızlıqlar, iğtişaşlar törəyir. Ərzaq məsələsini nizama salan hökumət, öz işinin yarısını həll etmiş olur. Azərbaycan Hökuməti özünü borclu bilir zəruri şeyləri ümum millətlər və bütün füqərayi-kasibə arasında ədalətlə təqsim etsin [bölsün]. Bu barədə hökumət çalışır. Fəqət ərzaq məsələsi, ticarət və yollar məsələsi ilə sıxı surətdə mərbutdur [əlaqədardır]. Ticarət Nəzarəti sair dövlətlərlə mübadileyi-əmvalı [mal mübadiləsini] yoluna salmazsa, dəmiryolları ilə mal müntəzəmən gəlməzsə, şübhəsiz ki, ərzaq işlərini qaydaya salmaq olmaz. Keçmiş hökumət dövründə dəmiryollarında çox xətalar, nöqsanlar, hətta xəyanətlər olmuşdur. Amma təsəvvür ediniz ki, son zamanlar dəmiryoluna dörd dəfə böyük təpik dəymişdir: əvvəla rus qoşunları cəbhədən qayıdarkən yolları söküb dağıtdılar; ikinci, anarşi vaxtı öz camaatımız öz yollarımızı söküb dağıtdı *(Soldan "ayıb olsun");* üçüncü təpik Bakı davası zamanı dəydi; nəhayət dördüncü təpik türk qardaşlarımızdan dəydi. Çünki həmişə, hamı əsgər, getdiyi yola zərər yetirdiyi kimi, bunlar da Azərbaycan dəmiryoluna sədəmə [zərbə] vurdular. Şimdi böylə bir yoldan nə gözləmək olar?! Bundan əlavə, yollarda özümüzdən qulluqçumuz olmadığından, xaricilər dəxi bilirlər ki, onlar getsələr, yol fəna olacaqdır. Ona görə də bildiklərini edirlər. Bununla bərabər, Hökumət sizə söz verir ki, böylə nizamsızlıqları tezliklə düzəldib suiistemal [sui-istifadə] və xəyanətləri rəf etsin [aradan qaldırsın].

Maliyyə Nəzarəti haqqında dəxi bir neçə söz söyləməliyəm. Özünüz bilirsiniz ki, bu vaxtadək bizim özümüzə məxsus pulumuz yoxdur. Ancaq müvəqqət bonlar [bonolar] kəsilmişdir. Maliyyə Nəzarətinin birinci vəzifəsi tezliklə Azərbaycan pulu çıxarmaqdır. Bir də tezliklə vergilər cəm etmək lazımdır. Bunu da deməyə ehtiyac yoxdur ki, verginin ən çoxu, ən ağırı dövlətlilərin öhdəsinə düşməlidir, nəinki kasıbların. *(Mərkəzdən və soldan alqış)*

Ədliyyə Nəzarətinə keçdikdə: özümüzə məlumdur ki, Ədliyyə Nəzarəti düzgün olmadıqca, heç bir məmləkətin işi getməz. Bundan əlavə, öylə olmalıdır ki, məhkəmədə şikayətçi ilə hakim bir-birinin dediyini anlasın. Binaənileyh [ona görə], Hökumətimiz məhkəmə işlərinin də milli lisanda olması uğrunda ciddi tədbirlər görəcəkdir.

Post, Teleqraf, Səhhəti-Ümumiyyə [xalq səhiyyəsi] və sairə nəzarətləri [nazirlikləri] və işləri haqqında uzun baş ağrısı vermək istəməyib, ancaq bu qədər deyirəm ki, bu barədə dəxi Hökumət lazımınca tədbir görəcəkdir.

Hökumət və dövlət işlərində gərək hökumət və gərəksə camaat üçün iki mühüm məsələ vardır: fəhlə və əkinçi məsələləri. Millətin əksəriyyəti fəhlə və əkinçidən ibarətdir. *(Mərkəz və sol[dan] alqış)* Hökumət bilir ki, torpaq əkinçiyə verilməzsə, fəhlənin həyatı təmin edilməzsə, heç vaxt iş yeriməz. *(Mərkəz və sol[dan] alqış)* Binaənileyh, Hökumət təzəlikcə bir Məsai Nəzarəti [Əmək Nazirliyi] təsis edir. *(Mərkəz və sol[dan] alqış)* Əminəm ki, Məsai Nəzarəti fəhlə həyatını təmin edəcəkdir, fəhlələri səkkiz saatdan artıq işlətməyə qoymayacaqdır. Bundan əlavə, ümum fraksiyaların rəyi ilə Hökumət rəyi torpaq məsələsində bir olub, Hökumət lazım bilir ki, torpaq əvəzsiz kəndlilərə verilsin. *(Sol və mərkəzdən sürəkli alqışlar)*

Möhtərəm məbuslar! O Hökumət ki, sizin rəyinizlə işləyir, özünə başqa yol götürməyir və götürə bilməz də. *(Soldan və mərkəzdən alqış)*

Onu da bilirsiniz ki, torpaq məsələsi öylə mühüm bir məsələdir ki, bir qələm çəkməklə həll oluna bilməz və heç bir məmləkətdə bu vaxtadək qaydaya salınmamışdır. Bunu diqqətlə qaydaya salmaq, bu xüsusda müfəssəl [təfsilatlı] və qəti məlumat toplamaq və hamını razı buraxacaq bir dərəcədə həll etmək lazımdır. Bunu da tezliklə əmələ gətirməyi Hökumət öz öhdəsinə alır. Məclisi-Müəssisan [Təsisçilər Məclisi] dəvətinədək Hökumət, torpaq məsələsini lazım və mümkün surətdə bir sahmana salacaqdır.

Sözümü qurtararkən təkrar edirəm ki, Hökumət qarşısında duran məsələlərin ən mühümü, istiqlalımızı müdafiə məsələsidir. Məmləkətin hər guşəsindən, millət içindən gəlmiş siz məbuslar da bu fikirdəsiniz. Bütün millətin zehnini hamıdan artıq işğal [məşğul] edən bu məsələdir. Bütün millət bir işdə həmrəy olub ciddən çalışsa, o millət nə qədər ufaq da olsa, məqsədinə çatacaqdır. *(Alqış)* Hökumət isə bu məsələni gözlərinin bəbəyi kimi qoruyacaqdır. *(Gurultulu, sürəkli alqış)*

Siz bilirsiniz ki, Hökumət nə qədər müşkül və qorxulu bir zamanda öhdəsinə nə qədər ağır bir vəzifə götürür. Bizi böylə vəzifə götürməyə cürətləndirən və ümid verən sizin kömək və etimadınızdır. Şimdi Allahdan tövfiq [yardım] və sizdən kömək istəyərək, yeni Kabinə əzasını [üzvlərini] sizə xəbər verirəm.

Təşkil etdiyim yeni Kabinə işbu zəvatdan [şəxslərdən] ibarətdir:

Baş vəzir [Baş nazir] və Xariciyyə naziri – Fətəli xan Xoyski (yəni mən);
Daxiliyyə naziri – Xəlil bəy Xasməhəmmədov;
Dövlət müfəttişi – Məhəmmədhəsən Hacınski;
Hərbiyyə naziri – Səməd bəy Mehmandarov;
Maliyyə naziri – Protasov;
Post-Teleqraf naziri – Aslan bəy Səfikürdski;
Ticarət və Sənaye naziri – Mirzə Əsədullayev;
Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri – Xudadad bəy Məlikaslanov;
Maarif naziri – Nəsib bəy Yusifbəyov;
Ərzaq naziri – Lizqar;

Ədliyyə, Səhiyyə, Ziraət və Məsai nəzarətləri boş buraxılmışlardır. Çünki bu yerlərdən birisi yenə ruslara, üçü də ermənilərə verilməlidir.

## ERMƏNİ-GÜRCÜ TOQQUŞMASI

**Azərbaycan Hökumətinin notası**

Kanuni-əvvəlin [dekabrın] 23-də Azərbaycan Hökuməti tərəfindən Gürcüstan və Ermənistan Xariciyyə nazirlərinə bu məzmunda bir teleqraf göndərilmişdir:

*"Azərbaycan Hökuməti Gürcüstan ilə Ermənistan arasında Borçalı dairəsindəki mübahisəli sərhəd məsələsindən ötrü vaqe olan müsəlləh müsadiməyə [silahlı toqquşmaya] öz təəssüfatını izhar edir [təəssüflərini bildirir]. Zaqafqaziya cümhuriyyətləri təşkil olunduğu bir zamanda, mabeyndə [tərəflər arasında] olan mübahisəli məsələlərin silah gücü ilə həll edilməsi müvafiqi-məqsəd [məqsədəuyğun] deyildir. Məmafih [digər tərəfdən], mübahisələrin bu üsulla həll edilməsini qəti hesab etmək olmaz. Azərbaycan Hökuməti mübahisəli məsələlərin, həmçinin sərhəd məsələlərinin həmişə sülhlə həll edilməsi tərəfdarı olduğundan, hər iki qonşu və mehriban cümhuriyyətlər arasında vaqe olan müsəlləh müsadiməyə qarışmaqdan özünü saxlayıb, Borçalı rayonunun Azərbaycan türkləri ilə məskun hissəsinin Azərbaycan Cümhuriyyətinin ayrılmaz bir parçası olduğunu izhar etməyi [bildirməyi] özünə borc bilir. Buna görə bu müsadimə, hər nə cür olsa da, nəticədə məzkur [adı keçən] rayonun müqəddəratı tərəfeyn [tərəflər] arasında qılıncla deyil, həkəm [arbitr] vasitəsilə həll olunmalıdır.*

*Xariciyyə naziri vəzifəsini ifa edən Ziyadxanov"*

**Gürcüstan ərkani-hərbindən [Qərargahından]**

Sadaxlı rayonunda vaqe olan iki günlük müharibə, bizim əsgərlərin təzə mövqelərə çəkilməsi ilə bitmişdir. Düşmən böyük qüvvələrlə hücum etmişdir. Bundan əlavə, arxada olan erməni kəndləri əhalisi, dəmiryol xəttini dağıtmaq və qeyri vasitələrlə erməni ordusuna böyük kömək etmişlərdir. Hər tərəfdən düşmənlə mühasirə edilmiş əsgərlərimiz bir çox qəhrəmanlıqla düşmənə qənaim [qənimətlər] buraxmayıb geri çəkilməyə müvəffəq olmuşlardır.

Ermənistan Hökuməti tərəfindən Gürcüstan əleyhinə hərəkatihərbiyyə [hərbi əməliyyatlar] başlanan kimi, Gürcüstan Hökuməti müşahidə etmişdir ki, ermənilər hər yerdə xəlvətcə istihzariəsgəriyyə [hərbi çağırış] elan etmişlərdir. Odur ki, Tiflis və ətrafında olan ermənilər, hətta Rusiyadan bir çox miqdarda Ermənistana azim olmaqdadırlar [getməkdədirlər]. Mühəqqəq olmuşdur [təsdiqlənmişdir] ki, Tiflisdə Erməni Milli Şurası[nın] olduğu Aramyansın evində "Daşnaksaqan" firqəsinin məşhur xadimləri tərəfindən xəlvətcə əsgər cəm edilir. Kanuni-əvvəlin [dekabrın] 20-də həman evdə vaqe olan axtarış əsnasında ehtiyat zabitləri və 184 nəfərə qədər cavan ermənilər həbs edilmişlərdir. Buna binaən [əsasən] hökumət məmurlarına əmr edilmişdir ki, sinnləri [yaşları] əsgərliyə müvafiq olan erməniləri hərbi əsir elan edib Kutaisə göndərsinlər. Ermənistan üçün əsgər cəm etməyə çalışan "Daşnaksaqan" firqəsi xadimlərini də ümumi qanun üzrə həbsə alsınlar. Hökumətin bu əmri icra edilməkdədir.

## MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN NİTQİ

Erməni-gürcü davası münasibətilə Parlamanda istizah [izahat] verildikdə, Rəsulzadə Məhəmməd Əmin bəy tərəfindən irad edilmiş [söylənmiş] nitq:

Bu gün Azərbaycan Məclisi-Məbusanının iztirabiqəlblə [ürək ağrısı ilə] cəm olmasına səbəb, qonşularımız arasında vaqe olan qanlı müsadimələrdir [toqquşmalardır]. Bu hadisələr yanı başımızda deyil, uzaqda yaşayan digər millət arasında da çıxsaydı, insaniyyət nöqteyinəzərindən qəlbimizi cərihədar edib [yaralayıb] qanla dolduracaqdı.

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 29 dekabr (Bazar günü) tarixli 73-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Fəqət məluma, biz göylərdə deyil, yerdə yaşayırız. Həqiqəti düşünəlim. Bu vaqe olan hadisələr öylə iki qonşu millət arasında vaqe olmaqdadır ki, biz müqəddəratımızı dün onlarla birlikdə həll edirdik, yarın [sabah] da müştərək həll edəcəyiz. Bunun üçün də biz bu millətlər arasında çıxan hadisələrə yabançı qala bilməyiz. Bu hadisələrlə biz, qəti və həyati surətdə əlaqədarız. Ona görə də səsimizi yüksəltməli, "aman, nə yapıyorsunuz" deməliyiz. **(Soldan və mərkəzdən alqış).**

Əfəndilər! Çox qəribədir, bir zamanda ki, Hərbi-ümumi [Dünya müharibəsi] axıra yetişir, bir zamanda ki, dünyanın cəngavər və təpədən-dırnağa qədər müsəlləh olan [silahlanmış] millətləri məsələlərin artıq sülh və müsalimətlə [asayişlə] həll və qət olunmasını [sona çatmasını] istəyirlər, bir zamanda ki, istiqlala layiq olduğumuzu isbat üçün bu gün biz kiçik Qafqaziya millətlərinin əlində qüvvətli bir sübut vardır ki, o da sülh və müsalimət, ancaq və ancaq qan tökməməkdir. **(Sürəkli alqış)**

Əvət, əfəndilər! Böylə bir zamanda ki, biz Qafqaziya millətləri ixtilaflı və mübahisəli məsələləri qansız həll etməz isək, iləridə bütün millətlərin iştirakı ilə əqd oluncaq [bağlanacaq] Ümumi Sülh Konfransına qol-qola olaraq bir qapıdan dost bir surətdə girəcək olmazsaq, bütün əməllərimiz [arzularımız] məhv və nabud [puç] olar. İştə böylə bir zamanda, Ermənistanla Gürcüstan arasında qan tökülür. Bu qanlar dayanmalıdır. Çünki hürriyyət və istiqlal haqqında bəslədiyimiz o əziz və müqəddəs qəsdlərimizi [məqsədlərimizi] qara yerlərə gömülməmək üçün sülh masası başında müttəhidən [birgə] oturmağa layiq olduğumuzu göstərməliyiz. İştə bu qanların dayandırılmasına bir təsir icra etmək üçün bu gün Azərbaycan demokratiyası [xalqı] səsini yüksəltməlidir. *(Alqışlar)*

Əfəndilər! Bu fikir, ixtilaflı məsələlərin müsalimətlə [sülh yoluyla] həlli fikri, heç bir vaxt Azərbaycan camaatına yabançı qalmamışdır. Azərbaycan demokratiyasını hər zaman töhmətləndirmişlər, ona dildə bir, məqsəddə, işdə bir deyə böhtan etmişlərdir. Hər zaman bizlərə irticapərəst adını taxaraq, aləmlərə təşhir etmişlərdir [nümayiş etdirmişlər]. Buna dəlil olaraq illətləri [səbəbləri] bizim xaricimizdə olan əsəfli [təəssüflü] hadisələri üzümüzə vurub, erməni-müsəlman [toqquşması] kimi müəssif [kədərli] hadisələrə meydan olduğundan, Azərbaycanı təqsirləndirmişlərdir. Fəqət həqiqəti-hal [həqiqi vəziyyət, gerçəklər] nəyi göstərir? Azərbaycan, müqəddəratını kəndi əlinə alıb da müstəqil olaraq yaşamağa başladığı andan bəri siyasətini müvafiqət [uzlaşma] və müsalimət [asayiş, əmin-amanlıq] əsasına qurmuşdur. Azərbaycan Hökuməti ibtidadan [başlanğıcdan] bəri sülh tərəfdarı olub da, müsalimət siyasətindən ayrılmamışdır. Azərbaycan Hökuməti əvvəli-təsisindən [qurulduğu gündən] bəri Qafqaziya millətləri arasında olan ixtilaflı və mübahisəli məsələlərin cəbr [zor] ilə deyil, sülh ilə həll olunmasına çalışmışdır. Azərbaycan siyasi nümayəndələri hər zaman və hər məkanda mübahisəli məsələlərin sülhlə həll olunması təklifində bulunmuşlardır.

Qafqaziya millətləri bu məsələləri öz aralarında həll edə bilməzlərsə, başqa bitərəf bir həkəmə [arbitrə] müraciət eyləməlidirlər. İyun ayının ibtidalarında [əvvəllərində] idi, Gürcüstan Hökuməti Borçalının müsəlman əhalisinin arzusuna rəğmən cəbrən [zorla] Gürcüstana ilhaq edirdi. Azərbaycan bunu protesto edərək, məsələnin beynəlmiləl bir komisyon vasitəsi ilə həllini təklif eylədi. Məəttəəssüf [təəssüf ki], bu təklifinə müvafiqət cavabı deyil, müxalifət gördü. Bu təklifini Azərbaycan Hökuməti sonralar yenə təkrar etdi, nəticə alammadı. Son günlərdə isə Gürcüstan Hökuməti bu nöqteyi-nəzəri qəbul ilə rəsmən bir təşəbbüsdə bulundu. Bu təşəbbüsə birinci ləbbeyk deyən [qəbul edən] Azərbaycan Hökuməti oldu. Gürcüstan Hökuməti qonşu Ermənistan Hökumətini də Zaqafqaziya Konfransına dəvət etmiş, günlər, həftələrlə bəkləmiş, lakin Ermənistan nümayəndəsi gəlməmişdir. Bunun üçün konfrans məsələləri həll edilə bilməyib dağılmışdır. Gürcüstanla Ermənistan arasında bu məsələ üzərində təati eyləmiş [mübadilə edilmiş; alınıb-verilmiş] və surətləri bu gün nəşr edilmiş teleqraflardan anlayırız ki, Gürcüstan Hökuməti hətta bu müzakirat əsnasında bizdən bixəbər olaraq Ermənistanın təklifinə görə əvvəlcə bu məsələləri yalnız Ermənistanla öz arasında həll etməyə razı olmuşsa da, yenə vəziyyəti qurtarammamış, məqsədinə müvəffəq olammamışdır.

Şimdi isə bu iki millət öz aralarında olan mübahisəli məsələləri qanla həll etməyə başlamışlar. Arada ixtilaflı olan torpaq məsələsi vardır. Əzcümlə [o cümlədən] Borçalı uyezdi mövzui-bəhsdir [mübahisə mövzusudur]. Biz biliriz ki, Borçalının türk və müsəlmanlarla məskun olan qismi Azərbaycandan ayrılmayacaq bir qitədir [parçadır]. *(Şiddətli alqışlar)* Zəngəzur, Qarabağ uyezdi kəza [həmçinin] Azərbaycandan ayrılmayacaqdır. *(Alqışlar)* Biz bu mübahisəli məsələlərin demokratik nöqteyi-nəzərindən qılıncla deyil, sülhlə həll olunmasını hər zaman istəmiş, indi də arzu ediriz. Fəqət heyhat ki, bizim bu arzumuz səhrada çağırılan boş sədadan ibarət qalmışdır. Biz zikr olunan yerlər üzərindəki haqqımızın hər vasitəyə müraciət edilsə eşidiləcəyinə qənaətimiz bərkəmal [tam] ikən, Qafqaziyanın ümumi müqəddəratını nəzərə alaraq, biz həmişə digər mübahisəli məsələlər kimi bu məsələnin də sülhlə həll olunmasını gözləmişik.

Arzu edirdik ki, Gürcüstanla Ermənistan hökumətləri dəxi bu əsası qəbul ilə öz aralarındakı ixtilaflı məsələləri sülh və müsalimətlə həll etsinlər. Məəttəəssüf [təəssüf ki], bu gün meydanda nahaq yerə qanlar töküldüyünü görürüz.

Azərbaycan Məclisi-Məbusanı Gürcüstan və Ermənistan hökumətlərinin daxili işlərinə qarışmaq üçün deyil, bütün Qafqaziyanı yaxacaq, o cümlədən Azərbaycanı da qanlara boyayacaq bir fəlakətin önünü almaq üçün bu məsələyə icrayi-təsir etmək istər və imanımız bunadır ki, Gürcüstan və Ermənistan camaatı dəxi bizim kimi düşünür.

Azərbaycan xalqının müməssili-ruhu olan [ruhunu təmsil edən] Məclisi-Məbusanımızda hökmfərma [hökmran] olan bu ruhi-müsalimət [əmin-amanlıq ruhu], əminəm ki, bütün camaatımızın duyğusu olduğu kimi, gürcü və erməni camaatının eyni-mətləbidir [mətləbinin özüdür ki var]. Gürcüstan və Ermənistan Məclisi-Məbusanları dəxi öz millətlərinin vicdanını təmsil etdiklərindən, sülhamiz [sülhpərvər] bir seyhəyi-intibahla [oyadan hayqırışla] kəndilərinə müraciət edəlim və deyəlim ki: Qafqaziya millətləri sülh [və] müsalimətə möhtacdırlar. Bütün səy, iqtidar və nüfuzunuzu hökumətiniz üzərində icra ediniz. Tökülən bu nahaq qanlar dayansın. Çünki bu qanlarda boğulacaq hürriyyətlərimiz, çünki bu yanğınlarda yanacaq yurdlarımızdır. *(Alqışlar)*

## MAARİF MÜFƏTTİŞLƏRİNİN YIĞINCAĞI

*(8-inci iclas)*

Kanuni-əvvəlin [dekabrın] 22-də, səhər saat 9-da, möhtərəm Azad bəy Əmirovun təhti-sədarətində [sədrliyi altında] məclis açılır. Növbədə olan məsələlərdən biri ümum məktəblər üçün tədris kitablarının intixab [seçilməsi] və hökumət məsarifi [xərci] ilə intişar [nəşr] olunmasıdır. Bu barədə hərtərəfli mübahisə və müzakirə olunduqdan sonra, hal-hazırda məktəblərdə tədris işi dairəsində olan kitabların tənqid və təqrizinə [mənfi və müsbət tərəflərini deməyə] girişmədən, vaxtın qeyri-müsaid olmasını dərnəzər edərək [nəzərə alaraq], hələlik o kitablara qənaət etməklə bərabər, gələcək üçün ümum məktəblərə yarar tədris kitablarının Maarif Nəzarəti tərəfindən bilatəxir [təxirə salınmadan] (mütəxəssislər vasitəsilə) tərtib və təmin olunmasını məclis arzu və xahiş edir. Bundan sonra mütəəllimlər [şagirdlər] üçün məktəb xaricindən, yəni məktəb proqramlarından əlavə asudə vaxtlarda və tətil günlərində qiraət dərslərinin tərtib olunması müzakirə olunur.

Möhtərəm qarelərə [oxuculara] məlumdur ki, mövcud kitabxanalarımızda və məktəblərimizdə şagirdlərimizə kafi qədər faydalı kitabçalarımız yoxdur. Məktəb şagirdlərini ancaq dərs kitablarına qane edib, başqa müfid [faydalı] risalə və kitabçaların qiraətindən məhrum etmək, onların istedad və zəkasının nəşvü-nümasını [inkişafını] məhdud eyləmək deməkdir. Belə qiraət kitablarının pedaqojiya nöqteyi-nəzərindən artıq xeyri olduğu hər kəscə aydın və aşkardır. Ona görə belə qiraətlərin mümkün qədər hər yerdə müntəzəm surətdə tərtib olması nəinki mətlubdur [arzu ediləndir], bəlkə vacibdir. Binaənileyh [ona görə], məclis bu mühüm məsələni kamali-diqqətlə təhlil edəndən sonra belə qərarı qəbul eylədi: Maarif Nəzarəti cənbində [nəzdində] müsəddəq [təsdiqlənmiş] surətdə bir ədəbiyyat şöbəsi açılıb, hökumət xərci ilə xüsusən şagirdlərin əxlaq tərbiyələrinə və məlumatına xidmət edəcək balaca risalə və kitabçalar, müsəvvər [şəkilli] jurnallar və ümumən az təcrübəli müəllimlər üçün pedaqojiyaya dair jurnallar çap və nəşr olunmalıdır və bu qərarın bilatəxir əncamına [yerinə yetirilməsinə] indidən iqdam olunmaqla [başlamaqla] bu nöqsanımızın tezliklə rəf edilməsi [aradan qaldırılması] arzu və xahiş olunur. Bununla belə, bu məsələnin qərarı əncama yetincəyə qədər, şagirdlərdə belə qiraətlərə təşviq və həvəs peyda etmək üçün hələlik mümkün olan məktəblərdə və mərkəzi şəhərlərdə müəllimlərin zikr olunan məsələyə artıq əhəmiyyət verməlləri tövsiyə olunur.

Bundan sonra, maarif müfəttişlərinin təhti-idarəsində [idarəsi altında] rayon ictimaları [yığıncaqları] yaxud müəllimlər şurasının dəvət olunmaq məsələsi müzakirə olunur. Bədəz-müzakirə [müzakirədən sonra] hər sənə təhsili ilin [təhsil ilinin] başında, yəni avqust və sentyabr aylarında hər maarif müfəttişlərinin münasib gördükləri yerdə bir belə ictima yaxud şurayi-müəllimin [müəllimlər şurası] dəvət edilib, orada maarifə dair məsaili-cariyyədən [cari məsələlərdən], tərbiyeyi-əxlaqiyyədən, üsuli-tədrisdən, şagirdlərin əxlaqi-ruhiyyəsindən, müəllim əfəndilərin şagirdlərlə bilxüsus [xüsusilə] və onların valideynləri ilə bilümum [ümumiyyətlə] nə gunə [nə tərzdə] əlaqə və münasibatda bulunmaları barədə ədəbi söhbətlər və nümunə dərsləri olmaq və bu vəchlə müəllim əfəndilərin yekdigəri [bir-biri] ilə mübadileyi-əfkarda [fikir mübadiləsində] bulunmaqları ümdə bir mətləb olduğundan, bu xüsusda hər nahiyə [qəza] müfəttişlərinin ciddi surətdə iqdamatda bulunmaları [təşəbbüs göstərmələri] qət və qərar olunur.

On dəqiqə tənəffüsdən sonra maarif işlərində polis məmurlarının müəllim və müfəttiş əfəndilərin qanunən xahiş və tələb etdikləri məsələlərə etinasızlıq göstərməmələri bəhs olur. İstibdad dövründə polis məmurları hökumət[in] təqib etdiyi nəşri-cəhalət [cəhalətin yayılması] məsləkinə kamali-sədaqətlə xidmət edərək, vəzifələrinin yüzdə 98 faizini maarif və mədəniyyət qabağına sədd çəkməkdən, fəqət bunun əvəzində meyxanələrin gün-gündən artmasına var qüvvələri ilə çalışmaqdanədd [hesab] edirdilər. Bu cəhətə görə xüsusən darülirfan [elm-ürfan ocağı] olan məktəblər və ümumən müdir və müəllimlərə polis məmurları həqarətlə baxırdılar. Əlhəmdülillah, istibdadın zənciri qırıldı. Gördüyümüz bu qədər fəlakətlər, bu qədər həqarətlər artıq yetər. Azad Azərbaycanın polis məmurlarının maarif xüsusunda özlərinə düşən vəzifələrini layiqincə ifadə edib məkatib, mədarisə [məktəblərə, mədrəsələrə] və onlarda xidmət edən, millət övladının mürəbbisi [tərbiyəçisi] və müəllimi olan əşxaslara [şəxslərə] maddi və mənəvi kömək etməkdə çalışmalıdır. Bu xüsusda Quba qəzası naçalniki Əmir xan Xoyski cənablarının maarif haqqında sidqlə çalışmağı əzalar [üzvlər] tərəfindən məclisə xəbər verilib, əhli-məclis çox xoşnud olur [razı qalır] və qərar qoyulur ki, Daxiliyyə Nəzarəti vasitəsilə o cənaba yığıncaq tərəfindən izhari-təşəkkür edilsin.

Bədəhu [sonra] məclis ümumiyyətlə qərar edir ki, Maarif Nəzarəti həm öz tərəfindən və həm də Daxiliyyə Nəzarəti vasitəsilə Azərbaycan Hökumətinin ümum polis idarələrinə təhriri [yazılı] və rəsmi olaraq əmr və təklif etsinlər ki, onlar var qüvvələri ilə maarif və tərbiyə xadimlərinə, məktəb müəllimlərinə, müdirlərinə, məkatib və maarif müfəttişlərinə hər barədə kömək edib, məzkur [adıçəkilən] xadimlərin bu uğurdakı tələbatına bila-təxir əncam olunsun. Zənn edəriz ümum Azərbaycan polis məmurları bu xüsusda ciddi çalışacaqlar. Bu ümumi səy və guşiş [zəhmət, çalışma] sayəsində məktəblərimizin şərəfi yüksəlib, millətimizin qayə və amalına xidmət edən həqiqi və müqəddəs bir məkan olacaqdır.

*İslam bəy Qəbulov*

## BAKI XƏBƏRLƏRİ

Bu gün saat 4-də, Bondarnı küçədə, 80 nömrəli evdə, Azərbaycan "İctimaiyyuni-İnqilabiyyun" [Sosialist inqilabçılar] firqəsi komitəsinin iclası vaqe olacaqdır. Fəal üzvlərin dəxi gəlmələri rica olunur.

**"Əlvahi-intibah"**

Qafqaziyanın görkəmli şairlərindən Əbdülsəlimzadə Məhəmməd Hadi əfəndinin "Əlvahi-intibah yaxud insanların tarixi faciələri" nam [adlı] əsərinin ikinci cildi təb'dən [çapdan] çıxıb satışa qonulmuşdur.

Şair əfəndi, Böyük Cahan müharibəsində Səlibi-əhmər [Qırmızı xaç] dəstəsilə cənub-qərbi cəbhəyə getmiş olduğu zaman insanların yekdigərini [bir-birini] milçək kimi qırması, vəhşətin son dərəcəyə varması və bu kimi bir çox faciələri görərək mütəəssir olub, mədəniyyət, tərəqqi və təalinin [yüksəlişin] yuxarı dərəcəsinə varmış bəşəriyyətin yeri, göyü, suyu, havanı, bütün təbiəti kəndisinə tabe etmiş olduğu halda kəndisinin hələ "insanlıq" dərəcəsinə yetişməmiş olduğunu yaxından görərək, bu faciələri mahir qələmi ilə nəzmən səbt etmiş [mənzum olaraq yazmış] və şimdi tarixi "Karpat lövhələri"ni vətəndaşlarının nəzərinə yetirməkdədir. Qarelərimizə [oxucularımıza] bu kitabçanı oxumağı tövsiyə ediriz.

**Mənzil məsələsi**

18 kanuni-əvvəldə [dekabrda] Daxiliyyə Nəzarətinə, Bakıda Ev Sahibləri İttifaqı bürosu tərəfindən verilmiş istidaya [ərizəyə] baxılmışdır. İstidada, Müvəqqət Hökumətin ağustos [avqust] 1917 səneyi-miladidə nəşr etdiyi mənzil qanununun ilğası [ləğvi], mənzillərə həddindən artıq kirayə alma[ma]q üçün xüsusi bir kontrol komisyonu tərtib verilməsi təmənna olunur. Bu istida bir çox Bakıda yaşayan əhalinin mənfəətinə toxunan olduğuna və əhalinin nümayəndəliyi fəqət [yalnız] Bələdiyyə Şurasından ibarət olduğuna görə, Daxiliyyə Nəzarətinin dava vəkili (yurist-konsultu) istidaçıların [ərizəçilərin] haqları olub-olmadığı və yeni bir qanun verilməsi lazım olduğu haqqında bir şey söyləmədən, həll edilmək üçün bu məsələnin Bələdiyyə İdarəsinə verilməsini təklif etmişdir.

**Ərzaq işləri**

Ərzaq Nəzarəti tərəfindən

* Zaqatal ərzaq məs'uluna və Gəncədə Hərbi nazirə teleqrafla xəbər verilmişdir ki, türklərdən qalma bütün ərzaq, Ləvazimi-Əsgəriyyə İdarəsi [Hərbi Ləvazimat İdarəsi] ixtiyarına verilsin.

* Rus bayramı yavuqlaşdığına görə, bu günlərdə Bakıya şərab, araq və konyak gətirmək üçün Ərzaq Nəzarətindən çoxlu vəsiqələr alınmaqdadır.

* Bu vaxtadək Tağıyev fabrikasına bez almaqdan ötrü verilən vəsiqələr Ərzaq Nəzarətindən alınırdı. Bu gündən etibarən həmin vəsiqələr Ticarət və Sənaət [Sənaye] Nəzarətindən veriləcəkdir.

**Tətil**

Müttəfiqlər komandanlığının binagüzaranlığı [sərəncamı] ilə sol firqələr başçılarından Saakyan, Velonts, Arakelyan, Ataşkin və Şternin həbs edilmələrindən dolayı dekabrın 24-dən 26-dək şəhərdə və mədən dairəsində və dəmiryollarında tətil elan edilmişdi.

**Türküstan heyəti-mürəxxəsəsi [nümayəndə heyəti]**

Bu günlər İstanbuldan Bakıya Türküstan heyəti-mürəxxəsəsi gəlmişdir. Mürəxxəsənin başında Türkistanda məşhur İslam Alimbaya əfəndiləridir. Bu heyətdən birisi vətənə getmək, digərləri isə Avropaya getmək niyyətindədirlər. Yarın şu heyəti-mürəxxəsə ilə müxbirimiz müsahibəsini dərc edəcəyiz.

**Tiflisdə yeni konsul**

İran Hökuməti tərəfindən Mirzə Tağı xan Müəzzəzüddövlə Tiflisə yeni general-konsul təyin edilmişdir. Bu da Avropaya gedəcək heyəti-mürəxxəsə [nümayəndə heyəti] ilə Bakıya gəlmişdir.

**Bakıda yeni naiblər**

İşbu mürəxxəslərlə bərabər Bakıdakı səfarətdə [səfirlikdə] naibi-əvvəl [birinci müavin] İsa xan və naibisani [ikinci müavin] Məhəmməd Mirzə təyin edilmişdir.

**Qətnamə**

Biz Binəqədi mədənlərinin müsəlman fəhlələri, 21 dekabr 1918 tarixində Səlimovun mədənində vaqe olan ictimamızda [yığıncağımızda] gənc Azərbaycan Cümhuriyyətinin demokratik əsası ilə təsis olunmuş Parlamanını səmimi qəlblə təbrik etməklə bərabər, Məhəmməd Əmin Rəsulzadə cənablarının "Müsavat" firqəsi namından [adından] zəhmətkeşlərin hüquq və həyati-ictimaiyyələrinin demokratik əsası üzərinə təsis olunması xüsusundakı deklarasiyasını zəhmətkeşlər mənbəyi olan gənc Azərbaycan Parlamanının qəbul etdiyi surətdə "Müsavat" deklarasiyalarını qövldən feilə [sözdən işə] gətiriləcəklərini ümid edir və bütün dünyanı sarımış istibdad zəncirini qabarlı əlləri ilə parçalayan ümumdünya demokratiyası namından Parlamanımıza mütəəssibən [təəssübkeşliklə] etiraz edən yalançı demokrat və mütəəssib [fanatik] millətpərəstlərə protesto ediriz.

*Sədr: Musa Axundzadə,*
*katib: Əjdər Rəşidov*

## AZƏRBAYCANDA

### Qazaxdan

Bizə yazırlar:

Rəbiüləvvəlin 2-ci günü mövludi-Rəsuli-Xuda [Allah Peyğəmbərinin mövludu] münasibətiylə yeni təsis olunmuş Qazax darülmüəlliminində [seminariyasında] mövlud bayramı gözəl bir surətdə icra olundu. Saat 11-də təklif olunmuş [dəvət edilən] möhtərəm qonaqlar darülmüəllimınə cəm oldular. Onların içində bir çox Osmanlı zabitləri dəxi var idi. Qonaqlara əvvəlcə çay-çörək verildi. Bə'də [sonra] mövlud oxunması başlandı. Aşağı ehtiyat [hazırlıq] sinfinin şagirdlərindən Nəbizadə qayət dəyərli sövtlə [avazla] "Yasini-şərifdən" bir hissə oxuyub cümləni məsrur qıldı [hamını şad etdi]. Yetim, bikəs [kimsəsiz], biçiz [yoxsul] səbinin [uşağın] böylə gözəl sövtlə düzgün "Quran" oxuması cümləni [hər kəsi] ona yaxınlaşdırdı, qəlblərdə onun üçün yer açdı, cümlənin rəğbətini kəsb etdi [qazandı]. Yetim ikən çox atalı, çox sahibli bəxtiyar bir uşaq oldu. Böylədir "Quran"ın təsiri.

Bundan sonra darülmüəllimin müdiri Firidun bəy Köçərli cənabları bu müqəddəs günün fəzilət və şərafəti [üstünlüyü və şərəfli gün olması] barəsində lazimeyi-məlumat [lazımi məlumat] verib, dini-İslamın əsas və binası nədən ibarət olduğunu bəyan etdi. Müdirin nitqindən sonra şagirdlər "Mövludnamə" kitabçasından Peyğəmbəri-zişanımızın [şanlı Peyğəmbərimizin] dünyaya gəlməsi babında [barəsində] yazılmış nəzmləri və Rəşid bəy Əfəndizadə "Mədhi-Rəsulullah" [Peyğəmbərin təriflənməsi] ünvanında yazdığı şeirlərdən bir neçə bəndləri oxudular. Bundan sonra şagirdlər müəllim Yusif əfəndi Qasımzadənin köməyi və göstərməsiylə, bir yerdə hüsni-sövt ilə [gözəl avazla] bir neçə şərqilər oxuyub, kaman çaldılar və bu vəchlə [bu şəkildə] qonaqların könüllərini şad və qəlblərini güşad etdilər [qonaqların ürəklərini açdılar]. Bu isə böylə ağır və kədərli yaşadığımız sənədə – ki, cümlənin qəlbində övlad və əqrəba yarası var idi – ən faydalı və səhhətverici dərmanlardan birisi məqamında oldu. Şərqilər arasında bəzən şeirlər oxunurdu. Onlardan ziyadə təsirliləri Tofiq Fikrətin əsərlərindən "Millət şərqisi" və "Fərda" mənzuməsi idi. Böylə ki, ikinci sinfin şagirdi Cabbar Cabbarzadə "Fərda"nı oxuduqda türk zabitləri bilaixtiyar [qeyri-ixtiyari olaraq] gözlərindən yaş tökdülər.

Bə'd [sonra] qonaqlardan Nadir bəy Dağ Kəsəmənli Qiyasbəyzadə camaata xitabən bir neçə söz söyləyib, ülum [elm] və maarif məsələsi müsəlmanlar üçün ən mühüm məsələlərdən birisi olmasını və darülmüəlliminin Qoridən Qazaxa nəqli əhali üçün böyük bir nemət olmasını sübuta yetirib, ona maddi cəhətincə kömək göstərməyə hazirunu [orada olan şəxsləri] dəvət etdi.

Axırıncı nitq söyləyən Osmanlı zabitlərindən möhtərəm Şahin bəy oldu. Darülmüəllimin kimi böyük və ziyadə faydalı bir məktəbin Qazax kimi ufacıq bir qəsəbədə bulunması möhtərəm Şahin bəy əfəndini fövqəladə məsrur [şad] eyləyir və Azərbaycandan bəklədiyi maarif işığının bir mənbəyi də Qazaxdan açılmasına ümid bəsləyir. Hər bir qüvvədən ziyadə osmanlılar ilə azərbaycanlıları birləşdirən böylə elm və maarif mənbələri olacaqdır. Saat 2-də qonaqlar şad və məsrur dağıldılar.

**Bakıdakı Ev Sahiblərinin İttifaqı**

Üzvlərindən rica edir ki, üzvlük haqqı versinlər və ümum ev sahiblərini İttifaqa üzv yazılmağa dəvət edir. Üzvlük haqqı və yeni üzvlər İttifaqın bürosuna (Qorçakovski küçədə, nömrə 1) və L.Rjanski, X.Qasımov, Yu. Mehdiyev və Q. Şulbevarın yanında yazılmaq olar. Ədliyyə bürosu düşənbə [bazar ertəsi] və pəncşənbə [cümə axşamı] günləri saat 12-dən 2-yə kimi qəbul edir.

*2620*

**Bakı Şəhər İdarəsi**

Bununla ümum ev sahiblərinə, onları əvəz edən icarədarlara, ev müdirlərinə, bunlar olmaz isə ev komitələrinin sədrlərinə elan edir ki, 1917-ci il sentyabrın 29-unda Müvəqqəti Hökumət tərəfindən təsdiq edilib, "Müvəqqəti Hökumət Əxbarı"nın 1917-ci il 13-26 oktyabrda nəşr edilən 176 (222)-cı nömrəsində elan edilən Şəhər Mədaxil, Məxaric və Smetası Qanunu mövcibincə [qanununa görə] və Şəhər Dumasının bu il 3 fevral və 14 noyabrda çıxardığı qətnaməsinə binaən [qətnaməsi əsasında] Şəhər İdarəsi mənfəətinə Bakı şəhərində mənzil vergisi qoyulur. Yuxarıda sayılan əşxas (51-ci maddə) 1919-cu il yanvarın 7-sinə kimi Şəhər İdarəsi Maliyyə şöbəsinə hər ev üçün mənzillərin siyahılarını təqdim edib, bu şeyləri göstərməlidir:

1) Mənzil sahiblərinin familini, adını və ata adını. Həmçinin mənzil pulsuz və faizlə verilibsə, yenə sahiblərinin adlarını təqdim etməlidir;

2) Mənzilin illik mədaxilini;

3) Ev sahibi özü oturduğu və yaxud pulsuz və faizlə özgəyə verilmiş mənzilin qiymətini.

Bu məlumatı yazmaq üçün Şəhər İdarəsi tərəfindən vərəqələr hazırlanıb, ev sahiblərinə göndəriləcəkdir. Kim bu vərəqələri almazsa, bunları hər gün Şəhər İdarəsi Maliyyə şöbəsindən almaq olar.

Qeyd: Bu məlumatı təqdim etməyənlər vərəqələri almamağı bəhanə edərlərsə, qəbul edilməyəcəkdir. 1919-cu il 7 yanvara kimi Şəhər İdarəsinə evlər və mənzillər barəsində düz məlumat verməyənlər üç yüz manata kimi cərimə ediləcəklərdir.

*Şəhər qlavası: P. İlyuşkin.*
*İdarə üzvü: İ. Pleskaçevski.*
*b-32 3-1*

**Bakı Sənaye və Ticarət İttifaqının** 6-cı dəstəsi sədri, üzvlərdən (İran xüşkbarı [quru meyvəsi] satanlar, un, çay, qənd alış-verişçiləri, dəyirmançılar, çörəkçilər, qanatçılar, pambıq alış-verişçiləri) rica edir ki, 29 dekabr saat 12-də Qorçakovski küçədə Tağıyevin 1 nömrəli evində 3-cü mərtəbədə birja binasında vaqe olacaq iclasa gəlsinlər.

Baxılacaq məsələlər:

1) Həcz [müsadirə] olunmuş mallar barəsində;

2) İttifaqın yeni təsdiq edilmiş məramnaməsi məsələsi;

3) Cari məsələlər.

*b-33*

**Həkimlərin xüsusi**
**gecə və gündüz növbələri**

Ünvan: Bolşoy Moskva mehmanxanası, Qoqolevski və Torqovi küçələrin küncündə. Telefon nömrələri 7-96 və 49-81. Naxoşların evinə gedirlər.

**Doktor Rza bəy Sultanov**
**Paris Darülfünunundan**

Qəbul edir daxiliyyə və əsəbi xəstələri hər gün səhər saat 9-1-ədək, axşam saat 4-7-yədək. Telefon 57-40. Adres: Persidski küçədə 22 nömrəli evdə, Gimnaziçeski küçənin küncndə.

*2603*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qarma və hər növ qayırma dişlər. Dişin yaxşı qayrılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur 9-dan 2-yə və axşam 4-dən 7-yə kimi. Vorontsovski küçə, 14 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Həkim S. L. Şklovskaya**

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Marskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

Burada leyli [gecə] yatacaqlarıyla qadın cərrahiyyə xəstəxanası mövcuddur.

*209*

**Qabil diş qayıran**
**Mirzə Xəlil Canıbəyzadə**

Qızıldan və sairədən hər cür əla dişlər münasib qiymətlə qayırır. Ünvan: Qubernski küçə, "İslamiyyə"nin sağ tərəfində ev nömrə 55.

*295*

**Arvad diş həkimi**
**A. P. Matsiyevskaya**

Naxoşları qəbul edir. Nikolayevski caddədə ev nömrə 33, Krasilnikovun evi. Telefon nömrə 45-90.

Qəbul edir saat 10-dan 2-yə kimi, 5-dən 7-yə kimi.

*283*

**Doktor**
**Doktor Samuil İzrailoviç**
**Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

*282*

**Qoldqor-Fradkinin**
**Diş müalicəxanası**

Dərya kənarında Başenni küçədə Ramazanovun 10 nömrəli evində qəbul edir hər gün saat 9-dan 2-yə kimi və 4-dən 7-yə kimi.

*2607*

**Diş həkimi İsay Samuiloviç Karşteynbaum**

Naxoşlar[ı] əvvəlki kimi qəbul edir. Dişləri ağrısız çıxarır və qızıl üzərində süni dişlər qayırır.

Ünvan: Tsitsyanovski və Çadrovı küçələrin küncündə İsrafilovun 41 nömrəli evində.

Qəbul edir hər gün saat 12-dən 3-ə kimi. Axşam 5-dən 8-ə kimi.

*2610*

**Müdir və baş mühərrir:**
**Ceyhun bəy Hacıbəyli**

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Qismi-rəsmi:***
***Məclisi-Məbusan Rəisi həzrətlərinin əmrnamələri***

"1334 sənəsi kanuni-əvvəlin ...-dən": Məclisi-Məbusan Rəisinin əmrlərində il rumi təqvimlə göstərilmişdir; miladi təqvimlə 1918-ci il dekabr ayının müvafiq gününə uyğundur.

***Keçən zabastovka haqqında***

"Qəzetələr çıxarılmadı…": Bu tətillər "Azərbaycan" qəzetinin nəşrində də fasiləyə səbəb olmuşdur. Qəzetin 72-ci nömrəsi 24 dekabr çərşənbə axşamı günü, 73-cü nömrəsi isə 5 gün sonra, yəni 29 dekabr bazar günü çap edilmişdir.

***Azərbaycan Məclisi-Məbusanında: Yeni Kabinə təşkili***

"...Məhəmmədbəyovun məbusluqdan istefası, Qasım bəyin məzuniyyəti...": söhbət Qazıəhməd bəy Məhəmmədbəyovdan və Qasım bəy Camalbəyovdan gedir.

***Erməni-gürcü toqquşması:***
***Gürcüstan ərkani-hərbindən***

"…Aramyansın evində…": Mikael Ovsepoviç Aramyansın Tiflisdə Qolovinski küçədəki mülkü nəzərdə tutulur.

***Bakı xəbərləri: Mənzil məsələsi***

"Müvəqqəti Hökumət": Rusiyada 2 mart-25 oktyabr (yeni təqvimlə 15 mart-7 noyabr) 1917-ci il tarixlərində mövcud olan hökumət nəzərdə tutulur.

***Bakı xəbərləri: Tətil***

"Müttəfiqlər komandanlığının binagüzaranlığı ilə sol firqələr başçılarından...": qəzetdə "sol firqələr" yerinə "son firqələr" getmişdir.

***Azərbaycanda: Qazaxdan***

"Rəbiüləvvəlin 2-ci günü mövludi-Rəsuli-Xuda münasibətilə...": Hicri təqvimlə 2 rəbiüləvvəl 1337-ci il; miladi təqvimlə 6 dekabr 1918-ci il; cümə gününə düşür. Həzrəti-Peyğəmbərin miladi 569, 570 yaxud 571-ci ildə, rəbiüləvvəl ayının 2, 8, 10, 12 yaxud 17-ci günü doğulduğu haqqında rəvayətlər mövcuddur. Ancaq ümumiyyətlə qəbul və qeyd edilən tarix 12 rəbiüləvvəl tarixidir. Mövlud mərasimləri də əsasən bu tarixdə keçirilirdi. "Azərbaycan" qəzetindəki məlumatda Qazax seminariyasında mövlud mərasiminin 2 rəbiüləvvəldə keçirildiyi yazılmışdır. Fəqət bu, qəzetdəki çoxsaylı mürəttib səhvlərindən biridir. Qazax seminariyasında mövlud mərasimi 12 rəbiüləvvəldə, yəni 16 dekabr 1918-ci il, bazar ertəsi günü keçirilmişdir.

"Mövludnamə": Peyğəmbərin mövlud mərasimlərində oxunmaq üçün qələmə alınan əsərlərin hər birinin müstəqil adı olsa da, bu əsərlər, ümumiyyətlə, "Mövludnamə", yaxud "Mövlud" adıyla tanınmışdır. Türk ədəbiyyatında çox sayda "Mövludnamə" yazılmışdır ki, bunların ən məşhuru Bursalı Süleyman Çələbinin 1409-cu ildə yazdığı "Vəsilətün-nicat" ("Qurtuluş vasitəsi") adlı əsəridir. "Mövludnamə" deyiləndə çox vaxt bu əsər nəzərdə tutulur.

"Onlardan ziyadə təsirliləri Tofiq Fikrətin əsərlərindən "Millət şərqisi" və "Fərda"mənzuməsi idi": "Millət şərqisi" Tofiq Fikrətin ən məşhur şeirlərindən biridir. Bəndləri "Millət yoludur, haqq yoludur tutduğumuz yol / Ey haqq, yaşa, ey sevgili millət, yaşa, var ol!" nəqəratı ilə qurtaran şeir Azərbaycanda da kifayət qədər bilinir. "Fərda" ("Sabah") şeiri isə T. Fikrətin "Bu günün gənclərinə" ithafı ilə qələmə aldığı, gəncləri tərəqqiyə, vətəni sevməyə və qorumağa dəvət etdiyi şeirdir.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## "Zəngilan" tankerinin bu ilin sonunadək istismara verilməsi nəzərdə tutulur

**Qaradağ Sənaye Parkının rezidenti Bakı Gəmiqayırma Zavodunda inşa edilən "Zəngilan" tankerinin cari ilin sonuna qədər istismara verilməsi nəzərdə tutulur.**



Tanker vasitəsilə kimyəvi maddələrin daşınması planlaşdırılır. "Zəngilan" gəmisinin konsepsiyası Odessa dəniz mühəndisliyi bürosunun mütəxəssisləri tərəfindən hazırlanaraq Bakı Gəmiqayırma Zavodunda inşa edilib. AZƏRTAC xəbər verir ki, gəmi maksimum yükgötürmə qabiliyyəti ilə Volqa-Don çayından keçmək imkanına malikdir. Texniki göstəricilərinə görə geniş imkanlara malik olan bu gəmi zavodda inşa edilən neft və kimyəvi məhsullar daşıyan tankerdir.

Hazırda Bakı Gəmiqayırma Zavodunda ən nəhəng borudüzən "İsrafil Hüseynov" gəmisinin təmiri aparılır. Bu gəminin Xəzər dənizində alternativi yoxdur.

Qeyd edək ki, zavodun ən böyük uğurları "Ro-Pax" tipli "Akademik Zərifə Əliyeva" və "Azərbaycan" bərə gəmiləridir. Orta dəhlizin inkişafında Xəzər dənizi magistral kimi yeni bir dönəmə qədəm qoyur. Marşrut böyükhəcmli yüklərin daşınmasına imkan verən gəmilərə də tələbatı artıracaq.

## SOCAR Türkiyənin cənub-şərqindəki neft quyularında kəşfiyyat işləri aparacaq

**Son 15 ildə Türkiyəyə milyardlarla dollar sərmayə qoyan SOCAR cənub-şərq bölgəsində neft quyusu qazacaq.**

AZƏRTAC Türkiyə KİV-inə istinadla xəbər verir ki, Cənub-Şərqi Anadolu bölgəsinin lider şirkəti olan PETKİM-i satın alaraq Türkiyəyə daxil olan SOCAR ilə TPAO arasında imzalanan müqaviləyə əsasən, 4 neft quyusunda neft kəşfiyyatı işləri aparılacaq.

# Sosial xidmət sistemində müasir standartlar tətbiq olunacaq

### Yeni dövlət proqramı buna zəmanət verir

**Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün Dövlət Proqramı" bir sira mütəxəssislər və beyin mərkəzləri tərəfindən şərh olunmaqdadır. İqtisadçılar və politoloqlar öz şərhlərində bu sənədin ölkəmizdə sosial xidmətlər sistemində yeni inkişaf mərhələsinə keçidi şərtləndirdiyini qeyd edir, 2026-cı ilə kimi sosial xidmətin keyfiyyətinin daha da artırılacağını proqnozlaşdırırlar.**



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yaydığı məlumatda bildirilir ki, dövlət proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi adıçəkilən nazirlik tərəfindən əlaqələndiriləcək. Belə ki, sənədin əsas hədəf göstəriciləri 2026-cı ilin sonunadək hamı üçün bərabər iştirak imkanını təmin edən sosial xidmətlər sisteminin mükəmməlləşməsi, bu sahədə ixtisaslı kadr potensialının formalaşması və sosial xidmətlərin əhatəsinin genişləndirilməsidir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi onu da diqqətə çatdırır ki, ünvanlılığın və keyfiyyətli xidmətlərə əlçatanlığın təmin edilməsi və əhalinin göstərilən xidmətlərdən məmnunluq səviyyəsinin artırılması nail olunması da qarşıya qoyulan məqsədlərdəndir.

Nazirliyin mütəxəssislərinin gəldiyi qənaət belədir ki, dövlət proqramında nəzərdə tutulan tədbirlər həyata keçirildikcə 2026-cı ilin sonunadək sosial xidmət sistemi ilə bağlı qanunvericilik bazası təkmilləşəcək, əhalinin həssas qruplarına göstərilən xidmətlərin kəmiyyət və keyfiyyəti artacaq. Həmçinin müntəzəm həyata keçirilən profilaktik abilitasiya və reabilitasiya tədbirləri stasionar sosial xidmətə ehtiyacı olan şəxslərin sayının azalmasına imkan verəcək.

Bu sənədi geniş müzakirə və şərh edən təşkilatlar arasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) araşdırması innovativ analiz tərzi ilə fərqlənir. Araşdırmada bildirilir ki, yeni dövlət proqramı ilə sosial xidmət sahəsində elektron xidmətlərin təkmilləşməsi və yeni e-xidmətlərin tətbiqi, sosial xidmət infrastrukturunun müasir beynəlxalq təcrübəyə uyğunlaşdırılması diqqət mərkəzindədir. Sənəddə həmçinin sosial xidmətlərin təşkilində vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın davam etdirilməsi, bu sahədə dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi və s. nəzərdə tutulur.

İİTKM-in əməkdaşı Elnur Ələkbərov bu inkişaf strategiyasının icrasına töhfə verəcək mühüm dövlət proqramı çərçivəsində nəzərdə tutulan tədbirləri belə şərh edib: "Sözügedən proqram qəbul olunmazdan əvvəl də ölkədə sosial dövlət və inklüziv cəmiyyət prinsipləri əsas götürülərək əhalinin sosial cəhətdən həssas təbəqəsi, o cümlədən cəzaçəkmə müəssisələrindən azad edilmiş, valideynlərini itirmiş, valideyn himayəsindən məhrum olan xüsusi internat məktəblərini bitirmiş şəxslərin sosial müdafiəsi diqqət mərkəzində olmuş və bu istiqamətdə ardıcıl məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Lakin dövlət proqramında da qeyd edildiyi kimi, son illər ölkədə ahıl, sağlamlıq imkanları məhdud şəxslərin, valideyn himayəsindən məhrum olan uşaqların sayının çoxalması sosial xidmətlərə tələbatı da yüksəltmişdir. Sosial xidmətlərin sayının artmasına baxmayaraq, bu artım daha sürətlə baş verir".

İİTKM-in təmsilçisi qeyd edir ki, dövlət proqramı sosial xidmətlərin əhatəsinin genişlənməsi və keyfiyyətinin yüksəldilməsi baxımından olduqca əhəmiyyətli sənəd hesab oluna bilər. Proqramın icrası bu sahədə bir çox müsbət dəyişikliklərin yaranmasına gətirib çıxaracaq: "Dövlət proqramı çərçivəsində sosial xidmət müəssisələrinin fəaliyyətinə nəzarətin vahid mexanizminin müəyyən edilməsi və sosial xidmət sahəsində fəaliyyətin əlaqələndirilməsi məqsədilə Koordinasiya Şurasının yaradılması nəzərdə tutulmuşdur. Həmçinin proqramın icrası nəticəsində 2026-cı ilə kimi sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş 400 məzunu mənzillə təmin ediləcək, 6 şəhər və rayonda ahıl şəxslərin cəmiyyətə inteqrasiyasını hədəfləyən layihələr həyata keçiriləcək. Bundan başqa, azı 120 uşağın himayədar ailəyə verilməsi və 220 uşağın ailəyə qaytarılması istiqamətində iş aparılacaq, ailədaxili mübahisələrin həlli ilə bağlı mediasiya xidmətlərinin təşkili genişləndiriləcək, dövlət sifarişi ilə sosial xidmət sahəsində həyata keçirilən layihələrin sayının hər il 10 faiz artmasına nail olunacaq".

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

# Qlobal problemin milli həll yolu



## Azərbaycanda yeni iş yerlərinin yaradılması istiqamətində müxtəlif tədbirlər görülür

**Azərbaycan əhalisi dinamik artan və gənclərinin sayı yüksək olan ölkələrdəndir. Bu üzdən dövlət əhalinin məşğulluğunun təmin edilməsinə xüsusi diqqət yetirir. Özəl sektorun inkişafına və sahibkarlığa dəstək verilir, müxtəlif sosial layihələr icra edilir. Son vaxtlar kiçik fərdi təsərrüfatların yaradılması və əməkhaqqı ödənilən ictimai iş yerlərinin açılmasında da buna əlavə etmək olar.**

Əhalinin məşğulluğu dünyada həmişə ciddi problem sayılıb. Bunun bir səbəbi adətən qlobal iqtisadiyyatdakı geriləmə ilə əlaqəli olur. Ancaq müasir dövrdə mütəxəssislər bunun əsas səbəblərdən biri kimi istehsal və xidmət sahələrində yüksək texnologiyaların tətbiqini göstərirlər və bu, həqiqətdir. Çünki süni intellektin istehsal və xidmət sahələrində tətbiqi insan əməyinə yer qoymur ki, bu da hər tərəfdən sərfəlidir - işçi qüvvəsindən az istifadə etməklə izafi xərcləri azaldıb yüksək gəlir götürmək imkanı yaratdığı üçün.

Məlumdur ki, əl əməyindən ən çox kənd təsərrüfatında istifadə olunur və bu, əhalinin məşğulluğunun təmin edilməsində önəmli rol oynayır. Lakin son vaxtlar aqrar sektorda da yüksək texnologiyalardan istifadəyə üstünlük verilir. Sözümüzün canı odur ki, elm qaş düzəltdiyi yerdə vurub göz çıxarır. Başqa sözlə desək, bəşəriyyət texnika və texnologiyaların inkişafı sayəsində yeni bir problemlə qarşılaşıb.

Azərbaycanda da yeni texnologiyalardan sənayedə, tikintidə, kənd təsərrüfatında və xidmət sahələrində istifadəyə geniş yer verilir. Nə demək olar, bu, zamanın tələbidir və ondan qaçmaq mümkün deyil.

Hazırda dünya sosial sahədə iki önəmli problemlə üz-üzədir. Biri qeyd etdiyimiz kimi, yüksək texnologiyalar sayəsində işsizliyin artmasıdır. İkincisi isə dünya əhalisinin sürətlə çoxalmasıdır. Bu problemlər dövlətlərdən sosial sahəyə daha çox vəsaitin ayrılmasını tələb edir. Belə olan halda dövlət problemi həll etmək üçün sahibkarlardan və işləyən əhalidən daha çox məbləğdə vergi almaq məcburiyyətində qalır. Bu zamansa vergi ödəyənlər narazı qalır. Nə isə, qapalı dairədir, ondan çıxmaq elə də asan deyil. Amma bütün hallarda dünyanın bu dilemmanı həll etmək üçün bir yol tapacağına şübhə etmirik.

İşlə təminat həm də mənəvi məsələdir. Çünki işsizlik vətəndaşın qanundankənar əmələ marağını artırır. Mütəxəssislərin hesablamalarına görə, cinayət törədən insanların arasında işsizlərin sayı yüksəkdir. Bu, bütün dünyanın başağrısıdır. O səbəbdən Azərbaycanda vətəndaşların sosial müdafiəsini təmin edən layihələrin önündə məşğulluğun olması təsadüfi deyil. Bu istiqamətdə islahatlar aparılır, dövlət proqramları qəbul edilir, beynəlxalq təşkilatlarla yaxından əməkdaşlıq edilir, layihələr həyata keçirilir. Çünki... qəbul olunur, layihələr həyata keçirilir.

Layihənin icrası çərçivəsində bütün regionlar boyu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən işsiz və işaxtaran şəxslər üçün mütəmadi əmək yarmarkaları təşkil edilir. Məsələn, belə yarmarkaların birində "Saloglu" mebel firması tərəfindən yeni açılmış "Venzana" mebel fabrikində 100 vakansiya təqdim olunmuşdur. Başqa bir əmək yarmarkası isə Abşeron-Xızı Regional Məşğulluq filialı tərəfindən Abşeron Rayon İcra Hakimiyyəti ilə birgə keçirilmişdir. Tədbirdə 22 müəssisə tərəfindən 175 iş yeri təqdim edilmiş, işsiz və işaxtaran şəxslərə işəgötürənlərlə əlaqə qurmaq və boş iş yerləri ilə tanış olmaq imkanı yaradılmışdır.

"Böyük qayıdış" proqramı üzrə Laçın rayonuna köçürülən sakinlərin özünüməşğulluğuna da dəstək verilir. İlkin mərhələdə sakinlərdən 35 nəfər özünüməşğulluq proqramına cəlb edilmələri üçün qeydiyyata alınıb. Həmin şəxslər üçün əvvəlcə biznes təlimləri təşkil ediləcək, sonrakı mərhələdə iştirakçılara sahibkarlığa dəstək üçün müvafiq dəstək mexanizmləri barədə məlumatlar veriləcək. Təlimlərdən sonra onlar proqram çərçivəsində kənd təsərrüfatı, istehsal, xidmət sahələri üzrə kiçik bizneslərini qurmaları üçün aktivlərlə təmin olunacaqlar.

Sonda isə konkret rəqəmlər: Dövlət Statistika Komitəsindən verilən məlumata görə, cari ilin altı ayı ərzində ölkədə 38,9 min yeni iş yeri yaradılıb. Həmin dövrdə yaradılmış iş yerlərinin 93,4 faizi qeyri-dövlət sektorunda açılmışdır. Bu fakt onu göstərir ki, yeni iş yerlərinin yaradılmasında özəl sektor daha fəaldır. Ölkə üzrə cari il iyulun 1-i vəziyyətinə muzdla çalışanların sayı 1 milyon 725,5 min, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 894,2 min, qeyri-dövlət sektorunda 831,3 min nəfər olmuşdur. Bu dövrdə iqtisadiyyatın neft-qaz sektorunda 31,6 min, qeyri-neft-qaz sektorunda isə 1 milyon 693,9 min nəfər çalışmışdır.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Naxçıvanda Karyera Forumu keçiriləcək

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin təşkilatçılığı ilə bu il sentyabrın 29-da Naxçıvan şəhərində "Qədim diyarda yeni fürsətlər" devizi altında Karyera Forumu keçiriləcək.**




Naxçıvanda ilk dəfə olaraq keçiriləcək Karyera Forumunun məqsədi peşəkar kadrların yetişdirilməsi, kadr ehtiyaclarının qarşılanması, əmək bazarında keçidin asanlaşdırılması və peşəkar bacarıqların inkişaf etdirilməsidir.

Karyera inkişafı sahəsində çalışan peşəkarlar bu tədbirdə bir araya gələcək. Forumda 4 yerli və 2 xarici spikerin iştirakı ilə "Bilməmək eyib deyil, peşəkardan soruşmamaq eyibdir", "Bacarıq əmək bazarının cövhəridir" və "Dövr elə bu dövrdür" adlı 3 panel müzakirə keçiriləcək.

Tədbirdə dövlət və özəl sektor nümayəndələri, karyera məsləhətçiləri, təlimçilər, insan resursları üzrə mütəxəssislər, inkişaf mentorları və sahibkarların iştirakı nəzərdə tutulub.

Naxçıvan Karyera Forumuna iştirakçı qismində qatılmaq istəyən şəxslər üçün yaxın günlərdə qeydiyyat başlanacaq.

## Azərbaycan Pakistanda informasiya texnologiyaları sərgisində iştirak edir

**Azərbaycan avqustun 31-dən sentyabrın 2-dək davam edəcək Pakistanın Karaçi şəhərində keçirilən 23-cü "ITCN Asia" İnformasiya Texnologiyaları (İT) Sərgisində iştirak edir.**



İT sərgisinə Azərbaycanla yanaşı, Çin, Sinqapur, BƏƏ, Səudiyyə Ərəbistanı və ABŞ də daxil olmaqla, 8 ölkədən 100 xarici nümayəndə, ümumilikdə isə 450-dən çox təşkilat qatılıb.

Sərgi Karaçi Ekspo Mərkəzində təşkil edilib. Tədbirin əsas tərəfdaşları "Google", "P@SHA" və "UNIFONIC" şirkətləridir.

AZƏRTAC xəbər verir ki, tədbirin açılış mərasimində Pakistanın Elm və Texnologiya və İnformasiya Texnologiyaları və Telekommunikasiya üzrə federal naziri Umair Saif çıxış edib. İlk dəfə bu tədbir çərçivəsində mobil telefon şirkətləri "Made-in-Pakistan" mobil cihazlarını təbliğ edən ayrıca Telekom pavilyonunda nümayiş olunacaq. Sərgidə Special Communications Organization, InoTech Solutions, Systems Limited, Abacus Consulting, Transworld, UNIFONIC, S.I Global Solutions şirkətləri ilə yanaşı, digər qlobal brendlərin nümayiş olunduğu 400-dən çox stend quraşdırılıb.

CIO Qlobal Forumu Pakistanda eksklüziv tədbirini də təşkil edəcək. Kibertəhlükəsizlik, elektron ticarət, fintech, agile, digital education, gaming və s. mövzularda müxtəlif konfranslar keçiriləcək.

Üç gün ərzində davam edəcək tədbirə 35000-dən çox ziyarətçinin qatılacağı gözlənilir.

## Neftin qiymətləri müxtəlif istiqamətlərdə dəyişib

**Dünya birjalarında neft qiymətləri müxtəlif istiqamətlərdə dəyişib.**

Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 0,06 dollar azalaraq 85,8 dollar olub. Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında da "Light" markalı neftin bir barelinin qiyməti isə 0,03 dollar bahalaşaraq 81,66 dollar təşkil edib.

# 52 minə yaxın gənc tələbə adı qazandı

**Dövlət İmtahan Mərkəzi tərəfindən ali məktəblərin bakalavr pilləsinə qəbulun nəticələri açıqlandı. Məlum oldu ki, 52 minə yaxın abituriyent tələbə adı qazanıb. Abituriyentlərlə birlikdə valideynlərin də eyni həyəcanla gözlədiyi bu xəbər neçə-neçə ailəyə sevinc bəxş edib. Tələbə adı dəyərli, məsuliyyətli və qürurvericidir. O ad ki, 11 illik əməyin, zəhmətin və iradənin bəhrəsidir.**



## On minlərlə abituriyent tələbə olmağın sevincini yaşayır

Bu il ali təhsil müəssisələrinə qəbul imtahanlarında 70 min 301 nəfər gənc iştirak edib. Onlardan 51 min 941 nəfəri qəbul olunub. Abituriyentlərdən 24 min 594 nəfəri dövlət sifarişi əsasında, 27 min 347 nəfəri isə ödənişli əsaslarla təhsil almaq hüququ əldə edib. Tələbə adını qazanmış abituriyentlərin 16-sı şəhid övladı, 1-i isə şəhid xanımıdır.

Onu da qeyd edək ki, bu il 2 nəfər beynəlxalq fənn olimpiadası, 50 nəfər respublika fənn olimpiadası, 98 nəfər beynəlxalq idman yarışlarının qalibi olduğu, 31 nəfər isə beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları (IB və A-Level) üzrə təhsil aldığı üçün müsabiqədənkənar ali təhsil müəssisələrinə qəbul olublar.

Dünən Dövlət İmtahan Mərkəzi tərəfindən "Abituriyent" jurnalının 6-cı nömrəsi nəşr edilib. Jurnalda 2023/2024-cü tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə qəbul olmuş abituriyentlərin siyahısı qruplar üzrə çap olunub. Eyni zamanda həm təhsili ödənişli əsaslarla aparılan ixtisaslar üzrə, həm də dövlət sifarişi əsasında aparılan yerlər üzrə müsabiqə nəticəsində alınmış uyğun keçid balları, həmçinin dövlət sifarişi əsasında qəbul olan abituriyentlərin ali təhsil müəssisələri və ixtisaslar üzrə paylanması barədə məlumatlar, müsabiqədənkənar qəbul olmuş abituriyentlərin siyahısı və müsabiqənin birgə aparıldığı ixtisaslar üzrə plan yerlərinə Azərbaycan və rus bölmələrindən qəbul olan abituriyentlərin sayı haqqında məlumat təqdim edilib.

## Bu il ən yüksək keçid balı 673 olub

Ali məktəblərə builki qəbul imtahanlarının nəticələri açıqlanandan sonra Azərbaycandakı universitetlər arasında ən yüksək keçid balının hansı ixtisasda olduğu müəyyənləşib. Bu il ən yüksək keçid balı 673 olaraq Bakı Ali Neft Məktəbinin informasiya təhlükəsizliyi (dövlət sifarişli) ixtisasında olub.

Bu mərhələdə uğur qazana bilməyən abituriyentlərin isə hələ də qəbul şansı var. Ali təhsil müəssisələrinə yerləşdirmənin I mərhələsindən sonra I ixtisas qrupu üzrə 1557, II ixtisas qrupu üzrə 217, III ixtisas qrupu üzrə 994, IV ixtisas qrupu üzrə 231, V ixtisas qrupu üzrə isə 350 plan yeri boş qalıb. Vakant yerlərə ixtisas seçimi sentyabrın 4-dən 9-dək internet vasitəsilə aparılacaq. Abituriyentlər elektron ərizədə ali təhsil müəssisələrinin boş qalan plan yerlərinin ixtisasları ilə yanaşı, orta ixtisas təhsili müəssisələrinin ixtisaslarının da kodlarını göstərə bilərlər.

Xatırladaq ki, ötən il ali təhsil müəssisələrinin müsabiqəsində 66 min 724 nəfər iştirak etmişdi. Onlardan 48 min 841 nəfəri ali təhsil müəssisələrinə qəbul olunmuşdu.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Qanunsuz erməni silahlıları ordumuzun Şuşa istiqamətindəki mövqelərinin qarşısında fortifikasiya qurğuları quraşdırmağa cəhd göstəriblər

Avqustun 31-i saat 10:55 radələrində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun Şuşa rayonu istiqamətindəki mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər.

Bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Ordumuzun bölmələri görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işləri dərhal dayandırıblar.

*AZƏRTAC*


# Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

## *açıq tender elan edir*

Zaqatala rayonu O.Rəsulov adına Muğanlı kənd 432 şagird yerlik tam orta məktəbin tikinti işlərinin satın alınması.

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi, təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək olar:

Əlaqələndirici şəxs - Z.Quliyev.
Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi, 18.
Tel: (+99412) 465 73 48 (134).

Maraqlananlar açıq tender prosedurunun Əsas şərtlər toplusunu 2000,00 (iki min) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçı açıq tender prosedurunda iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir.) Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir (28.08.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (28.08.2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi orqanı, probasiya şöbəsi və ya müvafiq kommersiya məhkəməsi tərəfindən təqdim olunmuş arayış) (28.08.2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 28.08.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
- *iddiaçının müvafiq sahədə peşəkarlığı, təcrübəsi, maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçı inşa etdiyi analoji tikililər barədə "Tikinti obyektinin istismarına icazə" sənədinin surətini və ya inşasını davam etdirdiyi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (baş podratçı kimi analoji işlərə dair son 2 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *oxşar işlər üzrə iş təcrübəsini təsdiq etmək üçün belə işlərin həyata keçirildiyi müəssisə və təşkilatdan tövsiyə məktubları;*
- *iddiaçının maddi texniki bazası (sifarişi yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır);*
- *iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 60 (altmış) bank günü);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 4 oktyabr 2023-cü il saat 12:00-a, tender təklifi və tender təklifinin bank təminatını 12 oktyabr 2023-cü il saat 12:00-a qədər yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 13 oktyabr 2023-cü il saat 12:00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***



# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*





# "Qarabağ" Avropa Liqasının qrup mərhələsinə adladı






**Dünən Bakıda Tofiq Bəhramov adına Respublika stadionunda UEFA Avropa Liqasının pley-off mərhələsinin cavab qarşılaşmasında Ağdamın "Qarabağ" komandası Sloveniyanın "Olimpiya" klubunu qəbul edib. Bir həftə öncə Lyublyanada bu komandalar arasında keçirilmiş ilk görüşdə Azərbaycan klubu qələbə qazanmışdı - 2:0.**

Artıq 3-cü raunddan sonra UEFA Konfrans Liqasının qrup mərhələsində yerini təmin etmiş "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov Avropa Liqasının pley-off mərhələsinin cavab görüşündən əvvəl mətbuat konfransında bildirmişdi ki, ilk matçda qazanılan qələbədən sonra arxayınlaşmaq olmaz: "Qrup mərhələsindən əvvəl son oyunumuzdur. İlk matçda qələbə qazansaq da, bu oyunda ciddi olmalıyıq. Hesab bizi aldatmamalıdır. Onlar cavab görüşündə heç nədən çəkinməyəcəklər. Biz daha fəal və aqressiv olmalıyıq. "Olimpiya"nın istənilən rəqibə qalib gəlmək üçün potensialı var. Futbolçular rəqibin oyununu yaxşı bilirlər. Burada daha diqqətli davranmalıyıq".

Eyni zamanda qonaqların baş məşqçisi Joao Enrikes RTVSlo kanalına müsahibəsində "Qarabağ"la cavab oyunu haqda fikirlərini bölüşmüş və Bakıya qələbə üçün gəldiklərini bildirmişdi: "Hələ hər şeyin bitdiyini düşünmürəm. Biz Azərbaycana qələbə üçün gəlmişik. Qol vurmaq və ən yaxşısı buraxmamaq lazımdır. Hücum edib sona qədər oynayacağıq. Rəqibimiz kifayət qədər təcrübəlidir, lakin buna baxmayaraq, ilk oyunda göstərdik ki, onlarla rəqabət apara bilərik".

Görüşün idarə edilməsi İspaniyadan olan hakimlər briqadasına həvalə olunmuşdu. Baş hakim Alexandro Ernandesə Xose Naranxo və Dieqo Sançes Roxo kömək edirdilər. Dördüncü hakim funksiyasını isə Alexandro Munyis Ruis yerinə yetirirdi.

Gözlənildiyi kimi, start fitilə hücuma atılan sloveniyalılar aqressiv oyunla qısa müddətə təşəbbüsə yiyələnsələr də, tədricən ağdamlılar üstünlüyü ələ almağı bacardılar. 24-cü dəqiqədə Leandro Andradeyə qarşı kobudluğa görə təyin olunmuş penaltini Toral Bayramov dəqiq zərbə ilə qola çevirdi -1 :0. Lakin 36-cı dəqiqədə Julio Romaonun səhvindən istifadə edən Dioqu Pintu effektli zərbə ilə hesabı bərabərləşdirdi - 1:1.

İkinci hissə qarşılıqlı hücumlarla keçdi və hər iki komandanın fərqlənmək imkanları oldu. Ancaq hesab sonadək dəyişmədi və bu, "Qarabağ" üçün sərfəli nəticə idi.

Beləliklə, iki oyunun yekununa görə futbolçularımız qalib oldular. Onlar ardıcıl 10-cu dəfə avrokubokların qrup mərhələsində çıxış edəcəklər.

Bu gün Monakoda püşkatma keçiriləcək və "Qarabağ"ın qrup mərhələsində rəqibləri bəlli olacaq.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Yekaterinburqda Beynəlxalq Universitet İdman Festivalının bağlanış mərasimi keçirilib

**Avqustun 31-də Rusiyanın Yekaterinburq şəhərində Beynəlxalq Universitet İdman Festivalının bağlanış mərasimi keçirilib.**



AZƏRTAC xəbər verir ki, mərasim Yekaterinburqun Beynəlxalq Sərgi Mərkəzində təşkil olunub.

İlk olaraq festivalda iştirak edən ölkələrin bayraqlarının paradı gerçəkləşib, çıxışlar olub.

Sonra Rusiya Federasiyasının Dövlət Himni səsləndirilib.

Beynəlxalq Universitet İdman Festivalının bağlanış mərasimi musiqili şou proqram və müxtəlif səhnəciklərlə başa çatıb.

Qeyd edək ki, festival Yekaterinburq şəhərinin 300 illik yubileyinə həsr edilib. 36 ölkədən müxtəlif universitetlərin tələbələri ümumilikdə 14 idman növündə qüvvələrini sınayıblar.

Festivalda Azərbaycanı 10 təhsil ocağından 54-ü kişi 15-i qadın olmaqla, 69 idmançı təmsil edib. Təmsilçilərimiz 8 idman növündə - badminton, stolüstü tennis, boks, güləş, taekvondo, futzal, üzgüçülük, sambo üzrə yarışıblar.

İdmançılarımız, ümumilikdə 28 medal əldə ediblər. Bunların dördü qızıl, səkkizi gümüş, on altısı bürüncdür. Yarışda Azərbaycan medalların sayına görə altıncı yeri tutub.

Ev sahibi Rusiya birinci, Çin ikinci, Braziliya isə üçüncü pillənin sahibi olublar.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5457
Sifariş 2178

Qiyməti 40 qəpik